*Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi.*

*Mehriban ƏLİYEVA,*
*YUNESKO-nun xoşməramlı səfiri,*
*Heydər Əliyev Fondunun Prezidenti*

# Xoşməramlı səfir

3535

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

IV KİTAB

BAKI - ŞƏMS - 2007

70(5Aze) + 66.4(0)
X 76

Az2
2006

**"XOŞMƏRAMLI SƏFİR"**

**Bakı, "ŞƏMS" nəşriyyatı - 2007, 212 səh.+24 rəngli səh.**

*Tərtibçi:* *Əlisəfa ƏLİYEV,*
*Azərbaycan Dövlət Dəmir Yolu*
*Yeni Azərbaycan Partiyasının*
*"Daşıma Proseslərini İdarəetmə"*
*Birliyi üzrə təmsilçisi*

*Elmi redaktor:* *Qafar ƏLİYEV,*
*siyasi elmlər namizədi,*
*YAP Siyasi Şurasının üzvü*

*Ön sözün müəllifi:* *Nihad MƏMMƏDOV,*
*Yeni Azərbaycan Partiyasının üzvü*

*Rəyçilər:* *Lətifə MƏMMƏDOVA,*
*tarix elmləri namizədi, dosent*
*Midhət QƏFƏROV,*
*hüquq elmləri namizədi, dosent*

Az99

*Kitabda YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın Azərbaycan elminin, təhsilinin və mədəniyyətinin inkişafı sahəsində gördüyü işlər, ölkəmizi beynəlxalq aləmdə yüksək səviyyədə təmsil etməsi və xeyriyyəçilik fəaliyyəti ilə bağlı məqalələr toplanmışdır.*

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitab Mehriban xanım Əliyevanın nəcib və xeyirxah əməlləri ilə daha yaxından tanış olmaq baxımından mühüm əhəmiyyət kəsb edir.*

(Kitab çapa hazırlanarkən AzərTAc-ın və "Xalq Qəzeti"nin materiallarından istifadə olunub)

X $\frac{5100000179\ (57)}{127\text{-}2007}$ qrifli nəşr

© ŞƏMS











# QADIN ÜRƏYİNİN ŞƏFƏQLƏRİ

Çağdaş dünyamızın qeyri-adi hadisələrlə zəngin olduğu elmi-texniki inqilabın vüsət aldığı ölkə sərhədlərinin inzibati coğrafi anlayışa çevrildiyi, planetimizi dalı çox siyasətləşdiyi, nəhəng qloballaşma prosesinin sürətləndiyi super fövqəl dövlət Amerika Birləşmiş Ştatlarının diktəetmə hikkəsinin atdığı, beynəlxalq siyasi təşkilatlarla razılaşmadığı bir zamanda insan faktorunun aliliyi daha qabarıq şəkildə görünməkdədir. Yəni elə hallar olur (əvvəllər də olub və indən belə də olacaq) ki, ayrı-ayrı dövlət başçılarının onların yaxın ətrafının subyektiv münasibətindən insanlar əziyyət çəkməli oldular. Bəşəriyyətin maddi-mənəvi dəyərləri zədələnib. Bəzi hallarda şər qüvvələr tüğyan edib və s.

Xoşbəxt o millətdir ki, onun adil, humanist, cəsarətli, millətsevər, dönməz, bilikli rəhbəri, başçısı var. O dövlət qüvvətli və qüdrətlidir ki, dövlət başçısı ən vacib ali və insani keyfiyyətləri - dəqiqi idarəetmə, gələcəyigörmə qabiliyyətini, dərin siyasi dünyagörüşünü, dinamik iqtisadi təfəkkürü, adamlarla işləmə bacarığı, millətinin rifahı naminə çalışqanlığı (özünü fəda etməyi) və s. bu kimi keyfiyyətləri özündə birləşdirməklə çoxlarından seçilə bilir. Bu mənada bizim bəxtimiz gətirib. Dünyanın ən məşhur siyasi xadimi uzun illər ölkəmizə (həm də SSRİ məkanında) rəhbərlik etmiş, müdrik və unudulmaz Heydər Əliyevdən sonra cənab İlham Əliyev kimi zəka sahibinin, işgüzar, çevik, bacarıqlı və bilikli geniş dünyagörüşlü, hardasa yeni tipli bir siyasi şəxsiyyətin böyük səs çoxluğu ilə Azərbaycan Prezidenti seçilməsi də bizim bəxtimizə düşən qiymətli bir şansdır.

Özünü haqlı olaraq, hər bir Azərbaycan vətəndaşının prezidenti elan etmiş, cənab İlham Əliyevin başlıca qayəsi və amalı hər bir Azər-

baycan vətəndaşının xoşbəxt yaşaması, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin sosial-iqtisadi möhtəşəmliyini, milli ordumuzun gücləndirilməsi, bütünlükdə Azərbaycanımızın dünya dövlətləri arasında özünə layiq şərəfli bir yer tutması və qüdrətlənməsi uğrunda çalışmaq, yaratmaq və mübarizə aparmaqdır.

Və hörmətli prezidentimizin qaynar fəaliyyəti, daxili və xarici siyasi xətti, yaradıcı təşəbbüsləri, genişmiqyaslı tədbirləri bir daha təsdiq edir ki, bizim hər birimizin taleyi möhkəm əllərdədir. Və sabahkı günlərimizin daha işıqlı, daha cazibədar olacağına zərrəcə şübhəmiz yoxdur. Bütün bunlar üçün maddi-mənəvi gücümüzün yetərincə olduğu da gün kimi aydındır.

Tərəqqidən və inkişafdan danışarkən çox mühüm bir amili də nəzərə almaq, onunla hesablaşmaq vacibdir. Bu, ölkə başçısının ən yaxınlarının şəxsiyyəti, mədəni-siyasi səviyyəsi, cəmiyyətdəki yeri, hörməti, nüfuzu məsələsidir desək, yerinə düşər.

Cənab İlham Əliyevin ömür-gün yoldaşı Mehriban xanım Əliyeva özünün qadın ləyaqəti, qadın şəfqəti, ana qüruru və digər işıqlı keyfiyyət çalarları ilə seçilən-sayılan ümumxalq diqqətinə və məhəbbətinə layiq olan bir şəxsiyyətdir. Və onun milli mədəniyyətimizin, təhsilin, səhiyyənin intişar tapmasında rolu və yeri hər cür təqdirə layiqdir.

Mehriban xanım Əliyeva özünün həyat məramını, ömrünün mənasını insanlara, xüsusilə ehtiyac içində yaşayan, qayğı və diqqətə daha çox ehtiyacı olanlara yardım etməkdə, onları sevindirməkdə, ürəklərə işıq paylamaqda görür. Və bu niyyətlə də hər gün, hər saat işiylə, əməyilə ucalır, artır. Ən ali məqamlaradək yüksələ bilir. Onu da etiraf etmək lazımdır ki, Mehriban xanım Əliyevanın ictimai fəaliyyətinin, yaradıcı təxəyyülünün sərhədləri çox genişdir, üfüqlərdən-üfüqlərəcən Azərbaycan diyarının hər yerini, nura bürüməkdədir.

Heydər Əliyev Fondunun yaradıcısı və rəhbəri, Milli Məclisin de-





putatı, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun sədri, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, "Azərbaycan-İrs" jurnalının baş redaktoru kimi çoxşaxəli fəaliyyət meydanı olan Mehriban xanım Əliyeva bu günlərdə İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) xoşməramlı səfir adına layiq görülmüşdür.

Mehriban xanım ölkəmizdə təhsilin, mədəniyyətin, səhiyyənin inkişaf etdirilməsinə xidmət edən və təkan verən bir sıra mühüm layihələrin müəllifi və təşkilatçısıdır.

"Yeniləşən Azərbaycana yeni məktəb" "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə" kimi vacib layihələrin icrası istiqamətində həyata keçirilən tədbirlər göz qabağındadır.

Son iki il ərzində ölkəmizin ən ucqar kənd yerləri daxil olmaqla müasir kompüterlə təchiz edilməklə 180 məktəb binası tikilib istifadəyə verilmişdir.

Milli musiqimizin, muğamlarımızın təbliğində Heydər Əliyev Fondunun rolu danılmazdır. Fondun təşəbbüs ilə "Qarabağ xanəndələri" adlı disk buraxılmışdır. "Qarabağ həqiqətləri" adlı kitab nəşr edilmişdir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakının ən mənzərəli yerində Milli Park ərazisində Beynəlxalq Muğam Mərkəzi inşa olunmaqdadır.

Mehriban xanım Əliyeva həm də işgüzar bir deputat kimi seçicilərinin böyük hörmətini qazanmışdır. Onun təşəbbüsü ilə Mərdəkan, Binə, Şüvəlan, Türkan, Zirə və sairə qəsəbələrdə geniş tikinti abadlıq işləri həyata keçirilmişdir. Küçələr qaydaya salınmış, bir sıra yerlərə içməli su xətləri çəkilmiş, elektrik enerjisi şəbəkəsi bərpa və təmir olunmuşdur. Mehriban xanım vaxtaşırı məktəblərdə, uşaq bağçalarında, sadə adamların ailəsində, çay süfrəsində görmək indi adi hala çevrilib. O, hər ailənin sevimlisidir. Balaların himəyadarıdır. Həmişə hər yerdə, dara düşənlərin yanındadır. İndi hər gün Heydər

Əliyev Fonduna yüzlərlə məktub və teleqram daxil olur, Mehriban xanımla görüşməyə can atan, ona ürək qızdırıb dərdini deməyə tələsənlərin sayı yüzlərcə, minlərcədir. Belə xalq məhəbbəti hər kəsə qismət olan səadət deyil. Bu xoşbəxtliyi, bu ünsiyyəti onun özü yaradıb, bu onun halal haqqıdır. Belə bir səmimiyyət hər şeydən əvvəl Mehriban xanımın milli təəssübkeşliyindən, təmizliyindən, sadəliyindən, xeyirxah niyyətindən və digər bu kimi ali insani keyfiyyətlərindən irəli gəlir.

23 noyabr 2006-cı ildə Mehriban xanım Əliyeva ona İSESCO-nun xoşməramlı səfiri adı verilməsinə həsr edilmiş mərasimdə çıxış edərək demişdir: "Biz öz fəaliyyətimizə milli mədəni irsimizin qorunmasına çox diqqətlə yanaşırıq. Eyni zamanda, Heydər Əliyev Fondu dünyanın bir sıra elmi mərkəzləri ilə çox sıx əməkdaşlıq edir. Biz bir il ərzində fondumuzda bir neçə beynəlxalq konfrans keçirtmişik. Bütün bu tədbirlərə dünyaşöhrətli alimləri dəvət edirik və ölkəmizdə olan reallıqları, həqiqətləri onlara çatdırmağa çalışırıq. Bu da öz növbəsində dünyada Azərbaycanın həqiqi imicini formalaşmasında böyük rol oynayır". Mehriban xanım Əliyevanın yorulmaz çalışqanlığının, işgüzarlığının insanlara doğma və mehriban münasibətinin nəticəsidir ki, yüksək səviyyəli bir Azərbaycan xanımı kimi nüfuzu və hörməti gündən-günə artır. Onun həssas və duyğulu qadın ürəyinin şəfəqləri neçə-neçə insanın ömür yoluna işıq saçır.

***Nihad MƏMMƏDOV,***
***Yeni Azərbaycan Partiyasının üzvü***





# TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

Türkiyə Prezidenti Əhməd Necdət Sezər aprelin 5-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Türkiyənin dövlət başçısını və onun xanımı Səmra Sezəri böyük səmimiyyətlə qarşıladılar. Mehriban xanım Əliyeva Türkiyə Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev ali qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Türkiyə dövlətinin başçısı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin verdikləri hədiyyələrlə, ulu öndə-

riniz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

Türk dünyasının böyük öndəri Heydər Əliyevin qardaş ölkəyə səfərlərini, eləcə də Türkiyə Cümhuriyyətinin dövlət və hökumət rəhbərlərinin Azərbaycana səfərlərini, birgə görüşləri əks etdirən fotolar qonaqlarda xüsusi maraq doğurdu.

Prezident Əhməd Necdət Sezər fondla tanışlıqdan sonra Xatirə kitabına öz ürək sözlərini yazdı: "Azərbaycanın böyük öndəri, əziz dostum, mərhum Cümhurbaşqanı Heydər Əliyevin adına qurulan bu önəmli məbədgahı ziyarətimdən məmnunam.

Azərbaycan dövlətinin dünyada öz layiqli yerini tutması üçün atdığı addımlar onu həmişə yaşadacaqdır.

Cağdaş Azərbaycanın indi mühüm inkişafa nail olduğunu görməkdən qürur duyuram.

Bu nailiyyətlərin əldə edilməsində Heydər Əliyev Fondunun əməkdaşlarına və onun rəhbəri Mehriban xanım Əliyevaya apardığı böyük işlərdə uğurlar diləyirəm".

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Əhməd Necdət Sezər fondun binasının eyvanından Bakının, Xəzərin mənzərəsini, qədim İçərişəhəri seyr etdilər.

Azərbaycan və Türkiyənin dövlət başçıları və xanımları sonra çay süfrəsi arxasında səmimi söhbət etdilər.

Qardaş ölkənin Prezidentinə üzərində onun portreti toxunmuş nəfis xalça və fondun layihələri olan kitablar, musiqi albomları hədiyyə edildi.

Prezident Əhməd Necdət Sezər Türkiyənin İznik vilayətinin ustaları tərəfindən xüsusi olaraq hazırlanmış nəfis çini qabı Mehriban xanıma təqdim etdi.





Azərbaycan və Türkiyə prezidentləri və xanımları birlikdə xatirə şəkilləri çəkdirdilər.

Ali qonaq fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

Fondun binası qarşısına toplaşmış yüzlərlə şəhər sakini prezidentlər İlham Əliyevi və Əhməd Necdət Sezəri hərarətlə salamladılar.

*"Xalq qəzeti",*

***6 aprel 2006-cı il***

# MDB ÖLKƏLƏRİ YƏHUDİ İCMALARI FEDERASİYASININ NÜMAYƏNDƏ HEYƏTİ HEYDƏR ƏLİYEV FONDUNDA OLMUŞDUR

MDB ölkələri Yəhudi icmaları Federasiyasının prezidenti Lev Levayevin rəhbərlik etdiyi nümayəndə heyətinin üzvləri aprelin 11-də Heydər Əliyev Fondunda olmuşdur.

Nümayəndə heyətinin üzvlərinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi. Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxşiş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar. Sonra fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva ilə görüş oldu. Mehriban xanım MDB ölkələrində yaşayan yəhudiləri birləşdirən təşkilatların təmsilçilərini ölkəmizdə və ulu öndərin adını daşıyan fondda görməkdən məmnunluğunu söylədi. O, fond haqqında qısa məlumat verərək bildirdi ki, fondun əsas məqsədi dahi şəxsiyyət, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin elmi-nəzəri, siyasi irsini öyrənib gələcək nəsillərə çatdırmaqdan ibarət olsa da, təhsil, səhiyyə, mədəniyyət, sosial layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir, ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini verir. Ötən il fondun təşəbbüsü





və layihəsi ilə 132 məktəb tikilib istifadəyə verilmişdir, bu il isə daha 100 məktəbin inşası nəzərdə tutulur. Fond uşaq evləri və internat məktəblərində böyüyən, eləcə də talassemiyalı və diabetli uşaqlara ardıcıl qayğı və köməyi də özünün prioritet vəzifələrindən sayır, bu istiqamətdə xüsusi proqramlar hazırlayıb həyata keçirir. Nüfuzlu beynəlxalq təşkilatlarla, dünyanın müxtəlif ölkələrinin içtimai, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa da çox böyük əhəmiyyət verilir və onların sırasında yəhudi təşkilatları da vardır.

Yəhudi təşkilatlarının təmsilçiləri fondun və onun prezidentinin konkret insanların və ölkənin sosial problemlərinin həlli sahəsində çox böyük layihələr həyata keçirməsi barədə məlumatlı olduqlarını vurğuladılar. Onlar Bakıda olarkən Azərbaycan xalqının zəngin mədəniyyəti, klassik və müasir musiqi sənətləri ilə əyani tanışlıqdan məmnun qaldıqlarını bildirdilər. Qonaqlar Mehriban xanımın həm də YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycan Mədəniyyətinin dostları Fondunun və Gimnastika Federasiyasının Prezidenti kimi səmərəli fəaliyətini yüksək qiymətləndirdilər.

Respublikamızda yəhudilərin azad, sərbəst yaşamaları üçün hər cür şərait olduğunu vurğulayan qonaqlar Azərbaycan Prezidenti ilə görüşün onlarda dərin təəssürat doğurduğunu, tarixən tolerantlığı ilə seçilən Azərbaycanın həqiqətlərinin yayılmasına yardımcı olduqlarını söylədilər.

Nümayəndə heyəti adından Azərbaycanın birinci xanımına xatirə hədiyyəsi təqdim edildi.

Mehriban xanım nümayəndə heyətinin üzvlərinə fondun layihəsi olan kitab, albom, audio-video disklərdən ibarət hədiyyələr bağışladı.

Qonaqlar Mehriban xanımla xatirə şəkili çəkdirdilər və fonddan xoş təəssüratla ayrıldılar.

*AzərTAC*
*"Xalq qəzeti",*
*12 aprel 2006-cı il*

# BAKIDA "ÜNS YARADICILIQ SƏHNƏSİ" TEATRININ TƏNTƏNƏLİ AÇILIŞI OLMUŞDUR

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA MƏRASİMDƏ İŞTİRAK ETMİŞLƏR

Aprelin 22-də Bakıda, Neftçilər prospekti 69 ünvanında yerləşən "ÜNS yaradıcılıq səhnəsi" teatrının təntənəli açılış mərasimi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Dövlətimizin başçısını, xanımı Mehriban Əliyevanı və qızı Arzunu binanın qarşısında "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva, Rusiyanın və Azərbaycanın tanınmış incəsənət və mədəniyyət xadimləri böyük hörmət və ehtiramla qarşıladılar, onlara gül dəstəsi təqdim olundu.

Prezident İlham Əliyev üzərinə: "ÜNS yaradıcılıq səhnəsi 2006-cı ildə yaradılmışdır. Bu mədəni layihə Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur" sözləri yazılmış lövhəni və teatr binasının xarici görünüşünü seyr etdi.

Dövlətimizin başçısı teatrın rəmzi açılışını bildirən lenti kəsdi, ailə üzvlər ilə birlikdə teatrın foyelərinə, aktyor otaqlarına, səhnənin quruluşuna baxdı.

Binanın təmir-tikinti işləri on ay çəkmişdir. Yeni tikilmiş hissənin memarı Oqtay Səttarovdur. Rəssam Altay Sadıqzadənin dizaynı əsasında qurulmuş metal konstruksiyalar teatrın əsas giriş hissəsinə xüsusi yaraşıq verir. Hər iki foyedə güclü obrazlığa və təsir gücünə





malik müasir sənət nümunələri, rəsm əsərləri asılmışdır. Teatrın binasının önündə və foyedə qoyulmuş heykəltəraşlıq əsərləri xalq rəssamı Fuad Salayevə məxsusdur, burada poetik və satirik obrazlar böyük ustalıqla işlənmişdir.

"ÜNS yaradıcılıq səhnəsi" nəzdində xeyriyyəçi gənclər qrupu da fəaliyyət göstərir.

Sonra teatrın təntənəli açılışı oldu. "ÜNS yaradıcılıq səhnəsi" layihəsinin müəllifi və rəhbəri, professor Nərgiz Paşayeva mərasim iştirakçılarını səmimiyyətlə salamlayaraq dedi ki, Azərbaycanda 150 illik bir dövrdə milli səhnəmiz zəngin teatr məktəbini formalaşdırmış və ənənələr yaratmışdır. Böyük aktyorlar Şərq mədəniyyəti üçün ənənəvi olmayan sahədə böyük uğurlar qazanmış, özlərindən sonra böyük məktəb və ənənə qoymuşlar. "ÜNS yaradıcılıq səhnəsi" teatrının əsas məqsədlərindən biri Azərbaycanda teatr sənətinin zəngin ənənələrinə əsaslanaraq onu indiki, müasir səviyyəyə qaldırmaq, bir növ ənənəni və yeniliyi birləşdirməkdir.

Qeyri-kommersiya xarakterli olmaqla fikri, ideyanı, mənəvi tələbatı reallaşdırmaq məqsədi daşıyan layihədə üstünlük teatr tamaşalarına verilsə də, burada ədəbi-bədii axşamlar, maraqlı şəxsiyyətlərlə görüşlər, maarifçi xarakterli tədbirlər də təşkil ediləcəkdir. Çünki məhz bu teatr mədəniyyətin bir çox növlərini və janrlarını özündə təmsil edir və mərkəzi xarakter daşıyır.

O xüsusi vurğuladı ki, bu layihənin ideya istiqamətlərindən biri də Şərq və Qərb mədəniyyətləri birliyinin bədii əksini sənətdə və mədəniyyətdə göstərməkdir. Bu mədəni layihə anamın - öz həyat və yaradıcılığı ilə sanki Şərq və Qərb birliyini təmsil edən, XX əsr milli elmimizin və mədəniyyətimizin tanınmış şərqşünas alimi Aida xanım İmanquliyevanın xatirəsinə ithaf olunur.

Sonra "ÜNS" teatrının ilk səhnə əsəri - "Bakı" musiqili tamaşası göstərildi. Tamaşanı yüksək peşəkarların rəhbərliyi altında Bakı Mu-

siqi Akademiyasının, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin, Bülbül adına orta ixtisas musiqi məktəbinin tələbələri - 16 gəncdən ibarət kollektiv hazırlamışdır. Tamaşada unudulmaz bəstəkar Tofiq Quliyevin 30 mahnısından istifadə olunmuşdur. Dinləyicilər nəğmələrlə yanaşı, çox az ifa olunan və geniş auditoriyaya bəlli olmayan melodiyalara maraqla qulaq asdılar. Bu mahnılar Moskva arxivlərində uzun axtarışlardan sonra tapılmış və musiqisevərlərə yenidən təqdim edilmişdir.

Tamaşanın quruluşu üzərində Rozetta və Maksimilian Nemçinskilər (Moskva), xalq artisti Azər Paşa Neymət (Bakı) işləmişlər. İştirakçıların vokal hazırlığına Rauf Babayev rəhbərlik etmişdir. Səhnənin dekorativ fonu rəssam Altay Sadıqzadənin əsərlərindən ibarətdir. Tamaşanı müşayiət edən tanınmış caz qrupu - Salman Qəmbərov və "Bakustic-jazz" Tofiq Quliyev mahnılarının işlənməsində melodiyaların təravət və gözəlliyini olduğu kimi saxlamış, onları yeni müasir çalarlarla zənginləşdirmişdir. Əsərin "Bakı" adlanması təkcə şəhər və paytaxt mənasında deyil, mentaliteti, həyat və təfəkkür tərzini, insanların, mədəniyyətlərin və dünyagörüşlərin bir şəhər daxilində birliyini təmsil etmək mənasını verir.

Tamaşanın sonunda bu günün vətənpərvərlik ruhuna tam uyğun gələn "Azərbaycan" mahnısı səsləndirildi və tamaşaçıların hərarətli, sürəkli alqışları ilə qarşılandı.

***AzərTAc***
***"Xalq qəzeti",***
***25 aprel 2006-cı il***





# AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA YAPONİYA KİMONO AKADEMİYASI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Yaponiyaya rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva martın 9-da Tokioda Yaponiya Kimono Akademiyası ilə tanış olmuşdur.

Burada Azərbaycanın birinci xanımını yaponlara xas olan böyük ehtiramla qarşıladılar.

"Kimono" sözü yapon dilində geniş mənada milli geyim mənasını verən ümumi anlayışdır. Min ildən artıq tarixi olan kimononun növləri çoxdur: kişi və qadın kimonoları, üst, alt kimonoları və s. Kişi kimonoları adətən tutqun rəngli parçadan tikilir və naxışları az olur. Qadın kimonolarının qolları uzun, kəməri isə enli olub arxada bant şəklində bağlanır. XVII əsrdən kimono əhali təbəqələrinin universal geyiminə çevrilmişdi. XIX əsrin sonunda Avropa mədəniyyətinin təsiri ilə kimono tədricən məişətdən sıxışdırılsa da, tamamilə itmir. Milli adət və ənənələrə çox həssas olan yaponlar onu bu günədək qoruyub saxlayırlar.

Hörmətli qonağa bütün bunlar barədə və digər maraqlı məlumatlar verildi. Mehriban xanım Əliyeva ölkənin müxtəlif regionlarına aid rəngarəng kimonolarla böyük maraqla tanış oldu.

Görüşdən xatirə olaraq, Azərbaycanın birinci xanımına kimono hədiyyə edildi. Mehriban xanım akademiyanın nümayəndələri ilə xatirə şəkli çəkdirdi.

***AzərTAc,***
***"Xalq qəzeti",***
***10 mart 2006-cı il***

# AZƏRBAYCAN PREZİDENTİNİN XANIMI MEHRİBAN ƏLİYEVA KABUKİ TEATRI VƏ "MEYCİCİ" MƏBƏDİ İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Prezidenti İlham Əliyevin Yaponiyaya rəsmi səfəri çərçivəsində onun xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva martın 10-da Tokioda dünyada məşhur olan Kabuki teatrı və "Meycici" məbədi ilə tanış olmuşdur.

Mehriban xanım Əliyeva əvvəlcə Kabuki teatrına gəldi. Hörmətli qonağa məlumat verildi ki, mənşəyi xalq mahnıları və rəqsləri ilə bağlı olan klassik yapon Kabuki teatrı XVII əsrdə Kioto şəhərində yaranmışdır. XVIII əsrin sonu Kabuki teatrının çiçəklənmə dövrü olmuşdur. Bu dövrdə formalaşmış tamaşalar müasir Kabuki teatrında da qorunub saxlanılmışdır. Kabuki teatrında qəti müəyyən edilmiş səhnə qanunları sistemi (əl-qol hərəkətləri, səsin modulyasiyası, simvolik qrim və s.) mövcuddur. İfaçılar kuklaların hərəkətlərini təqlid edirlər. Tamaşalar xüsusi avadanlıqla təchiz edilmiş böyük teatrlarda göstərilir. Ənənəvi Kabuki teatrı indiyədək böyük tamaşaçı kütləsinə malikdir və aktyorlar qrupu yalnız kişilərdən ibarətdir. Bu aktyorlar Yaponiyanın ən məşhur mədəniyyət ustaları kimi tanınırlar.

Azərbaycanın birinci xanımı burada göstərilən tamaşaya baxdı.

Mehriban xanım Əliyeva günün ikinci yarısında Tokio şəhərində 1920-ci ildən fəaliyyət göstərən böyük "Meycici" buddist məbədi ilə tanış oldu. Məbədin dini rəhbəri Azərbaycanın birinci xanımını salamladı və məbədin dini, elmi fəaliyyəti haqqında ətraflı məlumat verdi. Mehriban xanım Əliyeva məbədlə tanışlıq zamanı dini mərasimin keçirilməsini müşahidə etdi və xatirə olaraq fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.



3535



Məbədin dini rəhbəri tərəfindən Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim olundu.

***AzərTAc***
***"Xalq qəzeti",***
***12 mart 2006-cı il***

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

# RUSİYANIN NTV KANALI AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVAYA HƏSR OLUNMUŞ VERİLİŞ HAZIRLAMIŞDIR

Rusiyanın NTV kanalı Azərbaycan Prezidentinin xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevaya həsr olunmuş veriliş hazırlamışdır. Telekanalın əməkdaşı Oksana Puşkinanın "Qadın baxışı" proqramı çərçivəsində hazırlanmış veriliş ötən şənbə günü NTV kanalında efirə getmişdir. Aprelin 24-də həmin veriliş AzTV kanalı ilə Azərbaycan tamaşaçılarına təqdim olunmuşdur.

Müəllif təxminən yarım saatlıq verilişi bu sözlərlə başlayır: "Bizim mürəkkəb, ziddiyyətli dünyamızda qadın olmaq çətindir. Ancaq tam əksəriyyətin fikrincə, gözəl və ağıllı qadın olmaq isə, əslində, mümkün deyildir. Lakin həyatda istisnalar olur. Söhbət birinci xanımdan gedəndə, bu, xüsusilə xoşdur".

Veriliş Azərbaycanın birinci xanımının özünün, ömür-gün yoldaşı Prezident İlham Əliyevin, atası Arif Paşayevin, bacısı Nərgiz Paşayevanın, qızları Leyla və Arzunun, oğlu balaca Heydərin müsahibələri üzərində qurulmuşdur. Müsahibələr özlüyündə qısa da olsa, fikir dolğunluğu tamaşaçıda qadın, ana, xeyirxah insan, fəal ictimai xadim kimi Mehriban xanımı səciyyələndirən keyfiyyətlər haqqında kifayət qədər ətraflı təsəvvür yaradır.

*AzərTAc*
*"Xalq qəzeti",*
*25 aprel 2006-cı il*





# HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva aprelin 25-də Bakıda səfərdə olan Dünya Səhiyyə Təşkilatının baş direktoru Li Yonq Vuk ilə görüşmüşdür.

Hörmətli qonaq və onu müşayiət edən şəxslər əvvəlcə Fondun zəngin sərgi və ekspozisiyası ilə tanış oldular. Ulu öndərin şəxsi arxivindən götürülmüş və onun uşaqlıq, gənclik illərini, fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən nadir sənədlər, həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillər, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələr, dahi şəxsiyyət haqqında yazılmış kitablar, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkilləri onlarda böyük maraq doğurdu. Ümummilli liderin sevimli ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın elmi-praktik fəaliyyəti, Heydər Əliyevin keçmiş SSRİ hökumətində yüksək vəzifədə olarkən sovet səhiyyəsinin kuratoru kimi, dünyanın ən böyük ölkəsində tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, infrastrukturun genişləndirilməsi, yeni səhiyyə ocaqlarının yaradılması sahəsində gördüyü işlər barədə verilən məlumat xüsusi maraqla qarşılandı.

Cənab Li Yonq Vuk Fondun fəaliyyətini yüksək qiymətləndirdi və Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra DST-nin baş direktoru ilə görüş oldu. Mehriban xanım Əliyeva cənab Li Yonq Vuku Bakıda və müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məm-

nunluğunu söylədi. 2004-cü ildən fəaliyyət göstərən Fondun ölkəmizdə təhsil, mədəniyyət sahəsində bir sıra layihələr həyata keçirdiyini bildirən Mehriban Əliyeva dedi ki, səhiyyə sahəsindəki problemlərə xüsusi diqqət yetirilir. Bu sahədə həyata keçirilən ilk tədbirlərdən biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir. 2004-cü il dekabrın 4-də Fondda layihənin təqdimatından sonra ictimaiyyətin, yerli və xarici təşkilatların diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə yönəltdik, Beynəlxalq Diabet Federasiyasının bu işdə iştirakı fəallaşdı.

Azərbaycanda bu xəstəliyə tutulmuş 14 yaşınadək 310 nəfər uşağın insulinə təminatındakı çətinliklərin bir çoxu aradan qaldırıldı.

Mehriban xanım dedi ki, səhiyyə sahəsində Fondun həyata keçirdiyi digər layihə ölkədə talassemiyanın qarşısının alınmasına yönəlmişdir. Talassemiyalı xəstələrin sayı, vəziyyəti, müalicə imkanları ilə bağlı müvafiq informasiya topladıqdan sonra 2005-ci ilin fevralında "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən "dəyirmi masa"da ictimaiyyət nümayəndələri, beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə birgə əməkdaşlıq məsələləri müzakirə olunmuş, müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır.

Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də daim diqqət yetirilir. Talassemiya ilə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsrailin təcrübəsi öyrənilir. Bir neçə ölkənin talassemiya sahəsində tanınmış mütəxəssislərin Azərbaycana səfərləri təşkil edilmiş və müzakirələr aparılmışdır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması üçün başqa ölkələrlə mütəxəssis mübadiləsinin təşkili də nəzərdə tutulur.





Mehriban xanım ölkəmizdə bu xəstəliyin vaxtında aşkar edilməsi üçün lazımi müasir avadanlığın olmadığını bildirərək, bu və digər sahələrdə Dünya Səhiyyə Təşkilatının köməyinə ehtiyac olduğunu vurğuladı. DST kimi mötəbər qurumun rəhbərinin Azərbaycana səfərinin ölkəmidə səhiyyənin inkişafına müsbət təsir göstərəcəyinə inandığını bildirdi.

DST-nin baş direktoru Li Yonq Vuk Fondla tanışlıqdan, bu qurumun səhiyyə və digər sahələrdə gördüyü xeyirxah işlərdən razı qaldığını bildirdi, Fondun prezidentinin bu sahədə təşəbbüslərini və konkret fəaliyyətini yüksək qiymətləndirdi. Ölkəmizə ilk səfərinin, Azərbaycan Prezidenti və onun xanımı ilə görüşlərin onda xoş təəssürat yaratdığını vurğuladı. Cənab Li Yonq Vuk rəhbərlik etdiyi təşkilatın Fondla əməkdaşlığa hazır olduğunu, səmərəli əlaqə quracağına əminliyini söylədi, qaldırılan məsələlərin bir çoxunun həllinə kömək edəcəyini bildirdi.

Mehriban Əliyeva qonaqlara Fondun layihəsi olan "Qarabağ xanəndələri" musiqi albomunu və xatirə hədiyyələri təqdim etdi.

*AzərTAc*

***"Xalq qəzeti",***
***26 aprel 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA DÖVLƏTLƏRARASI AVİASİYA KOMİTƏSİNİN SƏDRİ TATYANA ANODİNA İLƏ GÖRÜŞMÜŞDÜR

Ölkəmizdə səfərdə olan Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina, onun müavini Aleksandr Filatov, "Azərbaycan Hava Yolları" Dövlət Konserinin baş direktoru Cahangir Əsgərov və konsernin bir qrup nümayəndəsi iyunun 2-də Heydər Əliyev Fondunda olmuşdur.

Qonaqlar əvvəlcə Fondun sərgi və ekspozisiyası ilə tanış oldular. Onlara ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

Ziyarətçilər dahi şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xidmətlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdılar.





T.Anodina Fondun Xatirə kitabına ürək sözlərini yazdı. Sonra qonaqlar xatirə şəkilləri çəkdirdilər, Fondun vəsaiti ilə buraxılmış kitab, albom, audio-video disklərə, məktəb ləvazimatlarına baxdılar. Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfəri, Milli Məclisin deputatı Mehriban Əliyeva Dövlətlərarası Aviasiya Komitəsinin sədri Tatyana Anodina ilə görüşdü. Mehriban xanım qonağı səmimiyyətlə salamladı, onu ölkəmizdə və ulu öndər Heydər Əliyevin adını daşıyan Fondda görməkdən şad olduğunu söylədi. O, Heydər Əliyev Fondunun müxtəlif yönümlü proqramları haqqında məlumat verdi, əsas məqsədi Azərbaycan xalqının ümummilli lideri tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasının təbliği və gələcək nəsillərə çatdırılması olan Fondun qayğıya və köməyə ehtiyacı olanların problemlərinin həlli, uşaq evləri və internat məktəblərində tərbiyə alan uşaqlara, qaçqın və məcburi köçkünlərə yardım, elm, təhsil, səhiyyə və mədəniyyət sahəsində gördüyü işlərdən danışdı.

T.Anodina səmimi qəbula görə təşəkkürünü bildirərək Azərbaycanda gedən nəhəng quruculuq işlərinin miqyasına heyran qaldığını, Heydər Əliyev Fondunun onda zəngin təəssürat doğurduğunu söylədi. Qonaq hələ 1991-ci ildə Dövlətlərarası Aviasiya Komitəsinin yaradılmasında Heydər Əliyevin xüsusi rolunu vurğuladı. Moskvada ali vəzifədə işləyərkən nəqliyyat sektoruna rəhbərlik etmiş Heydər Əliyevin bu sahədə də peşəkar olduğunu, daim dəyərli məsləhətləri ilə düzgün yol göstərdiyini, hava məkanında təhlükəsizlik problemlərinin həlli üçün vahid əlaqələndirici regional təşkilatın yaradılmasının zəruriliyini müdrikcəsinə tövsiyə etdiyini diqqətə çatdırdı.

T.Anodina Mehriban xanıma xeyirxah fəaliyyətində uğurlar arzuladı və Heydər Əliyev Fondunun hədiyyələrini təqdim etdi. Qonağa Heydər Əliyev Fondu adından hədiyyələr verildi.

***"Xalq qəzeti",***
***3 may 2006-cı il***

# MEHRİBAN ƏLİYEVA: MƏDƏNİYYƏT MÜASİR CƏMİYYƏTİN BİR ÇOX PROBLEMLƏRİNİ HƏLL EDƏ BİLƏCƏK UNİVERSAL VASİTƏDİR

HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ PARİSDƏ "QEYRİ-MADDİ MƏDƏNİ İRSİN QORUNMASI HAQQINDA" KONVENSİYANI RATİFİKASİYA ETMİŞ ÖLKƏLƏRİN BAŞ ASSAMBLEYASININ İLK İCLASINDA İŞTİRAK EDİB

AzərTAc. İyunun 26-da Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva "Qeyri-maddi irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının YUNESKO-nun mədəniyyət bölməsinin təşəbbüsü ilə keçirilmiş ilk iclasında iştirak etmək üçün Parisə gedib. O, YUNESKO-nun baş direktoru tərəfindən yığıncağa dəvət olunmuş yeganə xoşməramlı səfirdir. Mehriban Əliyevanı YUNESKO-nun iqamətgahında səfirlər proqramının rəhbəri Basma İrşeyd, protokol rəhbəri Jan-Lük Şan və Azərbaycanın YUNESKO yanındakı daimi nümayəndəliyinin başçısı, səfir Eleonora Hüseynova qarşılayıblar.

Yığıncağı giriş sözü ilə baş direktorun mədəniyyəti üzrə köməkçisi Fransuaz Ribiyer açıb. YUNESKO-nun baş direktoru Koişiro Matsura qonaqları, o cümlədən ölkəmizdə şifahi mədəni irsin qorunması və inkişaf etdirilməsində xüsusi xidmətləri olan, yeganə xoşməramlı səfir kimi belə mötəbər tədbirdə iştirak edən Mehriban Əliyevanı salamlayıb.





Baş direktor "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı artıq 45 ölkənin ratifikasiya etdiyini, son bir neçə ayda daha 7 dövlətin bu Konvensiyaya qoşulduğunu xatırladıb. Qeyri-maddi mədəni irs hər bir xalqın tarixinin güzgüsü olmaqla yanaşı, həm də bütün dünyanın sərvəti olduğunu vurğulayan cənab Koişiro Matsuura dedi ki, bu sərvətin qorunması hamının işidir. Baş direktor rəhbərlik etdiyi beynəlxalq təşkilatın bu sahədə gördüyü işlər barədə də məlumat verib.

Əlcəzairin xarici işlər naziri, Yaponiyanın elm, təhsil və texnologiya naziri öz çıxışlarında ölkələrində qeyri-maddi mədəni irsin qorunması ilə bağlı görülən işlərdən söhbət açdılar, hər bir ölkənin konvensiyaya qoşulmasının vacibliyini xüsusi vurğulayaraq xalqların keçmişindən xəbər verən istər maddi, istərsə də qeyri-maddi mədəni irsin son vaxtlar bəzi ölkələr tərəfindən vəhşiliklərə məruz qaldığını bildirdilər və YUNESKO-nu öz nüfuzundan istifadə edərək belə halların qarşısını almağa çağırıblar.

İbtidai icma dövründən bu günə kimi yaradılmış və nəsildən-nəslə ötürülmüş qeyri-maddi mədəni irsin mənsub olduğu xalqın tarixini özündə əks etdirdiyini söyləyən nazirlər bu irsin qorunması sahəsində ölkələrarası əməkdaşlığın yaranması və inkişaf etdirilməsinin vacibliyini, bu sahədə xüsusi səriştəsi olan ölkələrin təcrübəsindən istifadənin əhəmiyyətini vurğulayıblar.

Daha sonra Mehriban Əliyeva çıxış edib... O, ilk növbədə, qeyri-maddi mədəni irsin qorunması haqqında Konvensiyanın qüvvəyə minməsi kimi əlamətdar hadisə münasibətilə iştirakçıları təbrik edib. "Mən iştirakçı dövlətlərin Baş Assambleyasında iştirak etmək üçün dəvətinə, eləcə də bu Konvensiyanın üzv dövlətlər tərəfindən tezliklə ratifikasiyasına yönəlmiş səylərinə görə YUNESKO-nun baş direkto-

ru Koişiro Matsuuraya minnətdarlığını bildirirəm" - deyə o bildirib.

Heydər Əliyev Fondunun prezidenti qeyd edib ki, qeyri-maddi mədəni irs dünya xalqlarının genetik əsasını təşkil edir. Həmin əsas əsrlər boyu qurulmuş və xalqların, etnik qrupların formalaşmasında vacib rol oynayıb. Bu gün biz dünya xətirəsində bir çox millətlərin yaşadığı 190-dan çox dövlət görürük. Onların hər birinin özündə maddi və qeyri-maddi mədəni dəyərləri birləşdirən özünəməxsus tarixi irsi var. Hər bir dövlətin vəzifəsi nəinki həmin dəyərlərin qorunması, həm də yeni nəsillərin həmin dövlətin özünəməxsus adət və ənənələri əsasında tərbiyələndirilməsi üçün şərait yaradılmasından ibarət olmalıdır. Mehriban Əliyeva vurğulayıb ki, bəşəriyyətin hazırkı inkişaf mərhələsi insanın praktik olaraq bütün fəaliyyət sahələrini əhatə etmiş qloballaşma ilə səciyyələnir. Təbii ki, qloballaşma özü ilə bir çox üstünlüklər gətirir və bəşəriyyət qarşısında duran problemlərin həlli üçün yeni imkanlar açır. Xüsusən də, müxtəlif mədəniyyətlərin bir-birinə qovuşması və hər mədəniyyətin bütün bəşəriyyət üçün dəyərinin qavranılması baş verir. Lakin, eyni zamanda, qloballaşma yeni təhdidlər və çağırışlarla müşayiət olunur. Onlardan ən təhlükəlisi isə stereotiplərin diktə olunmasıdır. Bunların sırasında ən zəifi məhz qeyri-maddi mədəni dəyərlərdir. Bu gün nəinki incəsənət əşyalarının, həm də adət-ənənələrin, ritualların, yəni mədəniyyətin ən qədim ifadə formasının qorunmasına ehtiyac duyulur. Bu həmçinin yaranmış qeyri-dözümsüzlük, dinlərarası toqquşma, terrorçuluq və ekstremizm meyilləri qarşısında mühüm əhəmiyyət kəsb edir. Bir çox hallarda, həmin meyillərin əsasında mədəni bələdçi istiqamətlərin və dəyərlərin itirilməsi durur. Bütün sivil xalqlar bu bəlaya qarşı mübarizədə öz səylərini birləşdirməlidir, çünki bu maneəni yalnız birbaşa və səmimi dialoq vasitəsilə aradan qaldırmaq olar. Bu baxımdan Konvensiyanın qüvvəyə minməsi bəşəriyyətin mədəni irsinin qorunub saxlanılmasına yönəlmiş və vaxtında atılmış addımdır. "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiya dünya mədəniyyətinə böyük töhfə vermiş Azərbaycan xalqı üçün də böyük əhəmiyyət daşıyır.





Azərbaycanın qədim ölkə olduğunu söylənən Mehriban Əliyeva, bununla belə, gənc müstəqil dövlət olduğunu qeyd edib. Onun sözlərinə görə, Azərbaycanda əsrlər boyu qorunmuş və saxlanılmış mədəni irsimiz, ənənələrimiz, musiqimiz, dilimiz, adətlərimiz siyasi sabitliklə birlikdə bizim müstəqilliyimizin təminatçısıdır. Azərbaycan muğamı 2003-cü ildə bəşəriyyətin şifahi və qeyri-maddi irsi incilərinin siyahısına daxil edilmişdir. Muğam qədim incəsənətdir və onun dərin fəlsəfi mahiyyəti bir nəsildən digər nəslə ötürülməlidir. Xalq yaradıcılıq sənətinin qorunması, bərpası və inkişafı Azərbaycanda dövlətin mədəniyyət siyasətinin prioritetlərindən biridir. "Azərbaycan çoxmillətli ölkədir və bu, xalqımızın sərvətidir. Milli azlıqların mədəniyyətinin inkişafı daim dövlətin diqqət mərkəzindədir. Müxtəlif dinlərə aidbütün tarixi abidələr dövlət tərəfindən qorunur və saxlanılır. Azərbaycanlıların dini dözümlülüyü dünyada yaxşı məlumdur və yüksək qiymətləndirilir" - deyə YUNESKO-nun xoşməramlı səfiri vurğulayıb: "Mən iclas iştirakçılarını məmnunluq hissi ilə məlumatlandırmaq istəyirəm ki, Konvensiyanın ratifikasiya prosesi Azərbaycanda son mərhələdədir və yaxın gələcəkdə bizim ölkəmiz həmin Konvensiyanın iştirakçısı olan dövlətlərin siyahısına daxil olacaqdır. Bu gün dünyada münaqişələr mövcuddur, müharibələr gedir. Bütün bəşəriyyətə məxsus olan tarixi və mədəni dəyərlər məhv edilir. Bir çox şeylər birdəfəlik itirilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində xalqımızın yüzlərlə qədim memarlıq və mədəniyyət abidələri dağıdılıbdır. Ənənəvi olaraq ən yaxşı muğam ustalarının doğulub boya-başa çatdığı şəhərlər bu gün tamamilə yerlə-yeksan edilibdir. Bununla bağlı, icazə verin, münaqişələr zonalarında yerləşən mədəni və tarixi

abidələrin taleyinə beynəlxalq təşkilatlar və bütövlükdə, dünya ictimaiyyətinin daha böyük diqqətinin vacibliyini bir daha vurğulayım. Mədəni irsə qarşı təcavüz qəbuledilməzdir. Öz mədəniyyətinə hörmət edərək və onu qoruyaraq, eyni zamanda, ümumbəşər və dünya mədəniyyətinə də hörmətlə yanaşmaq və onu qorumaq vacibdir".

Daha sonra Mehriban Əliyeva deyil ki, bu gün dünyada cərəyan edən hadisələrlə bağlı birmənalı yekun fikirlər söyləmək kifayət qədər çətindir. Lakin bir məsələ tam aydındır: Mədəniyyət daha geniş anlamda müasir cəmiyyətin bir çox problemlərini həll edə biləcək universal vasitədir. Buna görə də bəşəriyyətin mədəni irsinin qorunması və saxlanması bizim üçün olduqca vacibdir.

Sonda, Mehriban Əliyeva bu Konvensiyanın tezliklə ratifikasiyasına yönəlmiş böyük səylərinə görə YUNESKO-nun baş direktoru Koişiro Matsuuraya minnətdarlığını bildirdi.

***

İclasda "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyaya qoşulmuş ölkələrin xarici işlər, təhsil, elm və mədəniyyət nazirləri, səlahiyyətli nümayəndələri, YUNESKO yanında daimi nümayəndəliklərin rəhbərləri iştirak edirdilər.

***"Yeni Azərbaycan",***
***28 iyun 2006-cı il***





# HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

Ölkəmizdə səfərdə olan BMT-nin Qadınlar üçün İnkişaf Fondunun (YUNİFEM) icraçı direktoru xanım Noelin Heyzer mayın 26-da Heydər Əliyev Fondunda olmuşdur.

Qonağa ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən fotoşəkillər barədə ətraflı məlumat verildi.

N.Heyzer fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə, dünyanın tanınmış siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə böyük maraqla baxdı. Sonra Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ilə görüş oldu.

Mehriban xanım Əliyeva Noelin Heyzeri müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin adını daşıyan Fondda görməkdən məmnun olduğunu söylədi. Fond haqqında qısa məlumat verdi. Bildirdi ki, 2004-cü ilin mayında fəaliyyətə başlamış Fondun əsas məqsədi dahi şəxsiyyət, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin elmi-nəzəri, siyasi irsini öyrənib, gələcək nəsillərə çatdırmaqdan ibarət olsa da, təhsil, səhiyyə, mədəniyyət, idman, sosial layihələrin həyata keçirilməsinə də xüsusi diqqət yetirir, ölkəmizin hərtərəfli inkişafına öz töhfəsini verir. Ötən il Fondun təşəbbüsü və layihəsi ilə 132 məktəb tikilib istifadəyə verilmişdir. Fond ölkədə mövcud olan uşaq evlərinin və internat məktəblərinin hamısını daim diqqət mərkə-

zində saxlayır və mütəmadi olaraq, təmir işlərinin aparılmasını təşkil edir.

Səhiyyə sahəsindəki layihələrə toxunan Mehriban xanım, talassemiyalı və diabetli uşaqlara qayğı və köməyin Fondun prioritet vəzifələrindən biri olduğunu söylədi, ölkəmizdə müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin inşa ediləcəyini bildirdi.

Mehriban xanım dedi ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın, xüsusən də bu ailələrdən olan uşaqların təhsili ilə bağlı məsələləri və qadınların problemlərini həll etməyə çalışırıq. Nüfuzlu beynəlxalq qurumlarla, qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa da böyük əhəmiyyət verildiyini vurğulayan Mehriban xanım Fondun ötən ildə BMT ilə birgə böyük bir proqramın icrasına başladığını diqqətə çatdırdı. Bu proqram kor və zəif görən insanların formasiya-kommunikasiya texnologiyalarından istifadə etməsinə imkan yaradacaqdır.

YUNİFEM-in icraçı direktoru xanım Noelin Heyzer vaxt tapıb onunla görüşdüyünə görə Mehriban xanıma təşəkkür edərək dedi ki, sizin gördüyünüz işlər barədə ölkənizə gəlməzdən əvvəl də məlumatım var idi. N.Heyzer Fondun prezidentinin bu sahədə təşəbbüslərini və konkret fəaliyyətini yüksək qiymətləndirdi.

Qonaq, dünyada ən böyük artımın müşahidə edildiyi Azərbaycanda əldə olunan gəlirlərin insanların rifahına yönəldilməsini və bu işdə Mehriban xanımın rolunu xüsusi vurğuladı.

Xanım Noelin Heyzer MDB ölkələri arasında ilk dəfə Azərbaycana səfər etdiyini bildirdi.

Mehriban xanım qonağı Fondun layihəsi olan kitab, albom, audio-video disklərdən ibarət hədiyyələr bağışladı.

*AzərTAc*
*"Xalq qəzeti",*
*27 may 2006-cı il*





# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN XANIM ƏLİYEVA TÜRKAN QƏSƏBƏSİNDƏ BİR SIRA OBYEKTLƏRİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti və xanımı Mehriban Əliyeva mayın 9-da Bakının Əzizbəyov rayonunun Türkan qəsəbəsində bir sıra yeni obyektlərin açılışında iştirak etmişlər.

Türkanlılar dövlətimizin başçısını və xanımını qəsəbənin təzə ucaldılmış alaqapısı önündə səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Qəsəbənin ağbirçək sakini Zərifə Manafova, el ağsaqqalı Hacı Rasim onları salamlayaraq dedilər: "Sizin hər gəlişiniz bizim üçün toy-bayramdır. Bütün türkanlıların qəlbi sevinc, fərəh hissi ilə doludur, çünki çoxdan bəri əhalini narahat edən problemlərin bir çoxu artıq öz həllini tapmışdır. Bu ərazidən Milli Məclisə deputat seçilmiş Mehriban xanım seçki ərəfəsində bir neçə dəfə sakinlərlə görüşmüş, çatışmazlıqları öyrənmiş, problemlərin aradan qaldırılmasında hər cür kömək göstərəcəyini vəd etmişdi. Bu vədlərin, demək olar ki, bir çoxu qısa müddətdə yerinə yetirilmişdir. Gördüyünüz bu alaqapı da Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü ilə tikilmişdir. Qəsəbəmizin uzun illər bərbad vəziyyətdə olan yollarının abadlaşması, uşaqlara, insanlarımızın sağlamlığına göstərdiyiniz qayğı bizi olduqca razı salır, bütün bunlara görə minnətdarıq. Türkanlılar həmişə Sizin siyasətinizi bəyənir, dəstəkləyir. Sizə Allahdan cansağlığı, Vətənimizin inkişafı naminə yeni-yeni uğur-

lar diləyirlər".

Onlar Azərbaycan Prezidentinə və xanımına ilk övladlarının ailə həyatı qurması münasibətilə bütün Türkan camaatı adından gözaydınlığı verdilər, onlara Ulu Tanrıdan xoşbəxtlik, səadət arzuladılar.

Prezident İlham Əliyev ürəkdən gələn xoş sözlərə görə razılığını bildirərək dedi ki, Bakının ətraf qəsəbələrinini sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramı qəbul olunmuşdur. Hazırda ölkə rəhbərliyi bununla ciddi məşğul olur. Bakıətrafı qəsəbələrin bir müddət diqqətdən kənar qalmış problemlərinin həlli üçün biz nə lazımdırsa, edəcəyik. Mən bilirəm ki, Heydər Əliyev Fondu bu sahədə böyük işlər görübdür. Sizin millət vəkilinin seçildiyi son altı aydakı fəaliyyəti ilə də tanışam. Elə bu gün açılışına gəldiyimiz bir çox obyektlər də bunu sübut edir. İndi Bakı qəsəbələrinin qaz, işıq, su, yol problemlərinin həlli, yeni təhsil, səhiyyə obyektlərinin inşası ilə bağlı çox mühüm tədbirlər görülür. Bizim əsas arzu və istəyimiz budur ki, insanlarımızın daha firavan yaşayışını təmin edək. Bir və ya iki ilə bu məsələlər öz həllini tapacaqdır.

Əlində gül dəstəsi olan 3 yaşlı Arzunun "Mən sizi çox istəyirəm" - deyə Mehriban xanıma yanaşması hamıda xüsusi ovqat doğurdu. Sakinlər körpəni ağuşuna sıxan Mehriban xanıma yerbəyerdən: "Nənə olmaq sizə çox yaraşır, Allah qismət eləsin" - dedilər.

Azərbaycan Prezidenti və xanımı qəsəbə sakinləri ilə xatirə şəkli çəkdirdilər.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkan qəsəbəsinin mərkəzinə gəldilər. Dövlətimizin başçısı və xanımı burada xüsusi hörmət və ehtiramla, gül-çiçəklə qarşılandılar.

Ölkəmizin rəhbəri və xanımı burada inşa olunmuş 214 nömrəli uşaq bağçası, Təhsil-tədris mərkəzi, aptek və təcili tibbi yardım stansiyasını gəzdilər, yaradılmış şəraitlə tanış oldular.





Azərbaycan Prezidentinə məlumat verildi ki, bu obyektlərin hamısı Heydər Əliyev Fondunun layihəsi əsasında, Milli Məclisin deputatı Mehriban xanımın şəxsi təşəbbüsü ilə işlənib hazırlanmış, "Əzizbəyov rayonunun inkişaf fondu" proqramı çərçivəsində inşa edilmişdir. Qəsəbə sakinlərinin uzun illərdən bəri gözlədiyi bu təhsil, səhiyyə obyektlərinin hamısı təzə, müasir tələblərə cavab verən avadanlıqla, kompüterlərlə təchiz edilmiş, tibb və təhsil ocaqlarında 50 nəfər qəsəbə sakini işlə təmin olunmuşdur. Təcili tibbi yardım stansiyasına 2 təzə maşın verilmiş, aptek ən çox ehtiyac duyulan tibbi ləvazimatla, daha çox işlədilən dava-dərmanla təmin edilmiş, burada kompüter sorğu-məlumat bazası yaradılmışdır.

Dövlətimizin başçısı Təhsil-tədris mərkəzində uşaqların böyük həvəslə kompüteri, internetdən istifadəni öyrənməsindən xüsusilə məmnun qaldı, onlara dəyərli məsləhətlərini verdi. Azərbaycan Prezidentinə məlumat verildi ki, şahmat dərnəyində məşğul olanların da sayı günbəgün artmaqdadır. Məşqçi müəllimlər əmin olduqlarını bildirdilər ki, yaxın illərdə respublika birinciliklərində türkanlı uşaqların da səsi eşidiləcəkdir.

Uşaq bağçasının müdiri Gülarə Rəhmanova Azərbaycan Prezidentinə və xanımına müraciət edərək, qəsəbə sakinləri və yeni obyektlərdə işləyənlər adından onlara sonsuz təşəkkürlərini, ən xoş arzularını çatdırdı, qısa zamanda görülən işləri ümummilli lider Heydər Əliyevin işıqlı xatirəsinə göstərilən hörmət və ehtiramın əlaməti, ulu öndərin ideyalarının həyata keçirilməsinin bəhrəsi, xalqın güzəranının yaxşılaşdırılmasına yönəldilmiş xəttin təcəssümü kimi qiymətləndirdi.

Dövlətimizin başçısı təhsil, səhiyyə işçiləri ilə də söhbət etdi, onların peşəkarlığı ilə maraqlandı, görülmüş işlərin keyfiyyətindən, bu obyektlərdə nümunəvi xidmət şəraitinin yaradılmasından razı qaldığını bildirdi.

Azərbaycan Prezidenti və xanımı sonda buraya toplaşan qəsəbə sa-

kinləri ilə görüşdülər, onları yeni obyektlərin istifadəyə verilməsi münasibətilə təbrik etdilər. Türkanlılar ötən parlament seçkilərində Mehriban xanıma böyük inamla səs verdiklərini vurğulayaraq onun deputatlıq fəaliyyəti ilə fəxr etdiklərini, onun hər evdə, hər ailədə sevimli, əziz insana çevrildiyini xüsusi vurğuladılar.

Ölkəmizin rəhbəri tezliklə digər qəsəbələrdə də belə obyektlərin tikiləcəyini vurğuladı, sakinlərin arzusu ilə Mehriban xanımla birlikdə onlarla xatirə şəkilləri çəkdirdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Yeni Türkan qəsəbəsindəki şəhid Nizami Sərxanov adına 256 nömrəli əsas məktəbə gəldilər. Sakinlər dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə salamladılar, uşaqlar əziz qonaqlara gül-çiçək təqdim etdilər.

Ölkəmizin rəhbəri və xanımı qəsəbədəki fəaliyyətdə olan bu yeganə məktəbə baş çəkdilər. 1930-cu ildə fəhlə yataqxanası üçün tikilən bina 1972-ci ildən məktəb kimi istifadə olunur. Sinif otaqları çatışmadığından, 10-11-ci sinif şagirdləri təhsillərini 5-6 kilometr aralıda yerləşən Hövsandakı orta məktəbdə davam etdirməli olurlar ki, bu da çox böyük çətinliklər yaradır.

Darısqal, yararsız sinif otaqlarına baxan Azərbaycan Prezidenti belə binada normal təlim-tədris prosesinin təşkilinin mümkünsüzlüyünü bildirdi, yeni məktəb binasının, həqiqətən də, zəruri olduğunu vurğuladı.

Dövlətimizin başçısı və xanımı sonra inşasına başlanan və 300 şagird üçün nəzərdə tutulan yeni məktəb binasının layihəsi ilə tanış oldular. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin ikinci mərhələsi çərçivəsində tikilən bina 2 mərtəbədən ibarət olacaqdır. Yeni məktəbdə sinif, kompüter otaqları ilə yanaşı, Heydər Əliyev muzeyi, kitabxana, ingilis dili kabineti, idman salonu, istilik sistemi, müəllim və şagirdlər üçün ictimai iaşə ob-





yektləri olacaq, yaxınlıqda futbol meydançası tikiləcək, istirahət guşələri, yaşıllıqlar da yaradılacaq, bura əsl abad şəhərciyə çevriləcəkdir.

İnşaatçılar bildirdilər ki, təhsil ocağı yeni dərs ilinə kimi istifadəyə veriləcəkdir. Bunun üçün təcrübəli işçi qüvvəsi, müasir texnika, tikinti materialları vardır, avadanlığın da əsas hissəsi sifariş edilmişdir. Tikintiyə yerli sakinlər də cəlb ediləcəkdir.

Azərbaycan Prezidenti və xanımı layihə ilə tanışlıqdan sonra: "Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinə əsasən tikilir 9 may, 2006-cı il" sözləri yazılmış kağızı gilizə qoyaraq özülə atdılar, bünövrəyə ilk beton qarışığını tökdülər.

Qəsəbə sakinləri uzun illərdən bəri bu günü həsrətlə gözlədiklərini bildirərək Prezident İlham Əliyevə və xanımına təşəkkürlərini bildirdilər, onlara ən xoş arzularını çatdırdılar. Onlar Mehriban xanımın Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin üzvü kimi fəaliyyətini yüksək qiymətləndirdilər, seçkiqabağı vədlərinin əksəriyyətini qısa müddətdə yerinə yetirmiş deputatın təcrübəsinin, seçicilərlə ünsiyyət mədəniyyətinin, sadəlik və səmimiyyətinin əsl örnək olduğunu vurğuladılar.

Prezident İlham Əliyevin və xanımının qəsəbədəki növbəti görüşü Böyük Vətən müharibəsində həlak olan türkanlıların xatirəsinə salınmış parkda oldu. Dövlətimizin başçısı və xanımı parkda ucaldılmış abidə önünə əklil qoydular. Parkda işlər hələ davam edir. Burada idman-əyləncə mərkəzləri, mədəni istirahət guşələri də salınacaq və park türkanlıların sevimli istirahət yerinə çevriləcəkdir.

Parkda toplaşan veteranlar ölkəmizin rəhbərini və xanımını xoş əhval-ruhiyyə ilə salamladılar. Prezident İlham Əliyev və Mehriban xanım veteranların hər biri ilə səmimi görüşərək onları əziz gün münasibətilə təbrik etdilər, qayğı və problemləri ilə maraqlandılar.

Veteranlar Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə

hər zaman çox böyük hörmət və ehtiram bəslədiklərini, onun əbədiyaşar xatirəsinin Türkanda da əziz tutulduğuqnu söylədilər. Mehriban xanımın deputat kimi Türkanın abadlaşması üçün gördüyü işləri yüksək qiymətləndirdilər, ona ürəkdən "sağ ol" dedilər, bildirdilər ki, onu qəsəbənin fəxri sakini elan etmişlər. Müharibə veteranları dövlətimizin başçısının Dağlıq Qarabağ probleminin həlli istiqamətində məqsədyönlü fəaliyyətini bəyəndiklərini, Ali Baş Komandanın əmri ilə övladlarının da, özlərinin də hər an silaha sarılmağa hazır olduqlarını vurğuladılar.

Prezident İlham Əliyev tarixdə ən dəhşətli müharibənin od-alovundan çıxmış veteranlara müraciətlə dedi:

- Türkan özünəməxsus tarici, insanları var, bura çox qədim yerdir, çox doğma bir məkandır. Ona görə də biz çalışırıq ki, burada abadlıq-quruculuq işləri də yaxşı getsin. Bu gündən məktəbin tikintisinə başlandı, digər abadlıq işləri də görüləcək, park da olacaqdır. Sizdən də xahişim budur ki, özünüzə yaxşı baxın, möhkəm olun, gümrah olun, Azərbaycana siz lazımsınız, sizin qəhrəmanlığınız, təcrübəniz gələcək nəsillər üçün örnəkdir. İndi biz gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına çox böyük diqqət göstəririk. Bu işdə onlara ən gözəl nümunə sizsiniz.

Veteranlar, qəsəbə sakinləri Azərbaycan Prezidentinə və xanımına bu əziz gündə qəsəbəyə gəldiklərinə, çoxdan gözlədikləri obyektlərin açılışında iştirak etdiklərinə, 10 mindən çox sakini olan qəsəbənin abadlaşmasına, sosial problemlərinin həllinə göstərilən qayğı və diqqətə görə bir daha minnətdarlıqlarını ifadə etdilər, onlara ən xoş arzularını bildirdilər.

***AzərTAc***
***"Azərbaycan" qəzeti,***
***11 may 2006-cı il***





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN ƏLİYEVA ƏZİZBƏYOV RAYONUNDA TƏHSİL VƏ MƏDƏNİYYƏT OBYEKTLƏRİNİN AÇILIŞINDA İŞTİRAK ETMİŞDİR

Mayın 10-da ulu öndərimizin anadan olmasının 83-cü ildönümü günündə Heydər Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva paytaxtın Əzizbəyov rayonundakı bir neçə mədəniyyət və təhsil obyektlərinin açılışında iştirak etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin "Kitabxana millət, xalq, cəmiyyət üçün müqəddəs bir yer, mədəniyyət, bilik, zəka mənbəyidir" müdrik kəlamını öz fəaliyyətində örnək kimi qəbul edən Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələrin bir qismi də mövcud kitabxanaların yenidən qurulması ilə bağlıdır. Fondun bu sahədəki ardıcıl fəaliyyəti artıq onlarca qəsəbə və kənd kitabxanasının yenidən qurulmasına, müasir avadanlıqla təmin olunmasına və zənginləşməsinə imkan yaratmışdır.

Əsaslı şəkildə Mərdəkan qəsəbəsində yenidən qurulan kütləvi kitabxananın açılış mərasiminə gələn Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Kitabxananın müdiri Ofeliya Abdullayeva mərasimə toplaşanlara xatırlatdı ki, əvvəlki darısqal bina müasir tələblərə cavab vermədiyinə, yararsız vəziyyətə düşdüyünə görə sakinlər, kitabxana kollektivi Mehriban xanıma müraciət etmişdi. Həm də bizim deputatımız olan Mehriban xanım xahişimizə dərhal müsbət

reaksiya verərək, kömək göstərmişdir. Qısa vaxt ərzində əvvəlkindən 4 dəfə geniş olan, 480 kvadratmetr sahəni tutan kitabxana binası inşa olunmuşdur. 86 min nüsxə fondu olan bu kitabxanada indi Azərbaycan və rus dillərində 4 şöbə, oxu zalı, işçilər üçün istirahət yeri vardır. Heydər Əliyev Fondu tərəfindən kompüter dəsti və xeyli təzə kitab da bağışlanmışdır.

Bütün bunlara görə Mehriban xanıma kollektivin, çoxminli oxucuların və mədəniyyət işçilərinin minnətdarlığını bildirən kitabxanaçılar, görülmüş işləri həm də milli mədəniyyətimizin inkişafına xeyirxah, uzaqgörən qayğının nəticəsi kimi qiymətləndirdilər.

Mehriban xanım kitabxananın fondu, şöbələri, oxucuların rahatlığı üçün yaradılmış şəraitlə tanış oldu, foyedə təşkil edilmiş foto-sərgilərə baxdı, oxucularla söhbət edərək onların maraq dairəsini öyrəndi, kitabın hər zaman əvəzedilməz bilik mənbəyi olduğunu xatırlatdı. Kitabxanaya daxil olan yeni xarici ədəbiyyatla, dövri mətbuatla, latın qrafikası ilə çapdan çıxan kitablarla, kataloq sistemi ilə yaxından maraqlanan Mehriban xanım burada yaradılan şəraitdən razılığını bildirdi, kollektivə öz tövsiyələrini verdi, kompüter sisteminə keçidlə bağlı hansı problemin mövcud olduğunu soruşdu və bildirdi ki, kitabxananın fəaliyyətinin təkmilləşdirilməsi üçün Fond bundan sonra da lazımi kömək göstərəcəkdir.

Kitabxananın fəal oxucuları Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən quruculuq-abadlıq işlərinə Heydər Əliyev Fondunun prezidenti Mehriban Xanımın dəstəyini yüksək qiymətləndirdilər, deputat kimi fəaliyyətindən də razılıqlarını vurğuladılar.

Uşaq bağçasının inkişafını, maddi-texniki bazasının yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Şimal DRESS" yaşayış massivində 10 nömrəli körpələr evi və uşaq bağçasında da yenidənqurma işləri aparılmışdır. Bir





neçə ay əvvəl burada olan Mehriban Əliyeva sakinlərin xahişini nəzərə alaraq uşaq müəssisəsinin müasir tələblərə cavab verməsi üçün tədbirlər görüləcəyini bildirmişdi.

"Uşaq evlərinin və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində həyata keçirilən yenidənqurma işləri ötən əsrin 40-cı illərində inşa edilmiş bu köhnə binanın əvvəlki arxitektura görkəmi saxlanılmaqla simasını tamamilə təzələmişdir. Bağça müasir avadanlıqla, təzə yataq dəstləri, çarpayılar, oyuncaqlarla təmin edilmiş, binada istilik sistemi quraşdırılmış, həyətdə uşaqların gəzintisi, müxtəlif oyunların keçirilməsi üçün xüsusi sahə yaradılmışdır. Buraya gələn əvvəlki çala-çuxur yolun əvəzində indi geniş, asfalt döşənmiş, ətrafına sıx cərgələrlə küknar ağacları əkilmiş yol salınmışdır. Bağçanın açılış mərasimində iştirak edən Mehriban xanım Əliyevanı səmimiyyətlə qarşılayan tərbiyəçi-müəllimlər, valideynlər bütün bunlara görə ona təşəkkürlərini bildirdilər.

Mehriban xanım qəsəbə sakinlərini və 23 nəfər işçisi olan bu kollektivin üzvlərini belə bir obyektin inşası münasibətilə təbrik etdi, valideynlərə uşaqlarını hər zaman sağlam görməyi arzuladı. Sakinlər az müddətdə belə dəyərli işin görülməsini fədakarlıq kimi qiymətləndirdilər. Milli Məclisin deputatının verdiyi vədlərə ardıcıl, dəqiq əməl etməsinin xüsusi razılıq doğurduğunu söylədilər.

Mehriban xanım 200-dən çox uşağın təlim-tərbiyəsi üçün burada yaradılan şəraitlə yaxından tanış oldu, görülən işləri müsbət dəyərləndirdi, tövsiyələrini bildirdi, böyüməkdə olan nəslin sağlamlığının, tərbiyəsinin Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu, rayonun digər uşaq tərbiyə müəssisələrində də belə nümunəvi şəraitin yaradılacağını vurğuladı.

Ümummilli lider Heydər Əliyevin doğum günündə Fond daha bir uğurlu layihəsini başa çatdırdı.

Nizami rayonu 1 nömrəli uşaq evinin Şüvəlan qəsəbəsində yerlə-

şən yay düşərgəsi uzun illər idi ki, istifadəsiz qalaraq yararsız vəziyyətə düşmüşdü. Fondun prezidenti Mehriban Əliyeva ölən gəlişində buradakı vəziyyətlə yaxından tanış olaraq Bakının bütün uşaq evləri və internat məktəblərində böyüyən uşaqların yay istirahəti üçün burada lazımi şəraitin yaradılması ideyasını irəəi sürdü. Fondun əməkdaşlarına tapşırıq verdi ki, təcrübəli mütəxəssislər cəlb olunaraq geniş ərazidə yay düşərgəsi yaradılması üçün layihə hazırlansın. Layihə Mehriban xanımın şəxsən iştirakı ilə baxılaraq əlavələrlə birlikdə qəbul ediləndən dərhal sonra tikinti işlərinə başlandı. Qısa müddət ərzində burada əsl uşaq şəhərciyi yaradılmışdır. Yaşıllıqlarla əhatələnmiş hovuz, rahat istirahət guşələri, tennis kortları, rəngbərəng gül-çiçək kolları göz oxşayır.

Buradan gələn musiqi sədaları hələ uzaqdan eşidilirdi. Al-əlvan gül-çiçəyə qərq olmuş həyətdə Mehriban xanımı uşaq evinin "Azəri" mahnı və rəqs ansamblı oynaq rəqslərlə qarşıladılar.

Düşərgənin yataq, iaşə və inzibati binalardan ibarət hər 3 korpusunu gəzən Mehriban xanım ən müasir avadanlıqla, inventarla kmplektləşdirilmiş binalardakı səliqə-səhmandan, tikinti işlərinin keyfiyyətindən razılığını bildirdi, burada arzusunda olduğu mənzərəni görməsindən sevindiyini gizlətmədi. Dedi ki, ən böyük arzusu bütün uşaq evlərində belə şərait görməkdir və yəqin ki, yaxın illərdə belə də olacaqdır. Çünki yalnız belə rahat şərait və tərbiyəçi müəllimlərin, cəmiyyətin bütün təbəqələrinin xoş, qayğıkeş münasibəti uşaqların ata-anasızlıq dərdini azalda bilər.

Düşərgənin müdiri Nərminə Zöhrabova belə bir nümunəvi şəhərciyi onlara bəxş edən Mehriban xanıma minnətdarlıq etdi, bu xeyirxahlığın həmişə yaddaşlarda qalacağını vurğuladı, savab əməl sahibinə və onun ailəsinə, övladlarına Allahdan xoşbəxtlik dilədi.

Qəsəbə ağsaqqalı Cümşüd Muradov burada quraşdırılan təzə yüksəkgərginlikli transformatordan ətraf məhəllələrin də istifadə etdi-





yini minnətdarlıq hissi ilə bildirdi.

Mehriban xanım uşaqlarla, qəsəbə sakinləri, kollektiv üzvləri ilə xatirə şəkli çəkdirdi.

Ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə həmin gün burada Bakının müxtəlif uşaq evi və internat məktəblərində tərbiyə olunan uşaqların iştirakı ilə düşərgədə musiqi bayram axşamı təşkil edildi. Respublikamızın tanınmış müğənniləri uşaqlara unudulmaz sevinc bəxş etdilər.

*AzərTAc*
*"Azərbaycan" qəzeti,*
***11 may 2006-cı il***

# BAKIDA "ORTA ƏSR ƏLYAZMALARINDA TİBB VƏ ƏCZAÇILIQ" MÖVZUSUNDA I BEYNƏLXALQ KONFRANS İŞƏ BAŞLAMIŞDIR

İyunun 12-də Bakıda Heydər Əliyev Fondunda bu qurumun və Vaşinqton Elmlər Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfrans işə başlamışdır.

Konfrans iştirakçıları əvvəlcə Fəxri Xiyabana gələrək xalqımızın ümummilli lideri görkəmli siyasi xadim Heydər Əliyevin xatirəsini andılar, məzarı önünə əklil qoydular. Beynəlxalq konfransın iştirakçıları məşhur oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarı önünə də çiçəklər düzdülər.

Sonra konfrans iştirakçıları Heydər Əliyev Fonduna gəldilər. Burada qonaqlara ümummilli lider Heydər Əliyevin şərəfli ömür yolu və zəngin siyasi dövlətçilik fəaliyyəti ilə bağlı bütün məlumatları qayğıkeşliklə toplayaraq etibarlı surətdə qoruyub saxlayan Fondun məqsəd və məramı barədə ətraflı məlumat verildi. Bu işdə Fondun prezidenti, Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulandı.

Müxtəlif ölkələri təmsil edən qonaqlar dahi şəxsiyyət Heydər Əliyevin həyatının müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərə dünyanın siyasi xadimlərinin ona bəxş etdikləri hədiyyələrə, ulu öndərimiz haqqında kitablara, onun müxtəlif ölkələrin liderləri, elm, mədəniyyət və incəsənət xadimləri ilə çəkilmiş şəkillərinə baxdılar.





Qonaqlar əsas məqsəd və vəzifəsi Heydər Əliyev tərəfindən yaradılmış azərbaycançılıq ideologiyasını təbliğ etmək və gələcək nəsillərə çatdırmaq, ölkəmizdə həyata keçirilən irimiqyaslı layihələrə dəstək verməkdən ibarət olan Fondun fəaliyyətini yüksək dəyərləndirdilər.

Heydər Əliyev Fondunda təşkil edilmiş qədim əlyazmalar və kitablar sərgisi də qonaqlarda böyük maraq doğurdu.

Məlumat verildi ki, Azərbaycan Milli Elmlər Akdemiyasının Əlyazmalar İnstitutunda saxlanılan 11 minə qədər əlyazmanın 364-ü tibbə aiddir. Həmin əlyazmalardan xüsusi əhəmiyyət daşıyan 3-ü YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq registrinə daxil edilmişdir. Bunlar XI əsrdə yaşamış Əbdülqasım Zəhravinin "Əl—Məqalət əs-Sələsun" ("Cərrahiyyə və alətlər haqqında") çoxcildlik əsərinin 13-cü hissəsi, Əbu Əli ibn Sinanın XII əsrdə Bağdadda üzü köçürülən "Əl-Qanun fit Tibb" ("Tibb qanunları") kitabının 2-ci cildi və Rüstəm Cürcaninin XII əsrdə yazdığı, XVII əsrdə üzü köçürülmüş "Zahireyi-Nizamşah" ("Nizamşahların ehtiyatları") əlyazmasıdır. Ümumbəşəri sərvət olan və dövrün məşhur xəttatları tərəfindən üzü köçürülmüş bu mədəni irs nümunələri Əlyazmalar İnstitutunda qorunub saxlanılır.

"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfransın açılış mərasimində ABŞ, Almaniya, Böyük Britaniya, Belçika, Bəhreyn, Estoniya, Gürcüstan, İran, İsrail, Misir, Rusiya, Suriya, Türkiyə, Ukrayna, Yunanıstan və digər ölkələrdən 50-dən çox nümayəndə, bir sıra beynəlxalq təşkilatların təmsilçiləri, Azərbaycanın dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, xarici ölkələrin səfirləri iştirak edirlər.

Konfransı giriş nitqi ilə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva açdı.

## HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVANIN ÇIXIŞI

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

"Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda keçirilən beynəlxalq konfransın bütün iştirakçılarını ürəkdən salamlayıram. Sizi Heydər Əliyev Fondunda görməyə çox şadam.

Əminəm ki, konfransda iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən paytaxtımıza gələn qonaqların qədim Azərbaycan torpağı ilə tanışlığı unudulmaz olacaq, konfrans çox səmərəli keçəcək və gələcək əməkdaşlığımıza güclü təkan verəcəkdir.

Heydər Əliyev Fondu yarandığı ilk gündən qarşısına çox mühüm vəzifələr qoymuşdur. Sosial problemlərin həlli, cəmiyyətimizin ən zəif təbəqələrinə yardımla yanaşı, tarixi, mədəni, mənəvi irsimizin qorunub saxlanılması, ona dərin hörmətlə yanaşma, Fondun ən vacib məqsədlərindən biridir.

Fəaliyyət göstərdiyi iki il ərzində Fond təhsil, səhiyyə, elm və texnologiya, beynəlxalq əməkdaşlıq sahəsində mühüm layihələr həyata keçirmiş, bir çox uğurlar əldə etmişdir. Konfrans iştirakçılarına Fondun fəaliyyətini əks etdirən kitab təqdim olunacaqdır. Ona görə mən yalnız səhiyyə sektorunda görülən bəzi layihələr barəsində məlumat vermək istərdim. "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində respublikamızda 14 yaşınadək olan və bu xəstəlikdən əziyyət çəkən uşaqların tibbi preparatlarla təmin edilməsi həyata keçirilmiş, eyni zamanda, cəmiyyətimizin diqqətini bu problemə cəlb etməyə, insanlara müxtəlif cür kömək göstərilməsinə çalışırıq. "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində ölkəmizdə müasir Talassemiya diaqnostika və müalicə mərkəzinin yaradılması nəzərdə tutulub inşaat işləri başlanmışdır.





Səhiyyə sektorunda həyata keçirilən layihələrdə dünya təcrübəsini öyrənib istifadə etmək üçün Fond beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir.

Biz müxtəlif ölkələri, dinləri təmsil edən insanların dialoqunu beynəlxalq əməkdaşlığın qurulmasında ən optimal yol hesab edirik və bu sahədə keçirilən tədbirlərin sayı getdikcə artır. Bu ilin aprelində Latın Akademiyası ilə birgə "Azərbaycan: sivilizasiyalararası dialoqun keçmişi və bu günü" mövzusunda keçirilən beynəlxalq konfransı qeyd etmək olar. Hər bir belə tədbir mühüm elmi nəticələr verməklə yanaşı, ölkəmizi dünyada olduğu kimi tanıdır, bu gün Azərbaycanda olan yeniləşməni, inkişafı, reallıqları göstərir.

Əziz dostlar!

Heydər Əliyev Fondunun milli-mədəni irsimizin qorunub saxlanılması, qədim mədəniyyət və tarixımizin dünyada təbliği istiqamətində gördüyü işlərə YUNESKO tərəfindən böyük maraq göstərilir və dəstək verilir. Son illər biz dünyada böyük nüfuza malik olan təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik və bugünkü konfransı da Heydər Əliyev Fondu və YUNESKO arasındakı əməkdaşlığın növbəti mərhələsi kimi qiymətləndiririk. Azərbaycanda saxlanılan tibbə dair 3 nadir əlyazma 2005-ci ilin iyulunda YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq registrinə daxil edilmişdir.

Mən fərəh hissi ilə qeyd etmək istərdim ki, Dünya Yaddaşı Proqramına yalnız ayrı-ayrı dövlətlər və xalqlar üçün deyil, ümumilikdə, bəşəriyyət üçün əhəmiyyət daşıyan yazılı abidələr daxil edilir və cəmi 120 nadir əlyazmanın daxil edildiyi bu proqramda, artıq Azərbaycana məxsus 3 əlyazma da var.

Yeri gəlmişkən, Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda hazırda XII-XIV əsrlərə aid olan 12 minə yaxın əlyazma saxlanılır. Xalqımızın milli sərvəti hesab etdiyimiz bu əlyazmalar tariximizin və mədəniyyətimizin ayrılmaz bir hissəsidir. Tibb elminə aid olan 3 nadir əlyazmamıza YUNESKO tərəfindən bu cür yüksək qiymət verilməsi, onların qədim yazılı abidə olması ilə yanaşı, həm də orta əsrlərdə Azərbaycanda tibb elminin yüksək inkişaf səviyyəsinə çatmasının göstəricisidir.

Biz bu gün texnika və yüksək texnologiyalar əsrində yaşayırıq. Ümumiyyətlə, elm və xüsusilə tibb elmi XX əsrdə inanılmaz kəşflər və qələbələr əldə edibdir. Tibb elmində bir sıra yeni istiqamətlər aşkar olunub və bu da insan ömrünün uzadılmasına xidmət edir.

Eyni zamanda, tarixin qaranlıq qalmış səhifələri çoxdur. Elm sübut edir ki, bütün kəşflər və yeniliklərin kökündə əsrlər boyu yoxlanılmış və təsdiqlənmiş həqiqətlərin toplusu durur. Bu toplunun əsasını isə əsrdən-əsrə, nəsildən-nəslə keçərək bizim dövrümüzədək gəlib çatmış qədim əlyazmalar təşkil edir. Bu əlyazmaların hər biri ayrı-ayrı dövrlərin, bizim ümumi tariximizin və mədəniyyətimizin məhsuludur. Ona görə də onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün biz məsuliyyət daşıyırıq.

Məhz bu nöqteyi-nəzərdən bizim Heydər Əliyev Fondu və Vaşinqton Elmlər Akademiyası Bakı şəhərində "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfransın təşkil edilməsini qərara almışdır. Çıxışımın sonunda mən bir daha bütün qonaqlarımızı zəngin tarixə malik olan Azərbaycan torpağında salamlayıram və konfransın işinə uğurlar arzulayıram.

İndi isə sizi Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Yaşayan tarix" filminə tamaşa etməyə dəvət edirəm.

Film Azərbaycan tarixi, mədəniyyəti, abidələri, eləcə də bunların qorunub saxlanmasına Azərbaycan Prezidenti İlham Əliyevin göstər-





diyi ardıcıl diqqət və qayğı, YUNESKO-nun Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fondun ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsinə verdiyi töhfələr, qurumun beynəlxalq əlaqələri barədə geniş təsəvvür yaradır. Xüsusilə ölkəmizdə xalq təbabətinin qədim tarixi, ənənələri, Azıx mağarasından tapılan əşyalar, Qəbələ, Təbriz, Şamaxıda VI-XIV əsrlərdə mövcud olan əzcaxanalar, tibb məktəbləri, alim-həkimlər, Azərbaycanın flora və faunası, dərman bitkiləri, onlardan istifadə qaydaları, mineral ehtiyatları barədə verilən elmi-texniki məlumatlar konfans iştirakçıları tərəfindən maraqla qarşılandı.

MEHRİBAN XANIM ƏLİYEVA: Hörmətli qonaqlar! Mən bayaq çıxışımda qeyd etdim ki, Heydər Əliyev Fondu son illər YUNESKO ilə çox sıx əməkdaşlıq edir. Mən çox şadam ki, YUNESKO-nun baş direktoru Koişiro Matsuura konfrans iştirakçılarına təbrik məktubu ünvanlayıbdır. Məktubu oxumaq üçün söz YUNESKO-nu konfransda təmsil edən Əbdüləziz Abidə verilir.

ƏBDÜLƏZİZ ABİD: Çox sağ olun. Bugünkü bu mühüm konfransda sizin qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir. Mən YUNESKO-nun baş direktorunun məktubunu oxumaq istəyirəm. O, bu beynəlxalq konfransa gələ bilmədiyi üçün təəssüfləndiyini bildirir və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı kimi Mehriban Əliyevanın gördüyü işləri yüksək qiymətləndirir. Mən xüsusi məmnunluq hissi ilə ona YUNESKO-nun adından minnətdarlığını bildirmək istəyirəm və indi burada söylədiyi xoş sözlərə görə təşəkkür edirəm. İcazənizlə, məktubu oxuyuram.

"Tibb elminə və əczaçılığa həsr olunmuş bu birinci beynəlxalq konfrans yazılı irsin qorunmasının vacibliyini diqqətə çatdırmaq üçün mühüm fürsətdir. Bu bizə qədim ənənəvi üsullarla, həm də müasir informasiya texnologiyaları vasitəsilə əlyazmaları qoruyub saxlamaq

üçün imkan verir. Bu günlər biz Azərbaycanın zəngin əlyazmalar irsinin ən mühüm hissəsinin Dünya Yaddaşı Proqramına daxil olunmasını qeyd edirik. Biz bilirik ki, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda saxlanılan əlyazmalar Dünya Yaddaşı Proqramının mühüm məqsədinə xidmət edən vacib sənədlərdir. Bu sənədlərin dünya yaddaşı siyahısına salınması barədə qərar beynəlxalq müşvərət komitəsinin 2005-ci il iyunun 13-15-də Çində keçirilmiş 7-ci iclasında qəbul edilmişdir. Həmin iclasın iştirakçıları Cürcani, İbn Sina və Əbu əl-Qasım əl-Zəhraviyə məxsus bu nadir yazıların çox vacib və qiymətli olduğunu vurğulamış və bildirmişlər ki, bu əlyazmaların siyahıya daxil edilməsi dünyada tibb elminin inkişafına Azərbaycanın töhfəsini bütün dünyaya nümayiş etdirəcəkdir.

Sizin zəngin tarixiniz nəticəsində formalaşmış bu yazıların siyahıya daxil edilməsi böyük işin başlanğıcıdır.

Əfsuslar olsun ki, bir sıra ölkələr belə nadir əlyazmaları lazımi səviyyədə saxlaya bilmir. Bu, müxtəlif səbəblərlən, məsələn, təsadüfən və ya bilərəkdən kitabxanaların, arxivlərin dağılmasından və ya tarixi irsə biganə münasibətdən irəli gəlir. Buna görə də YUNESKO bəşəriyyət adından çıxış edərək bu cür mühüm əlyazmaların qorunub saxlanması üçün çalışır.

Qarşımızda çox böyük vəzifələr durur. YUNESKO və digər qeyri-hökumət təşkilatları, beynəlxalq, milli və özəl qurumlar bütün qüvvələrini bu problemin aradan qaldırılmasına sərf etməlidirlər.

YUNESKO bazırda dünya irsinin beynəlxalq səviyyədə qorunmasının təşviq olunmasına xüsusi çalışır. Dünya mədəni abidələrinin qorunması YUNESKO-nun daim diqqət mərkəzindədir. Əlyazmaların vəziyyəti çox ölkələrdə qənaətbəxş deyildir. Odur ki, bu yazıların dünya yaddaşı siyahısına daxil edilməsi onların qorunmasına xüsusi diqqət yetirilməsindən xəbər verir.

YUNESKO audio-vizual və rəqəmsal arxivlər sahəsində mühüm










AZERBAIJAN











proqram həyata keçirilir. Fikrimizcə, müasir üsullarla saxlanılan sənədlər təhlükələrlə üzləşir. Bu bütün alimləri və siyasətçiləri bu məsələdən xəbərdar olmağa çağırır.Dünya Yaddaşı Proqramı inkişaf edən ölkələrdə əlyazmalarının qorunub saxlanılmasını yüksək qiymətləndirir. Bu proqram təhsil və tədqiqatlar sahəsinə diqqəti yönəltməklə mühüm əlyazmaların qorunması üçün yeni imkanlar açır. Proqramın müəyyənləşdirilməsinə gəldikdə, bildirmək istərdim ki, YUNESKO-nun bu proqramı tam müəyyənləşdirməyə imkanı yoxdur. Buna görə də konfrans iştirakçılarının diqqətini bu məsələlərə cəlb etmək istəyirəm, siz bu məsələlərə xüsusi önəm yetirməlisiniz".

Sonra Vaşinqton Elmlər Akademiyasının vitse-prezidenti, Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin baş katibi ALEN TUVAYD çıxış etdi. O dedi:

- Xanım sədr, çox sağ olun. Hörmətli həmkarlar, xanımlar, cənablar!

Sizi Ümumdünya Tibb Tarixçiləri Cəmiyyəti adından salamlayıram.

Biz Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimovla əvvəllər də əməkdaşlıq etmişik.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu konfransda iştirakı onun bu tədbirə böyük əhəmiyyət verdiyini göstərir. Burada işitrak etməsinə və xüsusi qayğısına görə ona dərin minnətdarlığımı bildirirəm.

Mən burada YUNESKO-nun bu işə verdiyi əhəmiyyət barədə deyilən sözləri dinlədim və hesab edirəm ki, Azərbaycanın 5 nadir əlyazmasının Dünya Yaddaşı Proqramının siyahısına daxil edilməsi əlamətdar hadisədir. Bu yazılı tarixi irsin qorunub saxlanması və təşviq olunmasına diqqətlə yanaşmalıyıq. Zənnimcə, Azərbaycanda bu cür tədbirin keçirilməsi ölkənin rəhbərliyinin bu istiqamətə, bu sahəyə xüsusi önəm verdiyini göstərir. Konfrans bu sənədlərin YUNES-

KO ilə əməkdaşlıq çərçivəsində təbliğinə və onlara marağın artmasına xidmət edəcəkdir. Bu sadəcə tarixi və ya arxeoloji iş deyildir. Biz hamımız bu sahədə səylərimizi birləşdirməliyik və bütün cəmiyyət bu əlyazmalar barədə məlumatlandırılmalı və onların qorunub saxlanmasında iştirak etməlidir. Bu sahədə müasir texnologiyalardan da istifadə edilməlidir. Bu tarixi sənədlər ölü bir sənəd kimi qəbul edilməlidir. Tarixçilər bu əlyazmaları müəyyən kataloqlara daxil edərək, onlar barədə məlumatları cəmiyyətə çatdırırlar. Lakin bu, işin bir hissəsidir. Digər sahələrdə çalışan alimlər də bu işə öz töhvələrini verməlidirlər.

Zənnimcə, bu konfrans çox səmərəli olacaqdır. Artıq indidən konfrans iştirakçılarının bu tədbirə maraqla yanaşdıqlarını hiss edirəm. Buna görə də YUNESKO-nun nümayəndəsinə və doktor Mehriban xanım Əliyevaya bildirmək istəyirəm ki, mən üzvü olduğum qurumu burada təmsil etməkdən qürur duyuram, eyni zamanda sizə əməkdaşlıq təklif etmək istəyirəm. Sizin birgə tədqiqat proqramlarınızda iştirak etmək istəyirəm. Bu, qədim yazıların qorunub saxlanmasına yönəldilmiş çox vacib işdir və bu baxımdan biz bütün vasitələrdən - müasir texnologiyalardan, internetdən istifadə etməklə bunu yaymağa, öz təhlillərimizi aparmağa, tövsiyələrimizi verməyə və daha çox insanların, elmi işçilərin bu işə cəlb olunmasına çalışmalıyıq. Hesab edirəm ki, Heydər Əliyev Fondu ilə əməkdaşlıq tibb sahəsində tədqiqat proqramına nümunə ola bilər. Zənnimcə, digər ölkələrdə fəaliyyət göstərən qurumlar da bizimlə əməkdaşlıq edə bilər. Əgər belə bir işbirliyi alınarsa, əsrlərdən qalmış nadir yazıların bəşəriyyətin inkişafında vacib rol oynamasına nail ola biləcəyik.

Bu konfrans gələcək əməkdaşlıq proqramlarının əsasını qoyacaqdır. Mən bütün konfrans iştirakçılarına, xüsusilə Azərbaycan Milli Elmlər Akademiyasına, cənab Fərid Ələkbərova, YUNESKO-ya, bütün iştirakçılara öz minnətdarlığımı bildirmək istəyirəm.





Mən böyük iftixar hissi ilə xanım Mehriban Əliyevaya Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin diplomunu təqdim edirəm.

Fondun yardımı və köməyi olmasaydı, bu konfrans da mümkün olmazdı. Mən ümidvaram ki, konfrans və Heydər Əliyev Fondu bu istiqamətdə işləri davam etdirəcəkdir.

Bir daha sizin hamınıza minnətdarlığımı bildirir və uğurlar arzulayıram.

Sonra Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin prezidenti AFANASİOS DİAMANDOPOULOS çıxış edərək dedi:

- Hörmətli xanım Mehriban Əliyeva, konfrans iştirakçıları, hamınızı səmimi-qəlbdən salamlamaq istəyirəm və məni buraya dəvət etdiyiniz üçün minnətdarlığımı bildirirəm.

Mənim buraya gəlməyimin iki əsas səbəbi var idi. Burada böyük bir cəmiyyəti təmsil etmək və ölkənizdə səfərdə olmaq mənim üçün şərəfdir. Əminəm ki, siz hamınız bu konfransdan bəhrələnəcəksiniz. İkinci səbəb təsisatla bağlıdır. Ümumdünya Tibb Tarixçiləri Cəmiyyətinin prezidenti kimi bu proqram məni çox ruhlandırdı. Çünki siz burada tibbə dair əlyazmaları araşdırırsınızsa, tibb tarixinin bununla birbaşa əlaqəsi vardır və mən bu konfransın iştirakçıları qarşısında çıxış etmək imkanı yaranmasından çox şad oldum. Bizim cəmiyyət də bu sahədə bir çox işlər görmüşdür. Biz Qərb ilə Şərq arasındakı sərhədləri keçərək dünyanın müxtəlif ölkələrinin tarixi sənədləri ilə tanış olmaq imkanı əldə etmişik. Dünya əhalisin 70%-i Asiyada yaşayır. Onların əksəriyyəti səfalət və yoxsulluq içindədir. Bu səbəbdən də onlar öz yazılı tarixi abidələrinin qorunub saxlanmasını təmin etmək imkanlarına malik deyillər. Buna görə də ətrafa baxıb kimin bizə nümunə ola biləcəyini axtarmalıyıq. Azərbaycanı misal gətirmək olar. Çünki Azərbaycan hələ qədimdən alimləri, tibbi araşdırmaları ilə tanınmışdır. Bu baxımdan tədbirin xüsusi əhəmiyyətini qeyd etmək istəyirəm. Mən bu regionun bir çox ölkələrində olmuşam, bir

çox toplantılar daiştirak etmişəm. Lakin Azərbaycanın gördüyü iş məni çox fərəhləndirir və sizin ölkənizdə olmağıma çox şadam.

Diqqətinizə görə çox sağ olun.

Daha sonra Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti MAHMUD KƏRİMOVA söz verildi. O dedi:

- Hörmətli Mehriban xanım!

Hörmətli konfrans iştirakçıları, xanımlar və cənablar!

Heydər Əliyev Fondu ilə Vaşinqton Elmlər Akademiyası tərəfindən təşkil edilmiş bu beynəlxalq konfransın iştirakçılarını Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət heyəti adından ürəkdən salamlayır, konfransın səmərəli və uğurla keçməsini arzu edirəm.

Mehriban xanım Əliyevanın və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun səmərəli səyləri nəticəsində Bakıda ilk dəfə olaraq qədim tibb və əczaçılıq üzrə beynəlxalq konfrans keçirilir. Bu konfransa dünyanın 20-dən çox ölkəsindən nümayəndələr, tanınmış alimlər gəlmişdir. Burada bir çox beynəlxalq və milli təşkilatların nümayəndələri iştirak edirlər. Məsələn, burada YUNESKO, Ümumdünya Tibb Tarixçiləri Cəmiyyəti, İngiltərə Tibb Tarixi Cəmiyyəti, Türkiyə Tibb Tarixi Cəmiyyəti, Azərbaycan Tibb Tarixçiləri Birliyi, Vaşinqton Elmlər Akademiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Beynəlxalq Əczaçılıq Tarixi Cəmiyyəti, Beynəlxalq İslam Təbabəti Cəmiyyəti və bir çox başqa qurumlar təmsil olunur.

Konfrans çox mühüm bir hadisəyə həsr edilmişdir. Keçən il Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda mühafizə olunan orta əsr tibb əlyazmaları kolleksiyası YUNESKO-nun Dünya Yaddaşı Proqramına daxil edilmişdir.

Bu əlamətdar hadisəni qeyd etmək üçün Heydər Əliyev Fondu və Vaşinqton Elmlər Akademiyası Bakıda "Orta əsr əlyazmalarında ənənəvi tibb və əczaçılıq" adlı beynəlxalq konfrans təşkil etdilər.

Azərbaycan xalqının qədim və zəngin mədəniyyəti var. Bizə gəlib





çatmış qədim əlyazmalar bunu tam aydınlığı ilə sübut edir. Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda 11 mindən çox qədim əlyazma qorunur. Onlar müxtəlif zamanlarda, müxtəlif dillərdə, müxtəlif müəlliflər tərəfindən yazılmışdır. Bu əlyazmalar arasında şeir və nəsr əsərləri, eləcə də müxtəlif mövzuda kitablar vardır. O cümlədən tibb və əczaçılığa aid 360-dan çox əlyazma qorunur.

YUNESKO bu əlyazmalardan üçünü seçib dünya yaddaşı siyahısına daxil etdi. Bunlar Əbu Əli İbn Sinanın, Əbülqasım Zəhravinin və Rüstəm Cürcaninin əsərlərinin əlyazmalarıdır.

Bu üç əlyazma, həqiqətən də, ümumdünya əhəmiyyəti kəsb edir. Məsələn, İbn Sinanın Azərbaycanda qorunan əsəri onun dünyada mövcud olan ən qədim əlyazmalarından biridir. Zəhravinin əlyazmasında yüzlərcə cərrahiyyə aləti təsvir edilmişdir. Rüstəm Cürcaninin əlyazması isə, ümumiyyətlə, Azərbaycandan başqa heç yerdə yoxdur. Ümid edirəm ki, bu üç əlyazmanın dünya yaddaşı siyahısına salınması Azərbaycan əlyazmalarının dünyada tanınması istiqamətində atılmış ilk addımdır və gələcəkdə başqa qiymətli əlyazmalarımız da bu siyahıda yer alacaqdır.

Qədim Azərbaycan təbabəti və əczaçılığının çoxəsrlik irsini araşdırmaq və müasir tibb elminin istifadəsinə qaytarmaq alimlərimizin vacib vəzifələrindən biridir. Hazırki konfrans bu istiqamətdə atılmış mühüm addımlardan biridir. İndi öz tariximizə yeni gözlə baxdığımız, elmi və mədəni dəyərlərimizin qaynaqlarını daha obyektiv meyarlarla araşdırmağa başladığımız bir vaxtda bugünkü konfrans sanki bizim zəngin keçmişimizə açılan pəncərədir.

Mən bir daha konfrans iştirakçılarını salamlayır, konfransın faydalı, səmərəli keçməsini arzulayıram.

Sonda konfransı təşkil edən Heydər Əliyev Fonduna və Vaşinqton Elmlər Akademiyasına dərin təşəkkürümü bildirirəm.

Sonra YUNESKO-nun İnformasiya cəmiyyəti bölməsinin direkto-

ru ƏBDÜLƏZİZ ABİD çıxış edərək dedi:

- Çox sağ olun, Mehriban xanım!

Bu konfrans sizin bu sahəyə verdiyiniz əhəmiyyətin bariz nümunəsidir. Mən sizə məlumat vermək istəyirəm ki, Dünya Yaddaşı Proqramı YUNESKO-nun dünyanın bütün xalqlarının irsinin qorunması sahəsində həyata keçirdiyi dünya miqyaslı bir proqramdır. Bizim işimiz bununla bitmir. Bu proqramın uğurlu olması üçün işlərimizi davam etdirməliyik. Bu proqram 1992-ci ildən gerçəkləşdirilir. Təbii fəlakətlər, müharibələr və münaqişələr nəticəsində bir çox mühüm tarixi sənədlər məhv olmuşdur. Lakin bu proqramın həyata keçirilməsi sayəsində qiymətli əlyazmalar rəqəmsal formata keçirilmişdir.

Proqramın iki əsas məqsədi var. Birincisi, ən müasir texnologiyalardan istifadə etməklə bu yazıları qorumaq və onları gələcək nəsillərə ötürmək.

İkinci məqsədimiz müasir texnologiyalar vasitəsilə bu sənədə çıxışı təmin etməkdir.

Proqramın digər elementi YUNESKO-nun üzvü olan ölkələr arasında bu yazılı tarixi abidələr haqqında təşviqat kampaniyası aparmaq və insanları daha çox məlumatlandırmaqdır.

Proqramımız çox genişdir və biz tərəfdaşlarımızı, alimləri, jurnalistləri, tələbələri bu işə səfərbər edirik.

YUNESKO-nun Beynəlmxalq müşvərət komitəsi artıq yeddi görüş keçirmişdir. Bu yaxınlarda keçirilmiş 7-ci iclasda bildirilmişdir ki, çox ölkələrdəki sənədlər müasir texnologiyalar vasitəsilə ümumdünya mübadilə proqramına daxil edilməlidir. Beynəlxalq müşvərət komitəsi 69 ölkədə öz ofisini açmışdır. Əminəm ki, Azərbaycanda da komitənin ofisi açılacaqdır. Komitənin əsas məqsədi YUNESKO-nun üzvü olan ölkələrə mədəni və tarixi irsin qorunması sahəsində öz tövsiyələrini verməkdir. Biz bu yaxınlarda Asiya və Sakit okean regionu, habelə Latın Amerikası və Karib dənizi ölkələrində regional layihələrin reallaşdırılması üçün bir sıra tədbirlər keçirmişik. Onlardan öz tarixi sənədlərini beynəlxalq siyahıya təqdim xahiş olunmuşdur. Bu siyahı üç hissədən ibarətdir. Sənədlərin siyahıya salınması onların təşviq olunmasına xidmət edir. Sənədlər məşvərət komitəsinin iclasının qərarı əsasında beynəlxalq siyahıya salınır. Bu, YUNESKO-nun mədəni irsin qorunması ilə bağlı digər proqramlarına bənzəyir. Hazırda beynəlxalq siyahıya 77 ölkədən tibb elminə və əczaçılığa aid 120 çox mühüm əlyazma daxil edilmişdir.





Azərbaycan Milli Elmlər Akademiyası da bu sahəyə öz töhfəsini vermişdir. Hazırda Azərbaycanda ən mühüm əlyazmalardan ibarət milli registrin yaradılmasına başlanmışdır. Biz bunu çox yüksək dəyərləndiririk. Bu siyahıların tərtib olunması tarixi sənədlərin qorunub saxlanmasına böyük əhəmiyyət verildiyini göstərir. Dünya Yaddaşı Proqramına təqdim olunan sənədlər müxtəlif meyarlar baxımından öyrənilir və sonra müşvərət komitəsi tərəfindən nəzərdən keçirilir. Siyahı olduqca mühüm siyahıdır və hər hansı sənədin oraya daxil edilməsi o qədər də asan prosedura deyildir. Bu proqram bir sıra pilot layihələrlə başlanmışdır və bunlardan əsas məqsəd sənədlərin saxlanmasının müasir və ənənəvi metodlarının öyrənilməsi, onların veb-saytlara çıxarılması, dərc olunması yollarının araşdırılmasıdır. Bir çox sahələrdə proqramlarımız var. Məsələn, 6-7 il bundan əvvəl Praqada əlyazmalar rəqəmsal formata salınmışdır. Hazırda orada 30 min tarixi əlyazması rəqəmsal formada saxlanılır.

Digər layihəni Yəməndə həyata keçirmişik. Bu layihə çərçivəsində müqəddəs Quranın əlyazmasının müasir üsullarla qorunub saxlanmasına yönəldilmişdi. İstanbul Universitetində də mühüm layihə həyata keçirmişik. Burada da əlyazmaların saxlanması üsulları müzakirə edilmişdir.

Qahirədə İslam dininə aid sənədlərin qorunub saxlanması ilə əla-

qədər layihə həyata keçirmişik. Bu sənədlər kompakt disklərə köçürülmüş və çox yüksək keyfiyyətlə arxivləşdirilmişdir. Bu sənədlərdə islam alimlərinin tibb sahəsinə töhfələri əksini tapmışdır. Hindistanın Mədrəs şəhərindəki institutda da bir layihə həyata keçirmişik. Oradakı sənədlərdə otlarla ənənəvi müalicə usulları göstərilir. Özbəkistanda Əl-Biruni institutunda saxlanılan XIV-XVII əsrlərə aid əlyazmalarla bağlı layihə həyata keçirilmişdir.

Sonda demək istəyirəm ki, bir çox proqramlar var, biz onlar üzərində daim işləyirik. Bu sahədə həyata keçirilən layihələri əvvəlcə texniki komitəyə təqdim etmək lazımdır.

YUNESKO-nun üzvü olan ölkələrdən xahiş edirik ki, öz fikirlərini təqdim etsinlər. YUNESKO beynəlxalq siyahının tərtib edilməsi üçün xüsusi vəsait ayırmışdır.

Sonda sizin hamınızı YUNESKO-ya yardım etməyə çağırıram. Çünki YUNESKO ümumbəşəri, tarixi əlyazmaların qorunmasına çalışır və bu sahədə mübarizə aparır.

Diqqətinizə görə çox sağ olun.

MEHRİBAN ƏLİYEVA: Çox sağ olun cənab Abid!

- Əziz dostlar! Bununla da bizim konfransın açılış mərasimi başa çatır. Konfrans iyunun 13-14-də öz işini davam etdirəcəkdir.

Mən qeyd etmək istəyirəm ki, konfrans təkcə Bakı şəhərində keçirilmir, iyunun 14-də Yevlax şəhərində də davam edəcəkdir. Hesab edirəm ki, bu çox yaxşı haldır, çünki qonaqlarımız regionlarla, bölgələrlə tanış olacaqlar.

Bir daha bütün qonaqlarımızı salamlayır, sizə cansağlığı arzulayıram, konfransa uğurlar arzulayıram. Sonda bir də qeyd etmək istəyirəm ki, Heydər Əliyev Fondu bütün beynəlxalq təşkilatlarla əməkdaşlığa açıq və hazır olan bir təşkilatdır.

Çox sağ olun.





***

Konfrans iştirakçıları Fondun foyesində Heydər Əliyev Fondunun layihələri çərçivəsində çapdan buraxılmış ayrı-ayrı nəşrlərlə, Azərbaycan mədəniyyəti və tarixinə həsr edilmiş audio-video albomlarla, dərs vəsaitləri, məktəb ləvazimatları, musiqi diskləri ilə də tanış oldular.

Qonaqlar həmçinin Bakının görməli yerləri, tarixi, memarlıq, mədəniyyət abidələri ilə tanış olmaq, klassik muğam musiqisini dinləmək imkanı da əldə etdilər.

*AzərTAc*
*"Xalq qəzeti",*
***13 iyun 20056-cı il***

# ŞƏHİD AİLƏLƏRİNƏ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİNƏ YENİ MƏNZİLLƏR VERİLMİŞDİR

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 29-da Ucar şəhərində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün tikilmiş yaşayış evinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.

Şəhərin mərkəzində yerləşən 4 mərtəbəli 32 mənzilli bina dövlət vəsaiti hesabına tikilmişdir. İnşaat işləri "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin Ucardakı 1 nömrəli Aqrotikinti filialı tərəfindən görülmüşdür.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ikinci qrup Qarabağ əlilləri Sadiq Baxışovun və Niyazi Müslümovun mənzillərində oldular, burada yaradılmış şəraitlə maraqlandılar. Müharibə əlilləri hər bir şəraiti olan bu mənzillərdə özlərini çox rahat hiss etdiklərini bildirdilər və dövlətin onlara göstərdiyi qayğını yüksək qiymətləndirdilər.

Sonra dövlətimizin başçısı yeni mənzil alanlara orderləri təqdim etdi. Şəhid ailələrinin üzvləri və Qarabağ müharibəsi əlilləri bu diqqət və qayğıya görə Prezident İlham Əliyevə ürəkdən minnətdarlıq etdilər, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyü uğrunda bundan sonra da silaha sarılaraq Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazır olduqlarını söylədilər.

Prezident İlham Əliyev onlara təşəkkür edərək dedi ki, mən sizi təbrik edirəm, Azərbaycan xalqı, dövləti, hökumət orqanları - hamımız çalışmalıyıq ki, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri yaxşı





yaşasınlar, onların maddi vəziyyəti yaxşılaşsın, məişət problemləri öz həllini tapsın. Ona görə biz bu istiqamətdə böyük işlər görürük və bundan sonra da görməliyik. Siz buna layiqsiniz, siz Vətən uğrunda vuruşmusunuz, sağlamlığınızı itirmisiniz, şəhid olanlar var. Ona görə bütün aidiyyəti dövlət qurumları gərək sizin problemlərinizi həll etsinlər. Belə gözəl binanın tikilməsi də bizim tərəfimizdən atılmış növbəti bir addımdır. Siz daha da böyük işlərə layiqsiniz və Azərbaycanın qüdrəti möhkəmləndikcə, iqtisadi imkanlarımız artdıqca sizin problemləriniz daha da sürətlə öz həllini tapacaqdır. Sizi bir daha təbrik edirəm, yeni evlərdə xoşbəxt yaşayın.

Sonra yeni mənzillərin sahiblərinə Azərbaycan Prezidenti adından rəngli televizorlar hədiyyə olundu.

*AzərTAc*

***"Xalq qəzeti",***
***30 iyun 2006-cı il***

# AKADEMİK ZƏRİFƏ ƏLİYEVA ADINA QAZIQUMLAQ KƏND XƏSTƏXANASININ AÇILIŞI OLMUŞDUR

İyunun 29-da Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə akademik Zərifə Əliyeva adına Qazıqumlaq kənd xəstəxanasının təntənəli açılış mərasimi olmuşdur. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva akademik Zərifə Əliyevanın xəstəxananın binası qarşısında ucaldılmış büstü önünə gül dəstələri qoydular.

Sonra dövlətimizin başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi, foyedə Zərifə xanımın fəaliyyətindən bəhs edən guşə ilə tanış oldu. Prezidentə məlumat verildi ki, kənd xəstəxanası 55 çarpayılıqdır, Heydər Əliyev Fondunun təşəbbüsü və vəsaiti hesabına iki ay yarım ərzində əsaslı şəkildə bərpa olunmuş və müasir avadanlıqla təmin edilmişdir. Hazırda burada 25 nəfər çalışır. Burada poliklinika da fəaliyyət göstərir. Prezident İlham Əliyev burada cərrahiyyə otağı, stomatoloji kabinet, doğum, göz xəstəlikləri şöbələri ilə yaxından tanış oldu.

*AzərTAc*
*"Xalq qəzeti",*
***30 iyun 2006-cı il***





# HEYDƏR ƏLİYEV FONDUNUN QAZIQUMLAQ MƏKTƏBLİLƏRİNƏ HƏDİYYƏSİ

İyunun 29-da Ucar rayonunun Qazıqumlaq kəndində Heydər Əliyev adına 2 nömrəli orta məktəbin əsaslı təmirindən sonra açılışı olmuşdur. Dövlətimizin başçısı və xanımı mərasimdə iştirak edirdilər.

Prezident İlham Əliyevə məlumat verildi ki, 564 şagirdi, 45 nəfərlik pedaqoji kollektivi olan məktəb Heydər Əliyev Fondunun təşəbbüsü ilə təmir olunmuşdur. Məktəb 1998-ci ildə, xalqımızın ümummilli lideri Heydər Əliyevin 75 illiyi münasibətilə tikilmişdi. Burada dərslər bir növbədə keçirilir.

Dövlətimizin başçısı ulu öndərin fəaliyyətindən bəhs edən guşəyə, onun büstünə baxdı, məktəbin idman salonu, ayrı-ayrı sinif otaqları, linqafon kabineti, emalatxana, yeməkxana ilə tanış oldu, şagirdlərin yüksək bilik alması üçün yaradılan şəraitdən razılığını bildirdi.

Sonra Prezident İlham Əliyev məktəbin kollektivi ilə görüşdü. Müəllimlər göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür etdilər. Onlar Mehriban xanımın təşəbbüslərinin əhəmiyyətindən söz açdılar və onun mədəniyyətə və təhsilə göstərdiyi qayğını xüsusi vurğuladılar. Eyni zamanda, ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini xatırladılar və onun siyasi xəttini layiqincə davam etdirən Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirdilər.

Sonra Prezident İlham Əliyev məktəbin stadionuna gələrək, kənd uşaqlarının futbol oynamasına baxdı, buradan ətrafı seyr etdi. Kənddə yeni yaraşıqlı evlərin tikilməsinin ölkəmizin ümumi iqtisadi inkişafı ilə bağlı olduğu vurğulandı. Azərbaycan Prezidenti şagirdlə-

rin yüksək təhsilə və biliyə sahib olmaları üçün hər cür şəraitin yaradılmasının zəruriliyini və onların bir neçə dil öyrənməsinin əhəmiyyətli olduğunu söylədi.

Daha sonra Qazıqumlaq kəndində yaraşıqlı parka gələn Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndərin burada ucaldılmış abidəsini ziyarət etdilər.

*AzərTAC*
*"Xalq qəzeti",*
***30 iyun 2006-cı il***





# PREZİDENT İLHAM ƏLİYEV QAZIQUMLAQ KƏNDİNDƏKİ ŞADLIQ EVİNDƏ KEÇİRİLƏN TOY MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

Prezident İlham Əliyev iyunun 29-da Ucar rayonunun Qazıqumlaq kəndində yeni istifadəyə verilmiş şadlıq evində keçirilən toy mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı və xanımı şadlıq evinin qarşısında ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoydular.

Prezidentə məlumat verildi ki, 460 yerlik şadlıq evində bu gün ilk toy mərasimi keçirilir. Toya gələnlər əziz qonaqları hərarətli alqışlarla qarşıladılar.

Prezident İLHAM ƏLİYEV yeni ailə quran gənclərə müraciətlə dedi:

- Əziz balalar! Mən sizi bu gözəl toy mərasimi münasibətilə ürəkdən təbrik edirəm. Siz bu gün ailə qurursunuz, birgə həyata başlayırsınız.

Qoy sizin yolunuz həmişə açıq olsun, həmişə bir-birinizə dayaq olasınız, həmişə birlikdə olasınız. Bu, çox gözəl hadisədir. Azərbaycanda yeni ailə yaranır, yeni ailə qurulur. Əlbəttə ki, Azərbaycanda gedən bütün proseslər, görülən işlər imkan verir ki, cavanlar gələcəyə daha da inamla baxsınlar, ailə qursunlar, xoşbəxt yaşasınlar. Bu il Azərbaycanda böyük quruculuq işləri gedir. Mən bu gün bu kənddə bir neçə yerdə olmuşam. Görürəm ki, kənd abadlaşır. Mən bir müddət bundan əvvəl qarşıya vəzifə qoymuşdum ki, kəndlərin səviyyəsi şəhər səviyyəsinə yaxınlaşmalıdır, çatmalıdır. Kəndlə şəhər arasında

fərq çox az olmalıdır. Biz bu gün bunu bu kənddə görürük. İndi burada ən müasir xəstəxana fəaliyyət göstərir. Məktəb, gözəl şadlıq evi, gözəl yollar, xiyaban, elektrik enerjisi - hər şey var. Üstəlik, bu gözəl məclis. Bu onu göstərir ki, Azərbaycan yaşayır, Azərbaycan inkişaf edir. Ölkəmiz hərtərəfli inkişaf edir. Çünki ölkəmizin gücü, qüdrəti məhz bundadır. Şəhər, rayon, kənd - budur Azərbaycanın inzibati quruluşu. Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll olunarsa, deməli, bütün ölkəmizin problemləri həll edilmiş olur. Bu gün mən bunu bu gözəl məclisdə görürəm. Mən bu gün çox böyük sevinc içindəyəm.

Ucar rayonu inkişaf edir, burada gözəl abadlıq-quruculuq işləri görülür, ab-hava yaxşıdır, əhval-ruhiyyə yüksəkdir. Budur, bu gün Azərbaycanı səciyyələndirən amillər. Ölkədə vətəndaş birliyi var, inkişaf, iqtisadi irəliləyiş var, sabitlik, sülh var, insanlar rahat, təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayırlar. Biz hamımız çalışmalıyıq ki, bu gözəl işlər davam etdirilsin, ölkəmiz daha da möhkəmlənsin, müasirləşsin, səviyyəsi yüksəlsin. Bu, gözəl şadlıq evidir. Mən bu gün sizə deyirəm, yəqin ki, başqa rayonlardan da gəlib burada toy məclislərini keçirmək istəyənlərin sayı az olmayacaqdır.

Bütün bölgələrdə, bütün kəndlərdə belə gözəl şərait olmalıdır. Biz buna doğru gedirik. Biz irəliyə gedirik və əlbəttə ki, gənc nəslin fəaliyyətindən çox şey asılıdır. Ona görə təhsilə böyük diqqət göstərilmə-lidir. Gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunmalı, gözəl şəraitdə yaşamalıdır. Bu gün bu iki gəncin birləşməsində həm də böyük məna var. O məna ki, Azərbaycan xalqı yaşayır, yaxşı yaşayır, bundan da yaxşı yaşamalıdır və biz bunu təmin edəcəyik.

Sizi bir daha ürəkdən təbrik edirəm, sizə xoşbəxtlik arzulayıram. Bütün Ucar sakinlərinə xoşbəxtlik, əmin-amanlıq, inkişaf arzulayıram. Mən də öz tərəfimdən çalışacağam ki, Azərbaycanın inamlı inkişafı daha da sürətlə getsin, ölkəmiz daha da möhkəmlənsin, insanlar daha da yaxşı yaşasınlar.





Sağ olun.

Prezidentin təbriki böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı. Sonra məclisdə Azərbaycan Prezidentinin şərəfinə gözəl şeirlər və mahnılar səsləndi.

***AzərTAc***
***"Xalq qəzeti",***
***30 iyun 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDU ÖLKƏMİZİN ALİ MƏKTƏBLƏRİNƏ MÜXTƏLİF ELM SAHƏLƏRİNƏ AİD RUSİYADA NƏŞR OLUNMUŞ 4 MİNDƏN ÇOX KİTAB HƏDİYYƏ ETMİŞDİR

İyulun 5-də Heydər Əliyev Fondu respublikamızın ali məktəblərinə müxtəlif elm sahələrinə aid Rusiyada yüksək poliqrafik səviyyədə çap olunmuş 4 mindən çox kitab hədiyyə etmişdir.

Bu münasibətlə keçirilən təqdimat mərasimində respublikamızın elm, mədəniyyət, təhsil işçiləri, tanınmış alim və ziyalıları iştirak etmişlər.

Mərasimi giriş nitqi ilə Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı MEHRİBAN ƏLİYEVA açaraq demişdir:

- Mən bizim növbəti tədbirimizdə sizin hər birinizi görməkdən çox şadam. Bu gün biz sizi gözəl bir kitab sərgisinə dəvət etmişik. Amma adi sərgidən fərqli olaraq, bizim sərgimizdəki bütün bu kitablar Heydər Əliyev Fondu tərəfindən ölkəmizin ali məktəblərinə hədiyyə kimi təqdim ediləcəkdik.

Bildiyiniz kimi, Heydər Əliyev Fondu təhsil sahəsində ardıcıl olaraq irimiqyaslı layihələr həyata keçirir. Bütün ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının artıq ikinci mərhələsi başlayıbdır. Ötən il bu proqram çərçivəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə, 100, 200 və 240 yerlik





132 məktəb tikilib istifadəyə verilibdir. Bu il artıq 50-yə yaxın məktəbin inşasına başlanılmışdır. Yeni tədris ilinin başlanmasına qədər bu məktəblərin hamısı ən müasir avadanlıqla təchiz olunub qapılarını şagirdlərin üzünə açacaqdır.

Digər bir layihə - "İnternat məktəblərinin inkişafı proqramı" 2003-cü ildə 268 nömrəli məktəbin təmiri ilə başlanıbdır. O zamandan indiyə qədər ölkəmizdə 23 internat məktəbində əsaslı təmir aparılmışdır. İndi biz deyə bilərik ki, belə xüsusi internat məktəblərində maddi-texniki baza ilə bağlı problemlərin əksəriyyəti aradan qaldırılmışdır.

Bugünkü tədbirimizi də təhsil sahəsində böyük bir proqramın başlanğıcı kimi qiymətləndirmək olar. Sərgimizdə 4 mindən artıq kitab nümayiş olunur, onların əksəriyyəti dərsliklərdir. Bu kitabları bir neçə qrupa bölmək olar. Kitabların bir qrupu rusca nəşr olunmuş riyaziyyat, fizika, kimya, biologiya, fəlsəfə, sosiologiya və xarici dillərə aid olan dərsliklərdir.

İkinci bir qrup xarici dillərdən rus dilinə tərcümə edilən kitablardır. Bunlar müasir xarici üslubda nəşr olunmuşdur.

Kitabların böyük bir qismi tibb elmlərinə aiddir. Burada həm fəaliyyət göstərən həkimlərə, həm də Tibb Universitetinin tələbələrinə ünvanlanan nəşrlər vardır.

Nəhayət, uşaqlara aid olan və xüsusi məktəblər üçün dərsliklərdir. Bütün bu kitablar bu gün ölkəmizin 14 ali məktəbininin kitabxanalarına bağışlanacaqdır.

Hesab edirəm ki, bu, bizim proqramımızın yalnız bir mərhələsidir. Hazırda Azərbaycanda ali təhsil məktəblərinin təhsil proqramında istifadə olunan dərsliklərin təhlili göstərir ki, onların əksəriyyəti sovet dövründə çap edilib və əlbəttə ki, çoxu köhnəlib və müasir tələblərə cavab vermir. Əgər biz bu gün təhsildə islahatlar haqqında danışırıqsa, öz tələbələrimizin ən qabaqcıl ölkələrin təhsil sisteminə inteqrasi-

ya olunmalarını istəyirik. Ona görə də Heydər Əliyev Fondu təklif edir ki, təqdim olunan kitabların bizim təhsil proqramına uyğunluğu ali məktəblərdə araşdırılsın, təhlillər aparılsın, onlar Azərbaycan dilinə tərcümə edilərək çap olunsun.

Aydındır ki, elə kitablar var onlar milli zəmində hazırlanmalıdır və bu, ilk növbədə, humanitar, ictimai elmlər sahəsinə aiddir. Azərbaycan dili, ədəbiyyatı tarixinə dair kitablar əlbəttə ki, yalnız Azərbaycanda yazılmalı və çap olunmalıdır.

Eyni zamanda, hesab edirəm ki, digər elmlərə aid olan fizika, kimya və biologiyaya aid dərsliklərin Azərbaycan dilinə tərcümə olunub kütləvi tirajla nəşr edilməsi bu gün ali məktəblərimizə böyük dəstək ola bilər.

Bu məsələnin həllində Heydər Əliyev Fondu respublikamızın bütün ali məktəblərinin müəllimləri, alimləri ilə əməkdaşlığa, həm kitabların tərcüməsində, həm də çapında böyük dəstək göstərməyə hazırdır. Heydər Əliyev Fondu xüsusi məktəblərə aid olan dərslikləri, fiziki və əqli cəhətdən problemləri olan uşaqlar üçün dərsliklərin tərcüməsi və çapını öz öhdəsinə götürür və inanıram ki, yaxın gələcəkdə ölkəmizdə olan bütün xüsusi internat məktəbləri ən müasir dərsliklərlə təmin ediləcəkdir.

Sonda mən vurğulamaq istərdim ki, bu gün nümayiş olunan kitablar Rusiya təhsil sisteminə aiddir, amma yaxın gələcəkdə, bu ilin sonuna kimi Heydər Əliyev Fondu ingilis, alman, fransız dillərində nəşr olunan dərsliklərin sərgisini keçirəcək və sonra bunlar yenə də bizim alimlərimizin, ekspertlərimizin ixtiyarına veriləcəkdir.

Sonda mən kitablar təqdim olunan ali məktəblərin siyahısı ilə sizi tanış etmək istərdim: Bakı Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti. Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Universiteti, Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Rəssamlıq Akademiyası, Bakı Slavyan Universiteti, Turizm Akademiyası.





Beləliklə, Heydər Əliyev Fondu bütün bu ali məktəblərlə əməkdaşlığa başlayır və mən inanıram ki, bu əməkdaşlıq uğurlu olacaqdır.

Milli Məclisin elm və təhsil məsələləri daimi komissiyasının sədri, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Şəmsəddin Hacıyev Heydər Əliyev Fondunun ölkəmizin sosial-iqtisadi inkişafının ən mühüm prioritetlərindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşdığını və bu istiqamətdə çox əhəmiyyətli tədbirlər həyata keçirdiyini konkret faktlarla xatırlatmış, görülən işlərin elm və təhsil işçiləri tərəfindən böyük razılıqla qarşılandığını bildirmişdir. Rektor Fondun elm, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində, eləcə də milli-mənəvi dəyərlərimizin qorunub saxlanması və təbliği, xüsusilə Dağlıq Qarabağ həqiqətlərinin bütün dünyaya çatdırılması istiqamətində fəaliyyəti ilə cəmiyyətdə böyük nüfuz qazandığını vurğulamışdır.

O demişdir ki, Fond son bir ildə Azərbaycan Dövlət İqtisad Universiteti ilə də bir neçə uğurlu layihənin həyata keçirilməsində yaxından iştirak etmişdir. "Heydər Əliyev iqtisadi irsinin öyrənilməsi mərkəzinin" yaradılması və müasir informasiya-kommunikasiya vasitələrindən geniş istifadə etməklə virtual sistemlərə və proqram təminatına əsaslanan 20-dən çox elmi-metodik tədris laboratoriyasının qurulması xüsusilə əhəmiyyətlidir.

Ali təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi, dünya təhsil sisteminə inteqrasiya, müasir tələblərə cavab verən müvafiq qanunvericilik aktlarının qəbul edilməsi sahəsindəki uğurları xatırladan Ş.Hacıyev təhsilin bütün pillələrində müasir dərsliklər və dərs

vəsaitləri ilə təminatın mühüm yer tutduğunu, bu problemin iqtisad yönümlü ixtisaslarda daha aydın şəkildə büruzə verdiyini bildirmişdir. Rektor Fondun universitetə 300-ə qədər dərsliyi hədiyyə etməsini yüksək qiymətləndirmişdir. Bildirilmişdir ki, bu kitablar bir tərəfdən iqtisadiyyatın, demək olar, bütün sahələrini (dünya iqtisadiyyatı, makro və mikro iqtisadiyyat, maliyyə, bank işi, menecment, marketinq, idarəetmə, mühasibat uçotu, audit, laborator analizləri) əhatə edir, digər tərəfdən, bu dərsliklərin əksəriyyətinin dünyanın və Avropanın ən məşhur universitetlərinin kafedraları, alimləri tərəfindən yazılmışdır.

Ş.Hacıyev bu əvəzsiz hədiyyəyə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya 18 min nəfərlik müəllim və tələbə kollektivi adından minnətdarlıq etmişdir.

Sonra çıxış edən Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru Nurlanə Əliyeva demişdir ki, ulu öndər Heydər Əliyevin adını daşıyan bu müqəddəs yerdə təhsilimiz, elmimiz və mədəniyyətimiz üçün mühüm əhəmiyyəti olan tədbirlər müntəzəm keçirilir. O millət, xalq, ölkə inkişaf edir ki, orada dövlət elmin, təhsilin inkişafına qayğı ilə yanaşır. Bu cəhətdən xalqımız, pedaqodi ictimaiyyətimiz nikbindir. Çünki ölməz Heydər Əliyevin təhsildə apardığı islahatlar hazırda onun layiqli varisi İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İndiki mərasimin də belə qayğının əyani təzahürü olduğunu söyləyən N.Əliyeva görkəmli Azərbaycan yazıçısı və pedaqoqu Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsərində azərbaycanlı uşaqların vəziyyətini bütün ağrı-acısı ilə qələmə alan müəllifin "Babar mələr, quzum, indi sən haradasan..." sözlərini xatırladaraq, XXI əsrin əvvəllərində onun nəvəsi Mehriban xanımın uşaqların səsinə əməli işləri ilə səs verdiyini vurğulamış, onun valideyn himayəsindən məhrum olmuş uşaqların təhsili və tərbiyəsinə verdiyi töhfələri yada salmışdır.

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramının, eləcə də digər





layihələrin cəmiyyətdə yüksək razılıqla qarşılandığını bildirən N.Əliyva fəal həyat mövqeyinə malik gənc nəslin yetişməsində dərsliklərin rolundan, ibtidai təhsilin əhəmiyyətindən, müsbət ənənələri ilə tanınan kollecdə bu sahədə görülən işlərdən də danışmışdır. Eyni zamanda, problemlərdən də söhbət açmış, onların aradan qaldırılması üçün öz təkliflərini söyləmiş, həmin problemlərin həllinə Heydər Əliyev Fondunun yardımçı olacağına əminliyini vurğulamışdır.

Bakı Dövlət Universitetin rektoru, AMEA-nın müxbir üzvü, Milli Məclisin deputatı Abel Məhərrəmov bu tədbirin Azərbaycan təhsili, elmi üçün çox əlamətdar olduğunu vurğulayaraq 4 mindən artıq kitabın ölkə ali məktəblərinə təqdimatını ümummilli lider, ulu öndər Heydər Əliyevin vəsiyyətlərinə böyük ehtiramın sübutu kimi səciyyələndirmişdir.

Heydər Əliyev Fondunun təhsil və mədəniyyətimizin inkişafında mühüm töhfələr verdiyini bildirən rektor Rusiyanın tanınmış alimlərinin yazdıqları əsərlərin, dərsliklərin Azərbaycana gətirilib təmənnasız olaraq ali məktəblərə paylanılmasının bu baxımdan əhəmiyyətini vurğulamışdır. Bakı Dövlət Universitetinə 794 addа mindən çox kitab ayrıldığını bildirən A.Məhərrəmov demişdir ki, universitetin 16 fakültəsində 43 istiqamət üzrə təhsil alan 17 mindən çox tələbə, habelə 1500-ə yaxın müəllim bu əsərlərdən bəhrələnə biləcəkdir.

Rektor vurğulamışdır ki, Heydər Əliyev Fondu yaranarkən çoxlarında belə təsəvvür vardı ki, dünyada olan oxşar qurumlar kimi o da çox da mürəkkəb olmayan missiyanı həyata keçirəcəkdir. Amma qısa müddət keçəndən sonra hamı gördü ki, bu Fond qarşısına genişmiqyaslı vəzifələr qoymuşdur və onları yerinə yetirməkdə israrlıdır. Fond artıq özü də bir elmi mərkəzə çevrilməkdədir.

Qloballaşma dövründə, informasiya cəmiyyətinin bərqərar olduğu müasir internet əsrində digər ölkələrlə elmi-mədəni əməkdaşlığın, ümumbəşəri nailiyyətlərin öyrənilməsinin əhəmiyyətini xatırladan

rektor hələ əksər dərsliklərimizin latın qrafikası ilə çap edilmədiyi bir şəraitdə Fondun hədiyyə etdiyi kitabların tədris prosesinin keyfiyyətinin yaxşılaşmasına mühüm kömək olacağını bildirmişdir. A.Məhərrəmov Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizin sosial-iqtisadi inkişafı, milli dövlət müstəqilliyimizin möhkəmlənməsi sahəsində gərgin fəaliyyətinin təbliğində ziyalıların, təhsil işçilərinin öhdəsinə düşən vəzifələrdən də danışmış, elm və təhsilə qayğısına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya universitetin çoxminlik kollektivinin minnətdarlığını çatdırmışdır.

Rus dilində nəşr olunmuş, elmi-texniki tərəqqinin son nailiyyətlərini əks etdirən dərsliklərin və elmi-kütləvi ədəbiyyatın ali məktəblərə təqdim edilməsinin mühüm hadisə olduğunu vurğulayan Azərbaycan Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanov demişdir ki, hazırda Azərbaycanda çox böyük inkişaf var. Bu inkişaf bütün sahələri, o cümlədən elm və təhsil sahəsini də əhatə edir. Ulu öndər Heydər Əliyevin təhsilə, elmə, mədəniyyətə, səhiyyəyə göstərdiyi diqqət və qayğının bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini deyən rektor indiki tədbirin də məhz bunun nəticəsi olduğunu söyləmişdir.

Tibb Universitetinin tələbələri, elmi işçiləri üçün xeyli sayda dərsliklərin, kitabların da ayrıldığını bildirən Ə.Əmiraslanov bu nəşrlərin çox böyük üstünlükləri olduğunu, Rusiyanın nüfuzlu alimləri tərəfindən yazıldığını xatırlatmışdır. Universitetdə kitabxananın əsasının uzun illər bu təhsil ocağına rəhbərlik etmiş böyük alim və ictimai xadim Əziz Əliyev tərəfindən qoyulduğunu, hazırda kitab Fondunun 1 milyon nüsxəyə çatdığını xatırladan rektor bildirmişdir ki, hər il latın qrafikası ilə təxminən 50 dərslik çap edilir. Bu cür dərsliklər öz mütəxəssislərimiz tərəfindən yazılmışdır. İndi hədiyyə olunan dərsliklər isə xüsusilə rus bölməsində oxuyan tələbələr, habelə müəllimlər, elmi tədqiqat işi ilə məşğul olan magistrlər üçün çox faydalı





olacaqdır.

Akademik Ə.Əmiraslanov habelə dəyərli nəşrlərin alınıb gətirilməsinə və ali təhsil müəssisələrinə hədiyyə olunmasına görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya universitetin kollektivi adından təşəkkürünü bildirmişdir.

Çıxışına Mehriban xanım Əliyevaya təşəkkürlə başlayan Bakı Slavyan Universitetinin rektoru, professor Kamal Abdullayev Slavyan Universitetinə təqdim olunan kitabların təhsil ocağının həyatında, tələbələrin, müəllimlərin fəaliyyətində yeni canlanma yaradacağını, çox böyük razılıqla qarşılanacağını vurğulamışdır. Slavyan Universitetinə təqdim olunan kitabların, başqa universitetlərə verilən əsərlərdən həm də informasiyaların zənginliyi ilə fərqləndiyini bildirən rektor demişdir ki, həmin əsərlərin müəlliflərinin bir çoxu ilə universitet sıx əlaqə saxlayır və Rusiyadakı bir sıra ali məktəblərin kitabxanaları ilə də birbaşa təmaslar yaradılmışdır. Bu da təbiidir ki, çünki hazırkı informasiya cəmiyyətində də dünyada kitab vasitəsilə ünsiyyət yenə öz əhəmiyyətini, etibarlılığını qoruyub saxlayır.

Rəhbərlik etdiyi universitetdə dünya klassiklərinin əsərlərinin birbaşa tərcümə edilib nəşr olunması üçün görülən işlərdən danışan K.Abdullayev bu təşəbbüslərin bir sıra xarici ölkələrdə də böyük maraqla qarşılandığını bildirmişdir.

Bu gün kitab bayramıdır, - deyən rektor Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın, digər sahələrdə olduğu kimi, kitabın təbliği sahəsindəki fəaliyyətinin də cəmiyyət tərəfindən yüksək qiymətləndiriləcəyinə əminliyini söyləmiş, dünyanın bir çox ölkələrində hazırda azərbaycanşünaslığa böyük diqqət yetirildiyini xatırlatmış, bununla bağlı qarşıda duran vəzifələrdən də danışmışdır.

Xeyriyyəçilik fəaliyyəti, mərhəmətliliyi, alicənablığı ilə örnək olan Azərbaycanın birinci xanımının fəaliyyətinin insanlarda Heydər Əliyev ideyalarının ölməzliyinə inam da yaratdığını bildirən rektor

K.Abdullayev dahi şəxsiyyətin siyasi xəttinin onun övladı, Prezident İlham Əliyev tərəfindən böyük ləyaqətlə, gəlini Mehriban xanım tərəfindən məhəbbətlə davam etdirilməsinin mənəvi əhəmiyyətini vurğulamışdır.

K.Abdullayev dəyərli hədiyyəyə görə Fondun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıq etmişdir.

Səhiyyə naziri Oqtay Şirəliyev dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan Fondun konkret insanların, əhalinin problemləri ilə bağlı real işlər gördüyünü vurğulayaraq demişdir ki, bu fəaliyyət sahələrindən biri də səhiyyə və təhsildir. "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı doğrudan da misilsiz bir layihədir. Bu, əvvəlcə bir çoxları üçün inandırıcı görünmürdü. Ancaq bu işlər layihə ilə bağlı, doğrudan da, ən yüksək səviyyədə təşkil olundu, məktəblər qısa müddətdə tikildi və üstəlik, avadanlıqla, kompüterlərlə də təmin edildi.

Səhiyyə sahəsində Fondun gördüyü işləri xatırladan nazir, şəkərli diabeti olan uşaqlara çox böyük yardımların edilməsini, irsi qan xəstəlikləri olan insanların müalicəsi üçün görülən tədbirləri, hazırda Bakı şəhərində Talassemiya mərkəzinin inşasını xüsusi vurğulamışdır. Nazir Fondun təşəbbüsü ilə bu yaxınlarda Bakı şəhərində qədim tibb əlyazmaları ilə bağlı beynəlxalq konfransın keçirildiyini, Azərbaycanda saxlanılan üç əlyazmanın YUNESKO-nun Dünya Yaddaşı Proqramının registrinə salınmasını mühüm hadisə kimi səciyyələndirmiş, bir müddət əvvəl Parisdə qeyri-maddi mədəni irsin qorunması ilə bağlı komissiyanın Baş Assambleyasında Mehriban xanımın hər bir ölkənin müxtəlif sahədə topladığı təcrübədən, səriştədən istifadə etmək haqqında irəli sürdüyü fikirləri yüksək qiymətləndirmişdir.

O.Şirəliyev təhsil ocaqlarına hədiyyə olunan kitablara, xüsusən tibbə dair ədəbiyyata görə Mehriban xanım Əliyevaya çoxminlik səhiyyə işçilərinin minnətdarlığını çatdırmışdır. Mehriban xanım mərasimə yekun vuraraq demişdir: Mən tədbirdə iştirak və çıxış edən bütün alimlərimizə və müəllimlərimizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. İnanıram ki, bu gün təməlini qoyduğumuz böyük bir proqram Azərbaycan təhsilinin inkişafına mühüm töhfə olacaqdır.





Sizə cansağlığı və uğurlar arzulayıram.

Sonra Mehriban xanım mərasimdə iştirak edən elm xadimləri, təhsil işçiləri ilə söhbət etmiş, onlarla birlikdə hər bir təhsil müəssisəsi üçün ayrılmış kitablara baxmışdır.

***AzərTAc***
***"Xalq qəzeti",***
***6 iyul 2006-cı il***

# ÜZEYİR HACIBƏYOVUN ANADAN OLMASININ 120 İLLİYİNƏ HƏSR EDİLMİŞ MUĞAM KONSERTİ

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ XANIMI MEHRİBAN ƏLİYEVA KONSERTDƏ OLMUŞLAR

İyunun 13-də Heydər Əliyev adına Sarayda Azərbaycan professional musiqisinin banisi, dahi Üzeyir Hacıbəyovun 120 illiyinə həsr edilmiş muğam konserti olmuşdur.

Salona toplaşanlar Azərbaycan Prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətli alqışlarla qarşıladılar.

Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü və dəstəyi ilə təşkil olunmuş konsertdə xalq artistləri Möhlət Müslümovun (tar) və Fəxrəddin Dadaşovun (kamança) müşayiəti ilə xalq artistləri Arif Babayev, Ağaxan Abdullayev, Səkinə İsmayılova, Aygün Bayramova və Mənsum İbrahimovun ifasında səslənən muğamlar musiqi xəzinəmizin bənzərsiz incilərinin əzəmətini bir daha nümayiş etdirdi. Üzeyir Hacıbəyovun 120 illiyi ilə əlaqədar "Space" televiziyasının keçirdiyi "Televiziya muğam müsabiqəsi-2005"in finalçılarının - Babək Niftəliyev, Vəfa Orucova, İlkin Əhmədov, Təyyar Bayramov, Qoçaq Əsgərov, Elnur Zeynalov, Elşad Aydınoğlu, Pərvaz İbrahimli, Zülfiyyə Məmmədova, Aytən Məhərrəmova, Bəyimxanım Mirzəyeva və Gülnar İsayevanın məharətli ifaları da xoş təsir bağışladı. Gənc ifaçıları istedadlı musiqiçilər - "Humay" mükafatı laureatları, tarzən Elçin Həşimov və kamançaçalan Elnur Əhmədov, habelə nağaraçalan Kamran Kərimov müşayiət





edirdilər. Xalq artisti Alim Qasımovun qızı Fərqanə ilə birgə çıxışı hərarətli alqışlarla qarşılandı.

Müvəffəqiyyətlə keçən konsert başa çatdıqdan sonra səhnə arxasına gələn Prezident İLHAM ƏLİYEV muğam ifaçılarını təbrik edərək dedi:

- Çox gözəl konsert oldu. Hamımız müsabiqəni iki ay ərzində televiziya vasitəsilə izlədik. Bu, böyük hadisədir. Milli sərvətimiz olan muğam sənətimiz yaşayır və nə qədər ki, Azərbaycan xalqı yaşayacaq, muğam sənəti də yaşayacaqdır. Bu gün muğamın yeni dövrü başlayır. Mən hamınıza - həm ustadlara, həm də müsabiqə iştirakçılarına dərin təşəkkürümü bildirmək istəyirəm. Bu konsertdə iki nəsil - həm ustadlarımız, həm də gənclərimiz, uşaqlarımız, balalarımız iştirak edirdilər. Çox gözəl bir konsert oldu. Həqiqətən, bütün salonda əhval-ruhiyyə çox yüksək idi. Ona görə dərin minnətdarlığımı bildirir və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Xalq artistləri Arif Babayev, Mənsum İbrahimov dövlətimizin başçısına təşəkkür edərək ona müraciətlə dedilər ki, cənab Prezident, bütün bunlar Sizin sayənizdə mümkün olmuş, hazırda muğamımız bu səviyyəyə yüksəlmişdir. Biz sənət adamlarıyıq. Yaşlılar, cavanlar - hamımız deyirik ki, Allah Sizə ömür versin, yüz yaşayasınız. Nə arzularınız varsa, hamısı həyata keçsin.

Onlar qədim muğam sənətimizin qorunub saxlanması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, nəhayət, muğamın inkişafı, yeni ifaçılar nəslinin yetişdirilməsi sahəsində Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyətinin Dostları Fondunun prezidenti YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdilər və ona bir daha dərin minnətdarlıqlarını bildirdilər.

Prezident İlham Əliyev vurğuladı ki, Mehriban xanımın rəhbərlik etdiyi həm Heydər Əliyev Fondu, həm də Azərbaycan Mədəniyyəti-

nin Dostları Fondu tərəfindən müsabiqə təşkil olunmuşdur. Muğam Mərkəzi də tikiləcəkdir. Biz onun təməl daşını bərabər qoyduq. İndi yaxın zamanlarda tikinti başlayacaqdır və o, Muğam Mərkəzi kimi əbədi yaşayacaqdır.

Sağ olun. Sizə bir daha təşəkkür edirəm.

*"Xalq qəzeti",*
***14 iyun 2006-cı il***





***Rüstəm XƏLİLOV,***
***Milli Məclisin deputatı***

# ŞƏRƏFLİ ƏNƏNƏLƏRİN LƏYAQƏTLİ DAVAMÇISI

Bəşər sivilizasiyasının ən qədim xalqlarından olan azərbaycanlılar bütün zamanlarda yüksək zəkalı, nəcib və xeyirxah qadınları ilə qürur duymuşlar. Tarixin müxtəlif mərhələlərində xanımlarımız fədakarlıq, mətinlik mücəssəməsi kimi öz adlarını ədəbi salnamələrə, eposlara yaza bilmişlər. Cəmiyyətin ictimai-siyasi həyatında və idarəetmə sistemində daim fəal mövqe tutmuş qadınlarımız bu gün müstəqil respublikamızın daha da inkişafı, dövlətçilik ənənələrinin möhkəmlənməsi naminə əzmlə çalışırlar. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər bu gün Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsində daha parlaq təcəssüm edir.

Ümumbəşəri dəyərlərə söykənən zəngin mənəviyyata, dar maraqlarla çərçivələnməyən konkret həyat amalına malik insanlar dövrünün problemlərinə əsl ziyalı yanğısı, vicdanlı vətəndaş təəssübkeşliyi ilə yanaşır, fürsət düşdükcə xalqının nicatına, təminatlı gələcəyinə xidmət edən xeyirxah əməllərin sahibinə çevrilirlər. Şəxsiyyətə hörmət, vətəndaşa həssas münasibət, insanlara qayğı və təmənnasız xidməti özünün fəaliyyət kredosuna çevirmiş Heydər Əliyev Fondunun prezidenti son illər ərzində xalqın milli varlığını özündə yaşadan zəngin mənəvi, elmi-intellektual və mədəni mülkiyyəti müasir qloballaşma dövrünün mənfi təsirlərindən mühafizə etmək üçün genişmiqyas-

lı işlər görmüşdür. YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərin qorunması, elm və təhsilin səviyyəsinin yüksəldilməsi, səhiyyənin inkişafı, insanların fiziki və mənəvi sağlamlığının təminatı yönümündə həyata keçirdiyi qlobal layihələr onun kamil vətəndaşlıq mövqeyində dayanmasının, mənəvi məsuliyyətinin təzahürüdür. Millətə və dövlətə xidmət məramına əsaslanan bu fəaliyyətin qayəsində həm də yüksək humanizm, mərhəmət və nəciblik kimi ali mənəvi keyfiyyətlər dayanır. Heydər Əliyev Fondu ulu öndərimizin ideallarını fəaliyyətində daim əsas tutaraq qloballaşmanın qarşısıalınmaz prosesə çevrildiyi indiki dövrdə xalqımıza xas olan gözəl mənəvi dəyərlərin ictimai münasibətlər sistemində saxlanılması yolu ilə cəmiyyətin normal inkişafına təkan vermək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin missiyanı uğurla həyata keçirmək əzmində olduğunu təsdiqləmişdir.

Sivilizasiyalararası dialoq və yaxınlaşma, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya və texnogen proseslərin geniş vüsət alması mütərəqqi proses olduğu qədər də, bəzən milli mədəniyyətə, mənəvi dəyərlər sisteminə real təhlükə qismində çıxış edir. Bəşəri və milli ideallar, zəngin mənəvi dəyərlər kapital münasibətləri fonunda müəyyən aşınmaya məruz qalır, kütləvi mədəniyyət stereotipləri hakim mövqeyə keçir. Belə bir şəraitdə xalqın milli "mən"inin, mənəvi dəyərlərinin qorunması məsələsi də son dərəcə vacib və aktual problem kimi önə çıxır. Bu baxımdan Azərbaycan mədəniyyətinin YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın timsalında özünə etibarlı hami və xilaskar tapması mühüm məqam kimi qiymətləndirilməlidir. "İndi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir şəraitdə, milli ənənələrin qorunub saxlanılması, onlara qayğı ilə, düşünülmüş münasibət göstərilməsi son dərəcə vacibdir. YUNESKO-nun çoxsaylı və-









DIRECTOR-GENERAL
World Health
Organization
COUNSEL






ЗОЛОТОЕ
СЕРДЦЕ





zifələrindən biri də insanın mənəvi dünyasını qorumaqdır. Odur ki, planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli "mən"ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin qorunması ən aktual vəzifəyə çevrilir" - deyən Mehriban xanım Əliyeva rəhbərlik etdiyi fondun fəaliyyətində bu aktual və həssas məqamı dəqiqliklə nəzərə alır. O, haqlı olaraq hesab edir ki, Azərbaycan xalqının milli mədəniyyətinin yabançı təsirlərdən qorunması üçün, ilk növbədə, milli-mənəvi və əxlaqi dəyərlərin cəmiyyətdə tam bərqərar olmasına, habelə ictimai şüurda daha möhkəm intişar tapmasına çalışmaq lazımdır.

BMT-nin ali humanitar qurumu olan YUNESKO qarşısında "Qafqaz xalq ənənələri evi"nin yaradılması təşəbbüsü ilə çıxış etməsi də Mehriban xanım Əliyevanın bu sahədəki fəaliyyətinin sistemli və ardıcıl xarakter daşıması ilə şərtlənir. Belə bir qurumun təşkili Qafqaz xalqlarına məxsus mədəni irsin qorunması və təbliği sahəsində son dərəcə mühüm addım ola bilər. Bu faydalı təşəbbüsün irəli sürülməsi, eyni zamanda dünyada maddi və qeyri-maddi irsin qorunub saxlanması vəzifəsini yerinə yetirən YUNESKO-nun həmin layihə çərçivəsində əməkdaşlığa dəvət edilməsi bir neçə cəhətdən mühüm önəm daşıyır. Bununla təkcə Azərbaycanın deyil, bütövlükdə Qafqaz xalqlarının zəngin mənəvi-mədəni abidələrinin qorunması və təbliği məqsədi önə çəkilir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması tarix boyu Azərbaycanın təkcə ərazisinə deyil, həm də maddi mədəniyyət nümunələrinə, incəsənətinə, musiqisinə, mətbəxinə göz dikən, onları özünüküləşdirməyə çalışan mənfur ermənilərin cəfəng iddialarının qarşısının alınması baxımından önəmlidir. "Qafqaz xalq ənənələri evi"nin yaradılması siyasi məzmun yükünə malik olmaqla Avropa Birliyinin təşəbbüsü ilə Qafqaz regionunda həyata keçirilən "Yeni Qonşuluq Siyasəti"nin səmərəliliyi baxımından son dərəcə vacib əhəmiyyət kəsb edir.

Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, YUNESKO-nun "Dünya irs siyahısı"na İçərişəhərin Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi, tarixi mədəniyyət abidələrinin bərpası "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunun fəaliyyətinin təqdirəlayiq məqamları kimi vurğulanmalıdır. Mehriban xanım Əliyevanın Azərbaycan muğamlarının öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti onun mənəvi dəyərlərə bağlılığının və yüksək vətənpərvərliyinin əyani təsdiqidir.

"Qarabağ xanəndələri" adlı nəfis albomun buraxılması da Fondun 2005-ci ildəki uğurları sırasında qeyd olunmalıdır. Həmçinin YUNESKO-nun qeyri-maddi irs siyahısına aşıq sənətinin daxil edilməsi yönündə səylərin gücləndirilməsi, təşkilatın baş katibinin iştirakı ilə ötən ilin avqust ayında Bakıda Beynəlxalq Muğam Mərkəzinin təməlinin qoyulması Fondun fəaliyyətinin kifayət qədər əhatəli olduğunu göstərir.

Cəmiyyətdə fəal maarifçilik xətti yeritməklə klassiklərimizin mütərəqqi ənənələrini davam etdirən Heydər Əliyev Fondunun son iki illik fəaliyyəti elmə və təhsilə qayğı nümunələri ilə zəngindir. Bu da təsadüfi deyildir - müasir dövrdə elmi-intellektual potensial hər bir xalqın mütərəqqi inkişafının ümdə şərti kimi çıxış edir. Müasir gerçəkliklər fonunda dünya təhsil sisteminə inteqrasiyanın təmin edilməsi, cəmiyyətdə hamı üçün bərabər təhsil imkanlarının yaradılması, yeni məktəblərin, təhsil ocaqlarının inşası, gənc nəslin kompüter və informasiya texnologiyalarına dərindən yiyələnməsi məsələləri fondun xüsusi diqqət mərkəzindədir.

Mehriban xanım Əliyevanın istər xeyriyyəçilik, istərsə də ictimai fəaliyyətinin prioritet istiqamətləri sırasında təhsilin mühüm yer tutması da millətimizin gələcəyini, nicat yolunu təhsilin inkişafında, və-





təndaşların maariflənməsində görən ümummilli liderimiz Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinə əsaslanır.

Heydər Əliyev Fondunun 2005-ci ildən həyata keçirməyə başladığı və artıq ikinci mərhələsinə start verildiyi "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə-tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənmişdir. Fondun Prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2005-ci ildə respublika üzrə bütün məktəb binalarının vəziyyəti yoxlanılmış və nəticədə Azərbaycanın ən müxtəlif bölgələrində tam yararsız hesab olunan 132 məktəb müəyyənləşdirilmişdir.

Mütəxəssislərin rəyi əsasında həmin məktəblərin yenidən inşası problemin optimal həll yolu kimi qiymətləndirilmişdir. İctimai dəstəyi vacib hesab edən Heydər Əliyev Fondu cəmiyyətin müxtəlif təbəqələrinin diqqətini bu məsələyə yönəltmək məqsədilə 2005-ci ilin iyun ayında müvafiq qurumların, habelə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların iştirakı ilə "dəyirmi masa" keçirmişdir. Proqramın həyata keçirilməsi məqsədilə Heydər Əliyev Fondunun cəmiyyətə ünvanladığı əməkdaşlıq çağırışı geniş əks-səda doğurmuşdur. 2006-cı ildə respublikamızda proqramın ikinci mərhələsinin həyata keçirilməsinə başlanılmışdır. Bu il Heydər Əliyev Fondunun təşəbbüsü ilə 100-dən artıq yeni məktəbin istifadəyə verilməsi gözlənilir. Heydər Əliyev Fondunun səhiyyə sahəsində həyata keçirdiyi layihələr də xalqın fiziki sağlamlığının və milli genofondumuzun qorunması məqsədinə xidmət edir. Bu baxımdan fondun uğurla həyata keçirdiyi "İnternat məktəbləri və uşaq evlərinin inkişafı", "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız yaşam" layihələri xüsusi vurğulanmalıdır. Həmin layihələr çərçivəsində 14 yaşınadək olan diabetli uşaqlara dərman preparatları paylanmışdır və bu istiqa-

mətdə işlər indi də davam etdirilir. Fond bu layihələri ilə həm də cəmiyyətin diqqətini uşaq evlərinə, internat məktəblərinə yönəltməyə nail olur. Mehriban xanım Əliyevanın başlıca məqsədlərindən biri də məhz xəstə, kimsəsiz uşaqlara qayğı örnəyini başqalarına da təlqin etməkdir. Təkcə ötən il fondun dəstəyilə 500-dən çox soydaşımıza səhiyyə yardımı göstərilməsi də Mehriban xanım Əliyevanın xeyirxah fəaliyyətinin göstəricisidir.

Fondun səhiyyə sahəsində həyata keçirdiyi digər layihə isə ölkədə talassemiyanın qarşısının alınmasına yönəlmişdir. Respublikanın bəzi rayonlarında həmin xəstəliyin yayılma tezliyi xüsusi təşviş doğurduğundan Heydər Əliyev Fondu bu sahəyə diqqət yetirməyi zəruri hesab edir. Fondun təşəbbüsü ilə ölkəmizdə talassemiyalı xəstələrin sayı, vəziyyəti, müalicə imkanları ilə bağlı müvafiq informasiya toplandıqdan sonra 2005-ci ilin fevral ayında "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən "dəyirmi masa"da ictimaiyyəti nümayəndələri, beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə birgə əməkdaşlıq imkanları müzakirə olunmuşdur. Geniş diskussiyadan sonra Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır.

"Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir" - deyən Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın özünün də söylədiyi kimi, bu gün ən müxtəlif hakimiyyət strukturlarının laqeydliyi, biganəliyi ilə üzləşən, dərdinə əlac axtaran köməksiz insanların sonuncu ümid qapısına çevrilmiş Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsində insanla-





ra yaxşılıq kimi bir ideya, bir amal dayanır. Bütün bunlar, şübhəsiz, Heydər Əliyev ideyalarına sədaqətin, Azərbaycan Prezidenti cənab İlham Əliyevin vətən, xalq naminə apardığı məqsədyönlü siyasətə dəstək vermək istəyinin əməli təzahürü olmaqla yanaşı, həm də Fondun cəmiyyətdə və ölkəmizdən xaricdə getdikcə artan nüfuzunun ifadəsidir. Birinci ledinin fikrincə isə, bütün bunlar görüləcək işlərin hələ başlanğıcıdır...

*"Xalq qəzeti",*
***25 avqust 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDU ÖLKƏMİZDƏ TƏHSİLİN, SƏHİYYƏNİN, ELM VƏ MƏDƏNİYYƏTİN, İDMANIN İNKİŞAFINA, İNSANLARIN KONKRET QAYĞI VƏ PROBLEMLƏRİNİN HƏLLİNƏ, AZƏRBAYCANIN BEYNƏLXALQ ƏLAQƏLƏRİNİN GENİŞLƏNMƏSİNƏ ÖZ TÖHFƏSİNİ VERİR

***"Ulu öndər Heydər Əlirza oğlu Əliyev haqqında çoxlu kitab yazılmışdır. Lakin təəssüf ki, onların heç biri onun şəxsiyyətinin bütün əzəmətini əks etdirmir. İlk növbədə, əlbəttə ki, Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi. Mahiyyət etibarilə Heydər Əliyev fenomeni hələ də sonadək açılmamışdır. Heydər Əliyev haqqında çox yazırlar, Azərbaycanda sanki ümidsiz görünən vəziyyəti onun necə dəyişə bildiyini, yaxud***





***Heydər Əliyevin necə "hakimiyyət ustası" olduğunu anlamağa çalışırlar. Lakin bütün bu yazılarda liderin həm praqmatik, həm də strateq ola bilməsinin fəlsəfi baxımdan dərk edilməsi çatışmır. O, ailədə, gündəlik ünsiyyətdə olduqca sadə, həssas, qayğıkeş idi. Heydər Əliyev əzəmətli, bənzərsiz şəxsiyyətdir!"***

***Mehriban xanım ƏLİYEVA***

Dövlət müstəqilliyimizin bərqərar olması, möhkəmləndirilməsi, iqtisadi tərəqqisi, milli mədəniyyətimizin qorunub inkişaf etdirilməsi, vətəndaş cəmiyyətinin yaradılması, ölkəmizin dünya birliyində öz layiqli yerini tutması üçün ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən dönmədən həyata keçirilən siyasi xəttin tam düzgünlüyü artıq real təsdiqini tapmışdır. Belə bir fakt hamı tərəfindən etiraf olunur ki, alternativi olmayan bu siyasi xəttin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

2004-cü il mayın 10-dan fəaliyyətə başlayan Heydər Əliyev Fondu ulu öndərin həyat və fəaliyyət fəlsəfəsinin, onun elmi-nəzəri irsinin, azərbaycançılıq ideologiyasının öyrənilməsi, təbliği, gələcək nəsillərə çatdırılması yolunda üzərinə götürdüyü şərəfli missiyanın uğurla həyata keçirilməsi üçün səylə çalışmaqdadır.

İctimai təşkilat olan Heydər Əliyev Fondu qarşıya qoyduğu, reallaşdırdığı məqsəd və vəzifələrin əhəmiyyətinə; miqyasına görə ölkəmizdə analoqu olmayan yeni tipli qurumdur, bacarıqlı təşkilatçılığı, üzərinə götürdüyü vəzifəyə sadiqliyi, iradəsi, ardıcıl və qətiyyətli fəaliyyəti nəticəsində Fond həm respublikamızda, həm də xaricdə, nü-

fuzlu beynəlxalq qurumlarda böyük hörmət qazanmışdır.

İqtisadi inkşaf yolunu tutan, yeniləşən Azərbaycan cəmiyyətində bərabər təhsil imkanlarının yaradılması, gənc nəslin biliklərə yiyələnməsi, ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasına dəstək verilməsi Heydər Əliyev Fondunun fəaliyyətinin öncül sahələrindən biridir. Mehriban xanım Əliyeva "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının ikinci mərhələsinin təqdimatına həsr olunmuş "dəyirmi masa"dakı çıxışında demişdir: "Müasir dünyada hər bir ölkənin inkişafı, onun dünya birliyinə inteqrasiyası üçün təhsilin rolu əvəzsizdir. Məhz buna görə Heydər Əliyev Fondu yarandığı ilk gündən təhsilə yardımı öz fəaliyyətinin prioritet istiqaməti elan etmişdir".

Bu sahədə həyata keçirilən proqram və layihələr ölkəmizdə təhsilin səviyyəsini yüksəltməyə, valideyn himayəsindən məhrum olmuş uşaq və yeniyetmələrin təlim-tərbiyəsi üçün şəraiti yaxşılaşdırmağa imkan vermişdir.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2005-ci ilin əvvəlində Bakının əksər rayonlarındakı uşaq evləri və internat məktəblərində olduqdan sonra "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsini məqsədəuyğun hesab etmişdir. Ölkədəki uşaq evləri və internat məktəblərində mövcud problemlərin həllinə yönələn bu proqram ötən il Heydər Əliyev Fondunun başlıca fəaliyyət istiqamətlərindən birinə çevrilmişdir. Proqramın ilkin mərhələsində aparılan monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn dörd əsas istiqamət - texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir. Fond belə müəssisələrin böyük əksəriyyətinin məhz təmirə, yenidənqurmaya və texniki təchizata daha çox ehtiyacı olduğunu nəzərə aldığından, ilk növbədə, texniki dəstək istiqaməti üzrə işlərə başlanmışdır.

Artıq bu kateqoriyadan olan 23 uşaq müəssisəsində yenidənqurma





və tikinti-təmir işləri aparılmışdır. Bu zaman onların zəruri avadanlıqla təmin edilməsi, yeni ədəbiyyatla zəngin kitabxanaların yaradılması, informasiya texnologiyalarının tətbiqi, sinif otaqlarının interaktiv təhsil üçün uyğunlaşdırılması da diqqət mərkəzində olmuşdur. Layihənin həyata keçirilməsi gedişində Bakı şəhərinin Nəsimi rayonundakı 268 nömrəli xüsusi yardımçı məktəb, I nömrəli uşaq evi, Nərimanov rayonundakı psixo-nevroloji uşaq evi, Şamaxı internat məktəbi, Nizami rayonundakı I nömrəli uşaq evi, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün 3 nömrəli xüsusi təhsil məktəbi, Əzizbəyov rayonundakı 2 nömrəli yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəbi, Şüvəlan qəsəbəsindəki yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün respublika yardımçı internat məktəbi, beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün 16 nömrəli internat məktəbi, Türkan qəsəbəsindəki nitqi qüsurlu uşaqlar üçün respublika xüsusi internat məktəbi və bir sıra digər uşaq müəssisələri yenidən qurulmuşdur. Onlarda sanitar-gigiyenik normalara cavab verən müasir tipli yeməkxanalar, yataq otaqları, həkim və psixoloq otaqları, idman meydançaları və salonları yaradılmışdır.

Proqram çərçivəsində asudə vaxtın və istirahətin səmərəli təşkili məqsədi ilə yay istirahəti düşərgələrinin yaradılması istiqamətində də işlər görülür. Nizami rayonundakı 1 nömrəli uşaq evi üçün Şüvəlan qəsəbəsində dünya standartlarına cavab verən yay düşərgəsinin yaradılması layihəsi reallaşmışdır.

Uşaq müəssisələrində qida normativlərinin aşağı olması da müəyyənləşdirilmiş, təkliflər paketi hazırlanaraq müvafiq dövlət qurumlarına təqdim olunmuşdur. Mehriban xanım bu tipli müəssisələrə mənsub olan torpaq sahələrinin qanunsuz özəlləşdirilməsi barədə şikayətlərə də diqqətlə yanaşmış, belə halların yolverilməz olduğunu bildirmişdir.

Şüvəlan qəsəbəsindəki poliomielit və beyin iflici olan uşaqlardan 7

nəfərinin Dublində (İrlandiya) keçirilmiş idman yarışında qızıl medal qazanmasından çox sevinən Azərbaycanın birinci xanımı buradakı müəllim və tərbiyəçilərlə görüşündə demişdir: "Bunlar bizim uşaqlardır, mənim üçün çox doğmadırlar, xahiş edirəm, onlara öz övladlarınız kimi baxasınız".

Heydər Əliyev Fondunda "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların kənar edilməsi (deinstitusionalizasiya) və alternativ qayğı" layihəsinin müzakirəsinə həsr olunmuş "dəyirmi masa" sonradan bu istiqamətdə dövlət səviyyəsində mühüm proqramın qəbuluna zəmin olmuşdur.

Fondun ötən ildən həyata keçirməyə başladığı və artıq birinci mərhələsi başa çatan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı təhsilin səviyyəsinə təsir edən problemlərin həllinə - tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənmişdir.

Bu sahədə real vəziyyəti qiymətləndirmək üçün Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ötən il respublikada məktəb binalarının monitorinqi keçirilmişdir.

Nəticədə Azərbaycanın ən müxtəlif bölgələrində tam yararsız hesab olunan 152 məktəb müəyyənləşdirilmiş, mütəxəssislərin rəyinə görə, onların yenidən inşası problemin ən optimal həlli kimi qiymətləndirilmişdir.

İctimai dəstəyi vacib hesab edən Heydər Əliyev Fondu cəmiyyətin ən müxtəlif təbəqələrinin diqqətini bu məsələyə yönəltmək məqsədi ilə 2005-ci ilin iyun ayında müvafiq qurumların, habelə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların iştirakı ilə "dəyirmi masa" keçirmişdir. Proqramın həyata keçirilməsi məqsədi ilə hazırlanmış 100, 200 və 240 şagird yerlik məktəb layihələri "dəyirmi masa" iştirakçılarına təqdim olunmuşdur.

Layihənin həyata keçirilməsi ilə bağlı Fondun prezidentinin cəmiyyətə ünvanladığı əməkdaşlıq çağırışı geniş əks-səda doğurmuşdur. Az sonra Azərbaycanın müxtəlif bölgələrində - dağ kəndlərində, ən ucqar yaşayış məntəqələrində məktəb tikintisi geniş vüsət almışdır.





"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində tikilən və infrastrukturu yerli tələbata və imkana uyğunlaşdırılan bu məktəblər müasir avadanlıq, istilik sistemi, zəngin kitabxanalar, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunmuşdur. Beləliklə, ölkənin ən müxtəlif bölgələrində 23 mindən çox şagird 2005-2006-cı tədris ilini müasir tələblərə cavab verən yeni məktəblərdə qarşılamışdır.

Fond bu çox dəyərli missiyanı cari ildə də davam etdirir, indi respublikamızda həmin proqramın 2-ci mərhələsi uğurla həyata keçirilir. Fondun təşəbbüsü ilə hazırda ölkəmizdə yarısı paytaxtda və ətraf qəsəbələrdə olmaqla, daha 100 məktəb inşa edilir.

Fondun Yeni ildə, Novruz şənliklərində, yeni dərs ilinin başlanmasında, əlamətdar bayramlarda şəhid, əlil, məcburi köçkün ailələrində və aztəminatlı ailələrdə böyüyən, eləcə də valideyn himayəsindən məhrum olan uşaqlara sovqatlar göndərməsi, onlardan ötrü əyləncəli şənliklər keçirməsi də artıq ənənəyə çevrilmişdir.

Fondun təşəbbüsü ilə "Mən Azərbaycanı sevirəm" mövzusunda uşaqların əl işlərinin müsabiqəsi və sərgisi təşkil edilmişdir.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Heydər Əliyev Fondu onlara əlavə imkanlar yaratmaq mexanizmi kimi informasiya-kommunikasiya texnologiyalarından (İKT) istifadəni zəruri sayır. Bu məqsədlə "Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair" layihə hazırlanmışdır. Üç mərhələdən ibarət layihə BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçrilir. Birinci mərhələdə məqsəd kor və görmə qabiliyyəti zəif olan insanların İKT ehtiyaclarını müəyyənləşdirmək, on-

lar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə milli strategiya hazırlamaqdır.

İkinci mərhələdə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün internat məktəblərdə model İKT sinfinin yaradılması istiqamətində iş aparılacaqdır. Xüsusi kompüter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması bu mərhələdə başlıca işdir.

Kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün kitabxana və təlim mərkəzinin yaradılması isə layihənin üçüncü mərhələsini əhatə edir. Bu müddətdə audio-kitabxana və bütün növ ədəbiyyatı audio formata çevirmək üçün səsyazma studiyasının yaradılması, bu studiyanın və nəşriyyatın yardımı ilə mövcud kitabxanalarda Brayl şriftli və audio kitabların bərpası, internetə çıxış, İT-əsaslı təlim kursları, xidmətləri təmin edən kompüter mərkəzinin yaradılması və təlimatçıların hazırlanması həyata keçiriləcəkdir.

Əhalinin sağlamlığının təmin olunması, səhiyyə sahəsində problemlərə diqqət 2005-ci ildə Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutmuşdur. Bu sahədə ilk tədbirlərdən biri "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsidir.

2004-cü il dekabrın 4-də Fondda "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsinin təqdimatından sonra Heydər Əliyev Fondu Azərbaycan Diabet Cəmiyyəti və Danimarkanın yüksək keyfiyyətli insulin istehsalı sahəsində dünyada lider olan Novo Nordisk şirkəti ilə birgə layihənin icrasına başladı. Layihənin əsas məqsədi ictimaiyyətin, yerli və xarici şirkətlərin diqqətini ölkəmizdəki diabetli uşaqların problemlərinə yönəltmək, bunların həllinə kömək etmək və Beynəlxalq Diabet Federasiyasının bu sahədə iştirakını fəallaşdırmaqdır.

Azərbaycanda bu xəstəliyə tutulmuş 14 yaşınadək 310 nəfər uşağın insulinlə təminatında əvvəllər böyük çətinlik mövcud idi. Layihə





çərçivəsində həmin uşaqlara yarımillik insulin preparatları və şpris-qələmlər verilmişdir. 2005-ci ilin may ayından başlayaraq Heydər Əliyev Fondu tərəfindən hər növbəti yarım il üçün insulin preparatları və şpris-qələmlər paylanılır və bu iş indi də müntəzəm davam edir. Bu yaxınlarda respublikamızda qeydiyyatda olan 2-ci qrup şəkərli diabet xəstəliyinə tutulmuş 100 pasiyentin hər birinə birillik müalicə üçün nəzərdə tutulmuş 1200 qutu diabeton preparatı verilmişdir. Dərman preparatlarının kəşfi, tədqiqi, istehsalı sahəsində dünyada ikinci ən böyük, tanınmış müəssisə olan Fransanın "Servey" şirkətində hazırlanmış preparatların diabetli xəstələrə, onların ailələrinə, doğma və əzizlərinə çatdırılması Heydər Əliyev Fondunun əvəzsiz hədiyyəsi olmuşdur.

Səhiyyə sahəsində Fondun həyata keçirdiyi digər layihə isə ölkədə talassemiyanın qarşısının alınmasına yönəlmişdir. Respublikanın bəzi rayonlarında bu xəstəlik geninin yayılma tezliyi xüsusi təşviş doğurduğundan, Heydər Əliyev Fondu bu sahəyə diqqət yetirməyi zəruri hesab edir.

Fondun təşəbbüsü ilə ölkəmizdə talassemiyalı xəstələrin sayı, vəziyyəti, müalicə imkanları ilə bağlı müvafiq informasiya toplandıqdan sonra 2005-ci ilin fevral ayında "Talassemiyasız həyat naminə" mövzusunda keçirilən "dəyirmi masa"da ictimaiyyət nümayəndələri, beynəlxalq təşkilatlar, o cümlədən Beynəlxalq Talassemiya Federasiyası ilə birgə əməkdaşlıq imkanları müzakirə olunmuşdur.

Geniş diskusiyadan sonra Fondun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində müasir avadanlıqla təchiz olunmuş Talassemiya Diaqnostika Mərkəzinin yaradılması qərara alınmışdır. Artıq müvafiq yer ayrılmış və onun tikilməsi istiqamətində işlər görülür. Proqramın daha səmərəli şəkildə həyata keçirilməsi üçün Məsləhət Şurası yaradılmışdır. Layihədə bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin

inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə də diqqət yetirilir. Fondun təşəbbüsü ilə talassemiya ilə mübarizədə İtaliya, Türkiyə, Yunanıstan və İsrail dövlətlərindəki təcrübə öyrənilir, bu ölkələrin müvafiq qurumları ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində işlər görülür. Artıq ötən il bir neçə ölkənin talassemiya sahəsində tanınmış mütəxəssislərinin Azərbaycana səfərləri təşkil edilmiş və müzakirələr aparılmışdır. Bu əməkdaşlıq çərçivəsində Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanması üçün başqa ölkələrlə mütəxəssis mübadiləsinin təşkili də nəzərdə tutulur. Fond tərəfindən bu yaxınlarda Almaniyanın "Frezerius" şirkətinin istehsalı olan 7 hemodializ aparatı da Bakıdakı M.Əfəndiyev adına 2 nömrəli şəhər klinik xəstəxanasına hədiyyə edilmişdir. Bu aparatlar xroniki böyrək çatışmazlığından əziyyət çəkən 42 xəstənin əzablarını yüngülləşdirəcəkdir. Hazırda Azərbaycanda hemodializə ehtiyacı olan təxminən 600 xəstə qeydiyyatdadır ki, bunların da 450 nəfərindən çoxu pulsuz müalicə olunur. Heydər Əliyev Fonduna səhiyyə problemləri ilə bağlı 4 minədək məktub daxil olmuş, bütün məktublar diqqətlə öyrənilmiş, müvafiq tibb müəssisələrinə göndərilmişdir. Daxil olan çoxsaylı xahişləri nəzərə alaraq müxtəlif xəstəliklərə düçar olmuş insanlara kömək göstərilməsi üçün Fond tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir.

2500-dən çox insana yardım göstərilmişdir ki, onların çoxu ürək xəstəliklərindən əziyyət çəkən azyaşlı uşaqlardır. Fond müxtəlif xəstəliklərdən əziyyət çəkən uşaqların bir qisminin mütəmadi olaraq zəruri tibbi müayinə üçün müxtəlif ölkələrə göndərilməsinə də yardım edir. 2005-ci ildə metropolitenin "Bakı Soveti" stansiyasında baş vermiş qəza nəticəsində xəsarət almış insanların müalicə olunmasını Heydər Əliyev Fondu öz üzərinə götürmüşdü. Ötən il Bakı Baş Səhiyyə İdarəsinin Nərimanov rayonundakı psixo-nevroloji uşaq evi Heydər Əliyev Fondunun vəsaiti hesabına əsaslı təmir olunmuş, ak-





tiv terapiya, masaj, müayinə avadanlığı və lazımi trenajorlarla təchiz edilmişdir. 100 çarpayılıq uşaq evində ötən il 87 uşaq müalicə olunmuşdur. Uşaq evinin həyəti abadlaşdırılmış, yaşıllıq salınmış, uşaqların əylənməsi üçün şərait yaradılmışdır. 18 nömrəli təcili yardım stansiyasının Türkan qəsəbəsindəki bölməsinin yenidən qurulması işi də Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmişdir.

Tibb sahəsində əməkdaşlığa xüsusi önəm verən Fond Gürcüstanın Hematologiya və Transfuziologiya İnstitutunun müraciəti ilə bağlı ötən il bu instituta 50 flakon "Desferal" preparatı hədiyyə etmişdir. İsmayıllı rayonunun İvanovka kəndində yeni səhiyyə ocağının yaradılması istiqamətində də bir sıra işlər görülmüşdür. Fond sosial problemlərin həllinə də öz köməyini əsirgəmir. Qaradağ rayonunda yaşayan 20 mindən artıq əhalini su ilə təchiz edən su kəmərinin çəkilişi bu qəbildəndir.

Heydər Əliyev Fondunun çoxsaylı məqsədlərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması və Azərbaycan mədəniyyətinin dünyada geniş təbliği ilə bağlıdır. Bu sahədə Azərbaycan Mədəniyyətinin Dostları Fondu ilə birgə bir neçə uğurlu layihə həyata keçirilmişdir. 2005-ci ildə Azərbaycan milli musiqisinin incilərindən olan muğamın inkişafı və təbliği ilə bağlı ciddi addımlar atılmışdır. Fondun prezidenti, YUNESKO-nun xoşməramlı səfiriMehriban xanım Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustaları dəvət olunmaqla "dəyirmi masa" keçirilmiş və Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. Muğam ustaları ilə mütəmadi görüşlərdən, məsləhətləşmələrdən sonra Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edilmiş və Fondda onun təqdimatı keçirilmişdir. Onun üçün münasib yer seçilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin və YUNESKO-nun Baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə binanın təməli qoyulmuşdur.

Bu silsilədən növbəti addım "Qarabağ xanəndələri" musiqi albo-

munun nəfis şəkildə nəşr olunması və "Gülüstan" sarayında onun təqdimat mərasiminin keçirilməsidir. Muğam vasitəsilə Qarabağ problemi haqqında bir həqiqət də dünya birliyinə çatdırır ki, bu sənətin doğulduğu torpaq özgə xalqın ola bilməz, belə mənəvi incilərin yarandığı torpaq yağı tapdağında qala bilməz. Qarabağ xalqının ağrı-acısı nisgilli tarixin ayrılmaz tərkib hissəsidir.

Dahi sənətkarımız Üzeyir Hacıbəyovun 120 illik yubileyi münasibətilə Heydər Əliyevi Fondunun və Azərbaycan Mdəniyyətinin Dostları Fondunun "Space" televiziyası vasitəsilə həyata keçirdiyi, bir ilə yaxın davam edən muğam müsabiqəsi, sözün əsl mənasında, ölkəmizin mədəni həyatında yaddaqalan hadisəyə çevrilmişdir. Bu layihəni, onun gedişatını, son nəticəsini dünyanın bir çox ölkəsində də milyonlarla muğamsevər izləmişdir. Dövlət Filarmoniyasında, sonra isə Heydər Əliyev adına Sarayda Azərbaycan Prezidentinin də təşrif buyurduğu yekun konsertləri müğam sənətinin inkişafı və qorunması istiqamətində atılan mühüm addım olmuş, bu məsələ həm də dövlət himayəsinin əyani təzahürünə çevrilmişdir.

Tanınmış iştirakçıların iştirakı ilə aprdıcıl olaraq müğam axşamlarının təşkili də sənətsevərlər, milli musiqi həvəskarları tərəfindən razılıq hissi ilə qarşılanır, bu ənənə yüksək dəyərləndirilir. Heydər Əliyev Fondunun köməyi ilə Azərbaycanın görkəmli yazıçı və pedaqoqu Abdulla Şaiqin ev-muzeyində əsaslı təmir-bərpa işləri aparılmış və muzey yenidən fəaliyyətini davam etdirmişdir.

Bakının Əzizbəyov rayonundakı Mərdəkan qəsəbəsində kütləvi kitabxanada yenidənqurma işləri aparılmış, Pir Həsən ziyarətgahının yenidən qurulması, ilə bağlı işlər başa çatmışdır. Hacı Zeynalabdin Tağıyevin və qızı Sona xanımın, Hacı Turab ağanın dəfn olunduqları bu ziyarətgah indi kompleksə çevrilmişdir. Mir Möhsüm ağa ziyarətgahını hər dəfə xüsusi hörmət və ehtiramla ziyarət edən Mehriban xanım buradakı məscidə ustad sənətkar Kamil Əliyevin toxuduğu





üzərində Quran ayələri olan xalçanı hədiyyə etmişdir.

Gəncə şəhərində VII əsrdə yaşamış, öz xeyirxahlığı ilə el arasında böyük hörmət qazanmış Comərd Həsənin məzarı və məzarüstü türbəsi də bəopa olunmuşdur.

Gəncənin sonuncu xanı Cavad xanın məzarı üzərində Heydər Əliyev Fondunun köməyi ilə türbə ucaldılmış, Həzrəti Zeynəb məscidində isə yenidənqurma işləri aparılmışdır.

2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bakıda və Parisdə dahi bəstəkarımız Üzeyir Hacıbəyovun 129 illik yubileyi keçirilmiş, Parisdə YUNESKO çərçivəsində görkəmli kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin 100 illiyi qeyd olunmuş, dünya şöhrətli ifaçılar - xalqımızın böyük dostu Mstislav Rostropoviç və xanımı Qalina Vişnevskayanın 50 illik birgə fəaliyyətinə həsr edilmiş albom və disklər hazırlanmışdır. Mstislav Rostropoviçin, Şostakoviçin, Bülbülün yubileyinə həsr olunmuş beynəlxalq festivallar keçirilmişdir. Azərbaycan mədəniyyətinin xaricdə təbliği istiqamətində daha bir uğurlu addım görkəmli bəstəkarımız Firəngiz Əlizadənin Parisdə yaradıcılıq gecəsinin keçirilməsi olmuşdur.

Dahi Üzeyir Hacıbəyovun "Arşın mal alan" əsərinin səhnələşdirilməsi haqqında Vyana Kamera Teatrı ilə razılığın əldə edilməsi də xalqımızın milli mədəniyyətinin dünyada təbliği yolunda mühüm hadisədir. Hazırda "Hacıbəyov" şərti adı altında böyük layihə üzərində intensiv iş gedir. Bu layihədə Üzeyir bəyin bütün əsərlərinin, o cümlədən klavirlərinin yenidən çap olunması ilə yanaşı, onların CD və DVD-də buraxılması daha nəzərdə tutulmuşdur.

Böyük Vətən müharibəsinin 60 illiyi münasibətilə Fondda keçirilən tədbir, veteranlara maddi yardımların verilməsi, onların ünvanına deyilən xoş sözlər dəhşətli müharibənin od-alovundan keçmiş insanların yaddaşında uzun müddət qalacaqdır.

Bu ilin martında Fondun təşkilatçılığı ilə Bakıda keçirilmiş "Fərqli

mədəniyyətlərin qovuşuğu" Beynəlxalq sərgi-konfransı, apreldə təşkil edilmiş "Azərbaycan: keçmişin və bu günün sivilizasiyalararası dialoqu", iyunda Fondda keçirilən "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq konfrans respublikamızın mədəni həyatında diqqətəlayiq hadisəyə çevrildi. Bu konfranslarda Mehriban xanımın, eləcə də Latın Mədəniyyəti Akademiyasının Baş katibinin, Roma Klubunun sədrinin, - İordaniya Haşimilər Krallığının şahzadəsinin, YUNESKO-nun Baş direktorunun müavininin, dünyadakı yəhudi təşkilatlarının rəhbərlərinin çıxışları Şərqlə Qərbin, Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycanın yeri və roluna, mövqeyinə verilən yüksək qiymətlə də yadda qaldı.

Belə tədbirlər, dünyanın nüfuzlu təşkilatları ilə əlaqələri Fondun qazandığı nüfuzun, onun rəhbərinə dünyada getdikcə artmaqda olan hörmət və ehtiramın göstəricisi olmaqla yanaşı, mill-mədəni irsimizin təbliğində də əvəzsiz rol oynayır.

Rusiyanın "Puşkin kitabxanası" Fondu ilə ötən ildən yaranmış əməkdaşlıq da ölkəmizdə elm, təhsil və mədəniyyətin inkişafına, rus dili vasitəsilə dünya mənəvi-mədəni xəzinəsinə çıxış əldə edilməsinə yönəldilmiş çox dəyərli hadisədir. Heç kəsə sirr deyil ki, Rusiya ilə 200 ildən çox davam etmiş birgə yaşayış xalqımızın siyasi-ictimai, elmi-mədəni dünyagörüşünə böyük təsir göstərmiş, xalqımız rus dili vasitəsilə dünya mədəni irsi ilə tanış olmuş, həm də öz dəyərli ədəbi-bədii fikir nümunələrini dünyaya tanıda bilmişdir. Müstəqillik qazanmış ölkəmizin hazırkı mərhələdə Rusiyanın oxşar strukturları ilə belə münasibətləri olduqca təqdirəlayiq, əhəmiyyətlidir. Keçmiş ittifaq dağıldıqdan sonra bu sahədə 15 ildən çox davam edən boşluğu məhz Heydər Əliyev Fondu doldurmağa başlamışdır. Eyni fikirləri Rusiyada son illər nəşr edilmiş müxtəlif elm sahələrinə aid 4 min kitabın, ondan əvvəl isə 800 dərsliyin Fondun və şəxsən Mehriban xanımın təşəbbüsü ilə alınıb respublikamızın ali məktəblərinə təqdim edilmə-





si haqqında da demək olar. Bu xeyirxah məramın arxasında Mehriban xanımın dövlətçiliyə, azərbaycançılığa, xalqımızın gələcəyinə və bir də kitaba münasibəti durur. Mehriban xanım həmin mərasimdə demişdir: "Ümumiyyətlə, mən televiziya adamı deyil, kitab adamıyam. Kino da mənim üçün ədəbiyyatdan törəmədir. Bugünkü cəmiyyətdə televiziya çox zaman, sadəcə, vaxt keçirmək vasitəsidir. Mənim üçünsə əsas kitabdır. Mən həyatda öyrəndiyim bütün yaxşı şeylər üçün kitablara borcluyam".

Heydər Əliyev Fondunun ümdə məqsədlərindən biri ulu öndərimizin zəngin irsinin, Vətən qarşısında misilsiz xidmətlərinin, milli dövlətçilik ideyalarının dərindən öyrənilməsi, təbliği, yeni nəsillərə çatdırılmasıdır.

2005-ci ildə ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş, məlumatın həcmi və geniş əhatə dairəsi ilə fərqlənən "heydar-aliyev.org" adlı domen internet portalı yaradılmışdır. Portalda ulu öndərimizin Azərbaycana rəhbərlik etdiyi dövrdəki nitqləri, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələri öz əksini tapmışdır. Azərbaycan, ingilis və rus dillərində təqdim olunan bu portal işçi qrupu tərəfindən mütəmadi olaraq yeniləşdirilir.

Bu silsilədən növbəti layihə "heydar-aliiyev-foundation.org" domeni olan, yüksək zövqlə tərtib edilmiş Heydər Əliyev Fondunun internet səhifəsinin yaradılması olmuşdur. Zəngin internet səhifəsində Fondun yaranma tarixi, fəaliyyəti, beynəlxalq əməkdaşlıq əlaqələri haqqında geniş materiallar yerləşdirilmişdir. Burada Fondun mükafatları, fəxri qonaqlar, kitabxana, videoqalereya, fotoalbom bölmələri də maraqla oxunur.

Heydər Əliyev Universitetinin konsepsiyasının hazırlanması üzrə iş gedir. Bu, ölkəmizin intellektual elitasının formalaşacağı bir universitet olmalıdır. Azərbaycanda və eləcə də onun hüdudlarından kə-

narda olan tanınmış təhsil xadimləri ilə məsləhətləşmələrin nəticəsində, təhsildə milli təcrübənin və Avropa standartlarının birləşdiyi bir model əsasında yaranacaq universitet respublikamızda mühüm hadisə olacaqdır.

Fondda Heydər Əliyevə həsr edilmiş ekspozisiya yeni eksponatlarla zənginləşdirilmiş, Fonda daxil olmuş 200-dən artıq müxtəlif hədiyyə, 600-dən çox kitab, 200-dən artıq jurnal və qəzet, çoxsaylı fotolar, disk və kasetlər elmi əsaslar üzrə işlənmişdir. Belə bir davamlı iş gələcəkdə Heydər Əliyev Fondunda ulu öndərin fəaliyyətinin bütün istiqamətlərini əks etdirən materialların toplanıb mərkəzləşdirilməsinə imkan verəcəkdir.

Ötən illərdə Fondun ekspozisiyası ilə bir neçə min qonaq tanış olmuşdur. Fondu ziyarət edən dövlət və hökumət başçıları, görkəmli siyasətçilər, mədəniyyət, incəsənət, din xadimləri Heydər Əliyev haqqında, Fondun fəaliyyəti barədə öz təəssüratlarını, ürək sözlərini bölüşmüşlər.

Bakıda, respublikanın digər şəhər və rayonlarında ulu öndər Heydər Əliyevə həsr olunmuş muzey və guşələrin yaradılması işində də Fond elmi-metodik yardım göstərmiş, bölgələrdə, ali təhsil məktəblərində Heydər Əliyev irsinin öyrənilməsi mərkəzləri açılmışdır.

Təhsilin inkişafı, əhalinin maarifləndirilməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, türkçülük, azərbaycançılıq məfkurəsinin təbliğ edilməsi istiqamətində Heydər Əliyev Fondu lazımi nəşrlərin çap etdirilməsini zəruri sayır. Ərazi bütövlüyünə qəsd edilən və bir milyon qaçqın-köçkünü olan ölkə barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına ilk dəfə ulu öndərimiz Heydər Əliyevin gərgin səyi nəticəsində nail olunmuşdur. Onun bu vətənpərvər və şərəfli işini Heydər Əliyev Fondu da davam etdirir.

Fondun ən uğurlu layihələrindən hesab edilən "Qarabağ həqiqətləri" silsiləsi buna bariz nümunədir. Beynəlxalq ictimaiyyətə ünvanlanan və ingilis dilində nəşr edilən, xaricdəki diplomatik nümayəndəliklərimiz, diaspor təşkilatlarımız və digər kanallarla bütün dünyaya yayılmış "Qarabağ həqiqətləri" toplusu "Qarabağın tarixi haqqında məlumat", "Qarabağ münaqişəsinin başlanması", "Xocalı soyqırımı", "Azərbaycana qarşı erməni təcavüzünün nəticələri", "Erməni terror təşkilatlarının Azərbaycana qarşı fəaliyyəti" kitabçalarından ibarətdir. Bu silsilənin fransız, alman, ərəb və rus dillərində nəşri də nəzərdə tutulur. Qarabağın daha qədim tarixini əks etdirəcək ikinci toplu da hazırlanır. Burada Qafqaz Albaniyasından başlayaraq Azərbaycan SSR-yədək dövrdə Qarabağın tarixi öz əksini tapacaqdır. Azərbaycan, o cümlədən Qarabağ həqiqətlərinin yayılması sahəsində növbəti addım Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun mütəxəssisləri ilə birgə "Pirlər və müharibə" kitabının hazırlanmasıdır. Kitabda Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində - Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli və digər rayonlarda düşmən tapdağı altında qalan ziyarətgahlar, dağıdılmış tarixi memarlıq abidələri, pirlər haqqında ətraflı məlumatlar veriləcəkdir. Ötən ildən başlayaraq Heydər Əliyev Fondu Azərbaycan oxucusu üçün əhəmiyyətli sayıla biləcək bir sıra xarici nəşrlərin dilimizə tərcümə edilib çap olunması üzərində işləyir. Türkçülük, azərbaycançılıq məfkurəsinin təbliği sahəsində dəyərli nəşrlərdən biri olan Murad Adcinin "Türklər və dünya: munis tariximiz" adlı kitabı dilimizə çevrilib nəşr edilmişdir. Amerika Birləşmiş Ştatlarının Mərkəzi Asiya-Qafqaz İnstitutunun İpək Yolu Araşdırmalar Proqramı çərçivəsində S.Frederik Starr və Svant E.Kornellin "Bakı-Tbilisi-Ceyhan boru kəməri: Qərbə açılan neft pəncərəsi" kitabının Azərbaycan dilinə tərcüməsi və redaktə işləri artıq başa çatmışdır. Bu kitabda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Azərbaycan Respublikası üçün iqtisadi, geostrateji əhəmiyyətindən, habelə kəmərin ətraf mühit və sosial məsə-

lələrlə bağlı aspektlərindən bəhs olunur. Fondun birgə layihələr çərçivəsində Azərbaycan dilində çap etdirdiyi xarici nəşrlərdən biri də Linda Li Rattonun "Yuxuların çin olduğu yerdə" kitabıdır. Onun nəşrindən məqsəd fiziki cəhətdən qüsurlu uşaqların cəmiyyətdə bərabərhüquqlu üzv kimi qəbul olunmasına kömək etməkdir.

Heydər Əliyev Fondu orduda xidmət edən gənclərimizin hərbi hazırlığına və bu sahədə maarifləndirilməsinə töhfə olaraq, "Hərbçinin qeyd-yaddaş kitabçası" və "Hərbi and" qəzetinin nəşrini də həyata keçirmişdir.

Fondun yarandığı vaxtdan ötən iki ildə onun fəaliyyətini əks etdirən nəfis tərtibatlı iki kitab, - sonuncu həm də ingilis dilində, - nəşr edilmişdir. Heydər Əliyev Fondunun nəşr etdirdiyi 2005-ci və 2006-cı il təqvimlərində ulu öndərin ayrı-ayrı tarixi günlər, bayramlar haqqında dəyərli sözləri, müdrik kəlamları, ibrətamiz fikirləri verilmişdir. Nəfis tərtibatlı bu təqvimlər təmənnasız olaraq dövlət qurumlarına və ictimai təşkilatlara, təhsil, səhiyyə, mədəniyyət obyektlərinə paylanmışdır.

Heydər Əliyev Fondu informasiya-kommunikasiya texnologiyaları ilə bağlı layihələrin həyata keçirilməsinə də xüsusi əhəmiyyət verir.

Ötən il Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə respublikanın internet məkanında məlumat bazasının zənginliyinə görə analoqu olmayan "Azərbaycan" portalı yaradıldı. İdeyanı həyata keçirmək məqsədi ilə yüksək ixtisaslı mütəxəssislərdən təşkil edilən işçi qrupu ilkin mərhələlərlə müvafiq təşkilatların dəstəyi ilə geniş məlumat bazası yaratdı. Qısa müddət ərzində əldə edilən zəruri məlumatlar portalın müvafiq bölmələrində yerləşdirildi.

Dünyanın 100-dən artıq ölkəsində 1 milyarddan çox istifadəçinin qoşula bildiyi internet məkanında yer alan portalda məlumatlar üç dildə təqdim olunur. Portalın ünvanına müxtəlif ölkələrdən gələn minnətdarlıq məktubları sübut edir ki, belə yanaşma istifadəçilərin





coğrafiyasının geniş olmasına imkan yaradır. Yaxın gələcəkdə portalın fransız və alman versiyaları da təqdim ediləcəkdir. Portal 12 bölmədən ibarətdir: "Xəbərlər", "Ümumi məlumat", "Təbiət", "Tarix", "İqtisadiyyat", "Mədəniyyət", "Cəmiyyət", "Dövlət hakimiyyəti", "Azərbaycan beynəlxalq aləmdə, "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi", "İnzibati ərazi vahidləri" və "Xəritələr". Hər bir bölmə bir neçə hissədən ibarətdir və burada toplanmış konkret məlumatlar bütövlükdə Azərbaycanla bağlı istənilən mövzuda informasiya əldə etməyə imkan verir. Respublikamızın hər bir rayonu haqqında verilən ətraflı məlumat xarici iş adamlarının bölgələrə marağının artması və ölkəmizdə turizmin inkişafı baxımından faydalı informasiya yükü daşıyır.

Ermənilərin güclü təbliğat maşınının yaydığı yalanları ifşa etmək, əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq üçün "Azərbaycan" portalında yaradılan bölmədə Qarabağın tarixi, Dağlıq Qarabağ problemi və erməni məsələsi, Azərbaycana qarşı erməni təcavüzü, Xocalı soyqırımı, humanitar fəlakət, erməni terrorizmi, Azərbaycan ərazilərinin işğalının ağır nəticələri haqqında məlumat toplanmış, tarixi sənədlər verilmişdir. "Xəbərlər" bölməsinin təqvim arxivi yaradılmışdır ki, onun da köməyi ilə günün istənilən məlumatı ilə tanış olmaq mümkündür. İstifadəçilərin işçi qrupuna göndərdiyi irad və təkliflər diqqətlə araşdırılır. Portalın müxtəlif brauzerlərə adaptasiyası həyata keçirilmişdir. Hazırda portalda "Qonaq kitabı" və respublikamızın həyatındakı aktual məsələləri müzakirə etmək üçün "Səsvermə" və "Forum" sistemləri yaradılır. Portal haqqında istifadəçilərin fikirləri "Rəylər" bölməsində yerləşdirilmişdir. Təqdimat mərasimi 2005-ci ildə keçirilən "Azərbaycan" internet portalı "Azərbaycan Elektron kontent-2005 mükafatı" milli müsabiqəsində E-cəlbetmə nominasiyası üzrə qalib gəlmişdir.

Bunlar Fondun gördüyü işlərin hamısı deyildir. Heydər Əliyev

Fondunun hazırlanmaqda olan, nəzərdə tutulan xeyli digər layihələri, geniş proqramları da vardır.

Fondun prezidenti Mehriban xanımın 2004-cü ilin avqustundan YUNESKO-nun xoşməramlı səfiri kimi fəaliyyəti də xalqımız, dövlətimiz üçün, sözün əsl mənasında, dəyərli, faydalı olmuşdur. Qeyri-maddi irsin qorunması sahəsində YUNESKO ilə Azərbaycanın əməkdaşlığı xüsusilə əhəmiyyətlidir. YUNESKO Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. İçərişəhər, Qız qalası isə çox nadir memarlıq incisi kimi dünyanın mədəni irsi siyahısına salınmışdır. Orta əsrlərdə yaşamış alimlərin Azərbaycanda saxlanılan əlyazmalarından xüsusi əhəmiyyət daşıyan 3-ü Mehriban xanımın səyi ilə 2005-ci ildə YUNESKO tərəfindən Dünya Yaddaşı Proqramının beynəlxalq registrinə daxil edilmişdir.

YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın ötən ilin avqust ayında ölkəmizə rəsmi səfəri də Azərbaycanın bu təşkilatla əməkdaşlığının yüksək səviyyəsinin göstəricisi hesab oluna bilər. Cənab Matsuura ilə Azərbaycana YUNESKO-nun xoşməramlı səfirlərinin bir qrupu da gəlmiş, onlar İçərişəhərdə, Qobustanda, Atəşgahda olmuşdular. Beynəlxalq praktikada ilk dəfə olaraq, YUNESKO ilə Azərbaycan Respublikası arasında təhsil sahəsində əməkdaşlığa dair konfrans keçirilmiş, memorandum imzalanmışdır. Azərbaycan Prezidenti İlham Əliyevilə YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın imzaladıqları rəsmi məlumat isə bu nüfuzlu qurumla hərtərəfli əməkdaşlıq üçün geniş zəmin yaratdı.

Dünyanın ən mötəbər təşkilatlarından olan YUNESKO-nun xətti ilə keçirilən tədbirlərdə Mehriban xanım Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarındakı abidələrin taleyi, milli mədəniyyətimizin tanıdılması ilə bağlı çıxışlar etmişdir. Onun fəaliyyətinin nəticəsi olaraq muğam sənəti, aşıq yaradıcılığı, Novruz bayramı ayinləri indi





dünyada milli mədəniyyətimizin inciləri kimi tanınır. Mehriban xanım təsisçisi olduğu "Azərbaycan İRS" jurnalının nəşri ilə də Azərbaycan tarixinin, mədəniyyətinin öyrənilməsi və təbliğində, xüsusən Rusiya və digər MDV ölkələrinin rusdilli əhalisinə Azərbaycan həqiqətlərinin çatdırılmasında böyük, təqdirəlayiq iş görür.

Azərbaycan Gimnastika Fedrasiyasiyasının prezidenti Mehriban xanım Əliyevanın təşəbüskarlığı, təşkilatçılığı ilə ötən il oktyabrın 3-də Bakıda bədii gimnastika üzrə XXVII dünya çempionatı keçirildi. Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandinin başçılığı ilə nümayəndə heyəti paytaxtımızın idman obyektlərinə baxdılar, ölkədə idmanın inkişaf səviyyəsini gördülər. Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev nümayəndə heyətini qəbul etdi. Milli Olimpiya Komitəsindəki bu görüş zamanı nəinki Bakını dünya çempionatını keçirməyə namizədliyi təsdiqləndi, həm də ölkəmiz eyni dərəcədə nüfuzlu bir turniri - Dünya kubokunun mərhələ yarışını keçirmək təklifi də aldı və həmin yarış böyük müvəffəqiyyətlə baş tutdu. Dünya kuboku uğrunda yarış da yüksək səviyyədə keçdi və həm ölkə daxilində, həm də xaricdə müsbət qiymətləndirildi. Bu, Azərbaycanda keçirilən ilk dünya çempionatı oldu. Çempionatda 47 ölkənin 140-dan çox idmançısı iştirak etdi. Onların hamısı planetin ən adlı-sanlı gimnastları, Olimpiya oyunlarının, Avropa və dünya birinciliklərinin qalibləri və mükafatçıları idi. Bədii gimnastika idmanla incəsənətin qovuşuğudur və idmanın bu nadir, ən zərif növü indi respublikamızda öz intibah dövrünü yaşayır. Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın seçkiqabağı təbliğat, təşviqat kanpaniyasının, səsvermə gününün və ondan sonrakı bütün görüşlərinin iştirakçısı olaraq deyə bilərəm: 14 saylı Əzizbəyov seçki dairəsindən Milli Məclisə deputatlığa namizəd kimi Mehriban xanımın seçicilərə, onların şəxsiyyətinə, hər birinin səsinə hörməti, bu siyasi kanpanyaya hazırlıq və onun keçirilməsi, onlara səmimiyyətlə ünvan-

ladığı müraciət məktubu nadir bir məsuliyyət nümunəsi, yanaşma idi. Mehriban xanımın ən yüksək, rekord seçici səsi ilə parlamentə seçilməsi, deputat kimi fəaliyyəti özünə, öz gücünə inamın, insanların etimadını qazanmağın nadir nümunəsi, əsl örnək hesab edilə bilər. Onun bu missiyasında əvvəldən ictimai-siyasi fəallıq, dediyi sözün, verdiyi vədin hər birinin arxasında dayanması, bunların reallaşması üçün göstərdiyi dönməz iradə və istək olduqca ürəkaçan idi. Elə bir qəsəbə olmadı ki, Mehriban xanım orada sakinlərlə görüşməsin. İnsanları qayğılandıran problemlər öyrənildi, sistemləşdirildi, sosial məsələlərin həlli üçün ilk növbədə hansı infrastrukturların vacibliyi, onların tikilib istifadəyə veriləcəyi yer, vaxt müəyyənləşdirilirdi. Budur, son iki ildə Əzizbəyov rayonunda nə qədər məktəb, uşaq bağçaları, xəstəxana, bulaq, istirahət və mədəniyyət parkı, idman meydançaları, yardımçı elektrik stansiyaları tikildi, təmir olundu, qaz kəmərləri çəkildi, məscidlər abadlaşdırıldı, layiq olduğu görkəmi aldı, bərbad yollar asfaltlaşdırıldı. Mehriban xanımın təşəbbüsü ilə "Əzizbəyov rayonunun inkişaf Fondu" yaradıldı, onun nümayəndəliyi açıldı. Yeni təhsil, səhiyyə, mədəniyyət obyektlərinin açılış, təməlqoyma mərasimləri hər dəfə əsl toy-bayrama çevrildi, sakinlər uzun illərdən bəri yığılıb qalan problemlərin qısa vaxtda həll edildiyini gördükcə, həm də dövlətin gücünə, imkanlarına inamları artırdı. Hər görüşdə adamların dilindən bu sözlər eşidilirdi:

- Mehriban xanım bizim qəsəbənin fəxri sakinidir, hər bir ailənin sevimlisidir. Fəxr edirik ki, o, bizim deputatımızdır.

Hətta, xarici mətbuat səhifələrində də Mehriban xanıma sadə insanların xüsusi hörmət bəsləməsi barədə dəfələrlə yazılmışdır. Türkiyədə çıxan "Hürriyyət" qəzetinin 2005-ci ilin 13 noyabr nömrəsində çap edilmiş "Təmiz bir örnək" məqaləsinin əsas motivi belə idi: "Xalq onu çox sevir, onun gözəl və ağıllı qadın kimi çox müsbət imici var".





Bunlar isə Mehriban xanımın jurnalistlərlə qısa söhbətlərindən sətirlərdir. "...İnsan doğularkən verilən ad onun bütün taleyinə təsir göstərir. Deyə bilmərəm, bu nəzəriyyə real həyatda özünü nə dərəcədə doğruldur, amma yaxşılıq, mərhəmət kimi anlayışlar mənim üçün, həqiqətən, ümdə anlayışlardır... Hər zaman öz fəaliyyətimdə çalışmışam ki, bir neçə amala əsaslanım. Bunlar vətənpərvərlik, insansevərlik və mərhəmətdir... Ömür boyu mənim həyat amalım belə olmuşdur ki, etmək istədiyin yaxşılığı heç vəchlə gözə çarpdırmaq olmaz. İndi mən bundan, təəssüf ki, məhrumam. İstər YUNESKO-nun xoşməramlı səfiri kimi mənə ehtiyac olduğunu hiss edirəm. Mənim adıma hər gün 200-dən çox məktub gəlir. Onların heç biri diqqətsiz qalmır. Mən konkret iş görmək istəyirəm. Konkret problemləri həll edə, yardım edə bildikdə sevinc hissi keçirmək və səndən asılı olmayan səbəblər üzündən nə isə edə bilmədikdə təəssüflənmək, qəzavü-qədər, sağalmaz xəstəlik qarşısında bütün gücsüzlüyümü dərk edərkən əziyyət çəkmək, xilas edilmiş bir uşağın təbəssümünü gördükdə isə ... daha sevinmək istəyirəm. Bu, mənim seçimimdir".

*"Xalq qəzeti",*
***20 avqust 2006-cı il***

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ XANIMI MEHRİBAN ƏLİYEVANIN SLOVENİYAYA RƏSMİ SƏFƏRİ

## LYUBLYANA ŞƏHƏR MERİYASINDA GÖRÜŞ

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ÇIXIŞI

Avqustun 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lyublyana şəhər meriyasının binasına gəlmişdir.

Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Lyublyana şəhərinin meri xanım Danika Simşiç böyük hörmət və ehtiramla qarşıladı. Meriya binasının önündə dövlətimizin başçısının təntənəli qarşılanma mərasimi oldu, Lyublyana şəhərinin himni səsləndi. Xanım Danika Simşiç meriyanın əməkdaşlarını Azərbaycan Prezidentinə təqdim etdi.

Sonra Meriyanın binasında görüş keçirildi. Danika Simşiç ali qonağı və onun xanımını salamlamaqdan çox şad olduğunu bildirdi. O, Avropanın qədim şəhərlərindən olan Lyublyananın tarixi abidələrinin bərpası üçün görülən işlərdən danışdı, bir çox ölkələrin paytaxtları ilə əməkdaşlıq etdiklərini vurğuladı.

Xanım Danika Simşiç Bakı ilə də əlaqələrin yaradılmasında maraqlı olduqlarını bildirərək dedi ki, Azərbaycanın paytaxtı barədə müəyyən məlumatım var. Ancaq çox xoş və maraqlı olardı ki, mən qədim neft diyarı Azərbaycanın paytaxtı Bakı şəhəri ilə yaxından tanış olum.





Mer onu da bildirdi ki, Avropa İttifaqının üzvü olan 25 ölkənin paytaxtları rəhbərlərinin toplantısı bu yaxınlarda məhz Lyublyanada keçiriləcəkdir.

Prezident İlham Əliyev görüşdə çıxış etdi.

- Hörmətli xanım mer!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Sizin gözəl şəhərinizdə olmağımdan çox böyük məmnunluq hissi keçirirəm. Mən artıq iki gündür ki, Sloveniyadayam, Lyublyana şəhərindəyəm. Hələ şəhərlə çox yaxından tanış ola bilməsəm də, maşında gedərkən binalara baxanda görürəm ki, çox gözəl şəhərdir. Çoxlu tarixi binalar var və onlar çox yüksək səviyyədə qorunur. Bu gün isə mən şəhərlə yaxından tanış olacağam və əminəm ki, ilkin gözəl təəssürat daha da möhkəmlənəcəkdir.

Sizin şəhəriniz çox böyük və qədim tarixə malikdir. Tarixi abidələri qoruyub saxlamaq və onları bərpa etmək, əlbəttə ki, sizin öz doğma tarixinizə olan münasibətdən irəli gəlir. Burada həm çox gözəl və zəngin təbiət mövcuddur, eyni zamanda, gözəl tarixi binalar Lyublyananın özünəməxsus simasını əks etdirir. Bütövlükdə Sloveniyanın son illər ərzində əldə etdiyi uğurlar bir dost kimi məni çox sevindirir. Ölkəniz bütün sahələrdə, o cümlədən həm siyasi, həm də iqtisadi cəhətdən çox sürətlə inkişaf edir. Təsadüfi deyil ki, Avropa İttifaqının ən yüksək mükafatı məhz Lyublyana şəhərinə verilmişdir.

Hörmətli xanım mer, bu fürsətdən istifadə edib sizi Bakıya dəvət edirəm. Güman edirəm ki, Bakı ilə tanışlığınız sizdə də çox gözəl təəssüratlar yaradacaq və bizim şəhərlərimiz bir-biri ilə əməkdaşlıq edəcəkdir. Mən artıq ikinci gündür ki, Lyublyanadayam. Sabah da burada olacağam və deyə bilərəm ki, ilk dəqiqələrdən çox böyük qonaqpərvərliklə üzləşmişəm. Mən və bizim bütün nümayəndə heyəti-

miz burada özümüzü çox yaxşı hiss edirik. Bu qonaqpərvərliyə görə sizə və bütün sloveniyalı dostlarımıza öz minnətdarlığımı bildirirəm. Sağ olun.

***

Səfərə dəvətə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirən xanım Danika Simşiç Mehriban xanım Əliyevaya gül dəstəsi, Prezident İlham Əliyevə xatirə olaraq üzərində Lyublyananın rəmzi olan hədiyyə təqdim etdi.

Prezident İlham Əliyev fəxri qonaqlar kitabını imzaladı.

*"Xalq qəzeti",*
***30 avqust 2006-cı il***





# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SOLVENİYA PARLAMENTİNDƏ OLMUŞDUR

Azərbaycan Respaublikasının Prezidenti İlham Əliyev Sloveniyaya rəsmi səfəri çərçivəsində avqustun 29-da bu ölkənin parlamentinə - Milli Assambleyaya gəlmişdir.

Burada dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Parlament sədrinin müavini Saşo Peçe böyük hörmət və ehtiramla qarşıladı. Azərbaycan prezidenti İlham Əliyev Milli Assambleyanın fəxri qonaqlar kitabını imzaladı.

Sonra Prezident İlham Əliyev parlament sədrinin müavini Saşo Peçenin görüşü oldu. Söhbət zamanı ölkəmiz arasında siyasi, iqtisadi sahələrdə olduğu kimi, parlamentlərarası əlaqələrin genişləndirilməsinin də vacibliyi vurğulandı. Azərbaycanın dövlət başçısının Sloveniyaya ilk rəsimi səfərinə bu ölkədə çox böyük əhəmiyyət verdiyini bildirən Saşo Peçe bu səfəri ikitərəfli münasibətlərin inkişafında çox mühüm mərhələ kimi dəyərləndirdi.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV POSTOYNA MAĞARASI İLƏ TANIŞ OLMUŞDUR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Solveniyanın paytaxtı Lyublyana şəhərindən 45 kilometr aralıda yerləşən Postoyna şəhərinə gəlmişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva burada qədim Postoyna mağarası (Postoynska-yama) ilə tanış oldular. Turizm obyekti kimi dünyada məşhur olan mağaranın menecer-direktoru Peter Şteqin Dövlətimizin başçısını və xanımını böyük səmimiyyətlə qarşıladı.

Azərbaycan Prezdentinə məlumat verildi ki, mağaranın 190-160 min il tarixi var. Kaha və qalereyalardan ibarət mürəkkəb sistem təşkil edən bu karst mağarasının uzunluğu təxminən 23 kilometrdir. 1818-ci ildə mağaranın qədim hissəsi yerli sakin Luka Çeç tərəfindən açılmışdır. Buraya 1872-ci ildə yeraltı dəmir yolu çəkilmişdir. Postoyna mağarası tavandan sızan su damcılarının əmələ gətirdiyi stalaktit və stalaqmitlərin gözəlliyi ilə dünyada məşhurdur. Təbiətin nadir əsəri olan bu mağaraya 1980-cı illərə qədər ildə təxminən 900 min nəfər turist gəlirdi. Sloveniya 1991-ci ildə müstəqillik qazandıqdan sonra bu rəqəm 300-400 min təşkil edir. Turist marşurutunun uzunluğu 5,2 kilometrdir. Mağarada qədim alətlər aşkar edən arxeoloqların fikrincə, burada 50 min il əvvəl ibtidai ovçular yaşamışdır. Mağarada havanın hərarəti ilin bütün fəsillərində müsbət 10 dərəcədən çox olmur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva bu böyük





“Kalvario dağı”na, “Gözəl dağ”a və yüksək akkustikası olan konfrans zalına maraqla tamaşa etdilər. Zalın tavanının hündürlüyü 40 metr, sahəsi 3 min kvadratmetrdir. Burada 10 min nəfər yerləşə bilər.

Prezident İlham Əliyev və xanımı 100 ildən bəri burada xüsusi hovuzda yaşayan “İnsan balığa” da maraqla tamaşa etdilər.

Dövlətimizin başçısı və xanımı 15-20 metr dərinlikdən axan Pivka çayına (bu çay 800 metr məsafədə mağaradan keçir) və yeraltı su kanallarına da maraqla tamaşa etdilər, kiçik dəmir yol vaqonunda mağaranı gəzdilər.

***"Xalq qəzeti",***
***30 avqust 2006-cı il***

**İradə HÜSEYNOVA,**
**Azərbaycan Respublikası təhsil nazirinin müavini, tarix elmləri doktoru, professor**

# AZƏRBAYCANDA ADƏT-ƏNƏNƏLƏRİN VƏ STEROTİPLƏRİN GENDER BƏRABƏRLİYİNƏ TƏSİRİ

Azərbaycan Respublikasının BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasına qoşulmasından (10 iyul 1995-ci il) artıq on bir il keçir. Keçən müddətdə həm bu Konvensiyanın tələblərinin, həm də 2000-ci il iyunun 6-da Azərbaycan Respublikasının imzaladığı BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvesiyasının 16 fevral 2001-ci il tarixindən qüvvəyə minmiş fakültətiv protokolunun prinsiplərinə əməl edilməsi və bu sahədə görülən işlər barədə 1996-cı ildən 2004-cü ilədək olan dövrü əhatə edən Milli Hesabat hazırlanmışdır. Bəri başdan deyək ki, hesabat bu sahədə beynəlxalq standartlara tam cavab verir. Hesabatda Azərbaycan Respublikasında qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi və gender bərabərliyi problemləri sahəsində ölkəmizdə hökumət və qeyri-hökumət təşkilatlarının məqsədyönlü fəaliyyəti sistem halında, analitik səviyyədə ümumiləşdirilmiş, bu sahə üzrə aydın mənzərə yaradılmışdır.





Azərbaycan Respublikasında milli adət-ənənələr və stereotiplərin gender bərabərliyinə təsirinin müasir problemlərinə toxunmazdan qabaq bir qədər tarixə ekskurs etmək, qədimdən Azərbaycanda qadının statusuna, roluna qısaca toxunmaq istərdik. Aydın məsələdir ki, milli adət-ənənələr xalqın tarixi qədər qədimdir. Azərbaycan xalqının adət-ənənələrinin, milli mentalitetinin Ana kitabı sayılan "Kitabi-Dədə Qorqud" eposunda qədim azərbaycanlıların, qadına, anaya münasibəti "Ana haqqı-Tanrı haqqıdır" milli modeli müstəvisində qurulub, qadın cəmiyyətdə ucalıq, müqəddəslik, ehtiram, hörmət simvolu kimi qəbul edilib. Eposda iştirak edən qadınlar, qızlar kişilərlə bərabər ovda, savaşda, ziyafətlərdə iştirak edir, istədiyi oğlana könül verib, könül alır, onun həqiqi silahdaşına çevrilir. Eyni mənzərəni qədim türklərdə də görürük. Əski türklərdə kişi - qadın ayrı-seçkiliyi olmadığı və qadın kişinin tamamlayıcısı kimi qəbul edildiyindən qadınsız heç bir iş görülməzdi...

Bu tarixi məqamlar göstərir ki, qədim Azərbaycanda adət-ənənələr mahiyyət etibarı ilə cəmiyyətdə qadına heç də bir çox Qərb sosioloqlarının düşündüyü kimi despotik münasibətdə olmayıb. Qadın əslində haqqı, hüququ Tanrı ilə bərabər tutulan müqəddəs varlıq, cəmiyyətdə aparıcı mövqeyi olan insan kimi dəyərləndirilib. Əlbəttə, İslam dinində xatırlanan "Cənnət ananın (qadının) ayaqları altındadır" formulunun Azərbaycan xalqının mentalitetinin, əxlaq və davranışının ali prinsipinə çevrilməsində, heç şübhəsiz, qədim azərbaycanlıların təfəkküründə əsrlərlə formalaşmış "Ana haqqı - Tanrı haqqıdır" modeli də əhəmiyyətli rol oynayıb.

Lakin orta əsrlərdə dini, sinfi, sosial, mədəni amillərin təsiri altında qadınlara münasibətdə ayrı-seçkilik meylləri güclənsə də, XIX əsrin II yarısından başlayaraq qadın təhsilinə şərait yaradılması Azərbaycanda qadın hərəkatına stimul olmuş, XX əsrin əvvəllərində ana dilində qadınlar üçün milli təhsil müəssisələrinin yaranmasına və öl-

kədə azərbaycanlı qadınların dünyəvi təhsilə cəlb olunmasına şərait yaratmışdır. XIX əsrin II yarısı və XX əsrin əvvəllərində yaranan mədəni-maarifçilik cəmiyyətləri də ölkəmizdə qadın təhsilinin formalaşmasında müəyyən rol oynamış, Azərbaycan mesenatlarının qadın təhsilinə böyük önəm vermələri, bu yolda milli adət-ənənəni və dini ehkamları əsas tutan mühafizəkarlara qarşı mübarizəsi sonralar qadına münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində hərəkatın inkişafına güclü təkan verdi.

Xatırlatmaq yerinə düşər ki, XX əsrin əvvəllərində (7 oktyabr 1901-ci il) "Anası savadsız olan xalq kordur" deyən böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə açılan ilk müsəlman-türk qız məktəbini o zaman görən böyük publisist Ömər Faiq Namanzadə demişdi: "H.Z.Tağıyevin açdığı Qız Məktəbini görməsəydim, Bakının türk (Azərbaycan) maarifi üzərinə qara bir cızıq çəkərdim. Bakıda, doğrudan da, bir möcüzə sayılan bu maarif ocağından başqa, üz ağardan bir şey yox idi". Doğrudan da, ilk qız məktəbindən sonra Azərbaycanın bir çox şəhərlərində bu tipli qız məktəbləri yarandı, qadınlar arasında savadlılıq səviyyəsi artdı.

Qadına münasibətdə ayrı-seçkiliyin dövlət səviyyəsində aradan qaldırılmasında milli tariximizin qızıl səhifəsi sayılan Azərbaycan Xalq Cümhuriyyəti müstəsna rol oynadı. Bu hökumət mövcud olduğu 23 ay ərzində həyata keçirdiyi saysız-hesabsız müsbət işlər sırasında qadınlara münasibətdə ayrı-seçkiliyin təməlində duran əsas məsələni - qadınların seçmək və seçilmək hüququnu tanıdı, kişilərlə bərabər qadınlara da seçib-seçilmək hüququ verdi. Müqayisə üçün deyək ki, XX əsrdə dünyada qadınlar ilk dəfə ümumdövlət seçkilərində iştirak etmək üçün fəal seçki hüquqlarının verilməsi praktikasının tarixi təhlili göstərir ki, Azərbaycan Respublikası bu sahədə dünyada öncül dövlətlərdən biridir. BMT-nin məlumatlarına görə, XX əsrdə qadınlara seçib-seçilmək hüququ verən 73 dövlət arasında Azərbay-





can Respublikası 8-ci yerdə durur. İftixar edilməli tarixi həqiqətdir ki, bu baxımdan Azərbaycan dünyanın inkişaf etmiş ABŞ, Almaniya, Fransa kimi dövlətlərindən, həmçinin də Şərq ölkələrinin hamısından qabaq qadınlara seçmək və seçilmək hüququ verib.

Bu da tarixi həqiqətdir ki, XX əsr Azərbaycan qadınının həyatında çox önəmli, sıçrayışlı inkişaf dövrü olub. Əsrin əvvələrində Azərbaycanda baş verən siyasi-ictimai proseslər, neft sənayesinin sürətli inkişafı, milli azadlıq və maarifçilik hərəkatı qadınların təhsillənməsinə, onların dünyəvi təhsilə fəal cəlb olunmasına və ictimai həyata qoşulmasına güclü təkan verib. 1918-1920-ci illərdə milli hökumətin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan qadınlarına qarşı ayrı-seçkiliyin aradan qaldırılmasını və qadınların hərtərəfli inkişafı üçün geniş üfüqlər açıldı. Sovet hakimiyyətinin ilk iki onilliyi dövründə (1920-30-cu illərdə) qadınlar arasında savadsızlığı aradan qaldırmaq uğrunda mübarizə qadınlar üçün xüsusi ali təhsil müəssisəsinin yaradılması ilə nəticələndi. Qadınlar tezliklə ictimai-siyasi və mədəni həyatın fəal üzvlərinə çevrildilər.

Sözün həqiqi mənasında qadınlar azadlığa qovuşdular. Qadın hərəkatının yekunu Bakıda simvolik "Azad qadın" heykəli ilə rəsmiləşdi. Böyük öndərimiz Heydər Əliyevin təbirincə desək, "XX əsrdə Azərbaycan qadınının keçdiyi yol, əldə etdiyi nailiyyətlər, həqiqətən, dünya miqyasında bizim üçün iftixar mənbəyinə çevrilmişdir. Azərbaycan qadını çadranı atmış, sərbəst yaşamaq imkanı əldə etmiş, bütün sahələrdə bərabər hüquqlar qazanmış, özünün daxili potensialından səmimiyyətə, xalqına xidmət etmək üçün istifadə etmişdir. İndi biz hədsiz iftixar hissi ilə deyə bilərik ki, cəmiyyətimizin hər bir sahəsində qadınlar böyük rol oynayırlar".

XX əsrin sonunda yenidən müstəqilliyini bərpa etmiş Azərbaycanda qadınlar demokratik, hüquqi, sivil, dünyəvi dövlət quruculuğunda fəal iştirak edir, sosial-siyasi və mədəni həyatımızın bütün sahələ-

rində geniş fəaliyfət göstərirlər. İftixar etməli haldır ki, bu gün Azərbaycan qadınının səsi dünyanın ən mötəbər kürsülərindən gəlir. Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasında zərif cinsin nümayəndələri də öz sözünü deyir. Müstəqil Azərbaycan dövləti qadınların inkişafı üçün beynəlxalq və milli konteksdə dünya standartlarına uyğun hər şeyi edir və gender probleminin məhz beynəlxalq hüquq normaları əsasında qurulmasını dövlət siyasətinin üstün istiqamətlərindən biri hesab edir.

Azərbaycan Respublikasında BMT-nin "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyasından irəli gələn vəzifələr sahəsində dövlət siyasətini yeritmək məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, bu sahədə görülən işlərə dair artıq 3-cü hesabat hazırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə bu il həmin komitə "Ana, Uşaq və Dövlət Komitəsi" adı altında yenidən təşkil edilmişdir.

Azərbaycan hərbi zorakılıq yolu ilə sovetləşdirildikdən sonra ənənəvi mədəniyyətdə əhəmiyyətli dəyişikliklər baş vermişdi. Qadınlara əvvəllər yalnız kişilərə aid edilən bütün hüquqlar de-yure verilmişdi, onlar iqtisadi və ictimai həyata qoşulmuşdular.De-fakto isə qadınlar hələ də ənənəvi mədəni münasibətlərin, adət-ənənələrin əsiri olaraq qalırdılar. Çünki dövlət işləyən qadınları ailə və ev işlərinin icrasından, tərbiyə öhdəliklərindən azad etməyib qadınların bu fəaliyyətini maddi cəhətdən stimullaşdırmışdı.

Qadın ailədə və cəmiyyətdə "ikinci" cins olaraq qalırdı, dövlət idarəçiliyində isə əsas söz sahibi kişilər idi. Başqa sözlə, sosializm cəmiyyətinin özü cinslərin sosial rollarını bir-birindən dəqiq ayıran ənənəvi mədəniyyət kimi çıxış edirdi. Buna görə də cəmiyyətdə "ikili ənənəvi" adətlərin təsir göstərməsi, cinslərin rolları və davranışları ilə bağlı müəyyən stereotiplər formalaşmışdı. Bu stereotiplər bu gün də





qadınların cəmiyyətdə irəliləməsinə mane olaraq mənfi təsirini göstərir və müasir həyatımızda qalmaqda davam edir.

Azərbaycanda ənənəvi dini adətlər təəssüf ki, kişi və qadın arasında hüquq bərabərliyinin təsdiqinə yardım etmir. Hesab edirik ki, bu stereotip şəriətin eyni qanun və ənənələrinin yalnız şərhindən irəli gəlir. Ənənəvi adətlərə görə, kişinin rolu çox zaman qərar qəbul etmək və pul qazanmaqdan ibarətdir. Qadından şəfqət, yumşaqlıq, itaətkarlıq tələb olunur. Onun maraqları isə yalnız ailə və ev işləri ilə məhdudlaşmamalıdır.Bu davranış modelindən bizim mədəniyyətdə gender roluna uyğun hesab edilən istənilən uzaqlaşma çox zaman cəmiyyət tərəfindən məzəmmətlə qarşılanır. Sözsüz, bu mənada cəmiyyətimizdəki stereotip təsəvvürlərin qarşısını almaq üçün kompleks gender siyasəti həyata keçirilmişdir.

İstər sovet dövründə, istərsə də müstəqillik illərində istehsalatda baş verən dəyişikliklərə uyğun olaraq, "kişi" və "qadın" işlərinin ənənəvi təsnifatında böyük dəyişiklik baş verib. "Nüfuzlu iş" anlayışı dəyişmişdir - indi bu, daha geniş səlahiyyətlər verən, maddi resurslar gətirən iş hesab edilir. Bu gün təhsil sistemi kişilər üçün "nüfuzsuz" hesab edilir, bu sahədə onların payına 30 faizdən az düşür. Eyni vəziyyət səhiyyə sahəsində də müşahidə edilir. Halbuki hər iki sahədə əksər rəhbər vəzifələri kişilər tutmuşlar. Belə ki, ümumtəhsil məktəbləri sistemində direktorların 17 faizini qadınlar, 83 faizini isə kişilər təşkil edir. Texniki-peşə təhsil müəssisələrində məktəb direktorunun 7 faizini qadınlar, 93 faizini kişilər, orta ixtisas məktəblərində direktorların 5 faizini qadınlar və 95 faizini kişilər, ali təhsil ocaqlarında rektorların 4 faizini qadınlar, 96 faizini kişilər təşkil edir. Təhsil sistemində təhsil alanların təxminən yarısını qadınlar (qızlar) təşkil edirlər.

Kişi və qadınlara aid stereotipləri aradan qaldırmaq üçün qanunvericilikdə və praktikada bir sıra tədbirlər görülməlidir. Bu gün Azər-

baycan dövləti qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi və onlara ümumi hüquq və azadlıqların verilməsi istiqamətində praktik olaraq bütün beynəlxalq konvensiyalara imza atmışdır. Bu sahədə bütün əsas müddəalar ölkə konstitusiyasında təsbit olunmuş, bu istiqamətdə dövlət siyasətini yeridən Ana, Uşaq və Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, siyasi, sosial həyatda qadınların rolunun artırılmasına dair Prezident fərmanları verilmiş, ölkənin gender bərabərliyi sahəsində siyasətinin hüquqi-normativ bazası yaradılmışdır.

İftixar hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyev böyük cəsarət və iradə nümayiş etdirərək milli mənafelərin və adət-ənənələrin, ümumbəşəri dəyərlərin qorunması uğrunda əzmlə çalışır. Millət vəkili, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva Heydər Əliyev siyasi irsinin fundamental prinsiplərinə sadiq qalaraq Azərbaycan mədəniyyətinin mühafizəsi, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində səmərəli fəaliyyət göstərməkdədir. Məhz Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 1996-cı ildə yaradılmış Azərbaycan Mədəniyyətinin Dostları Fondu xalqımızın mədəni irsinin bütün dünyada təbliğinə, qiymətli incəsənət abidələrinin qorunmasına xidmət edir. Azərbaycan mədəniyyətinə bu qədər yüksək qiymət verilməsi ölkə Prezidentinin xanımının xalqımızın milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sonsuz bağlılığının əyani təzahürüdür.

Dünyanın informasiya əsrinə qədəm qoyması, informasiya texnologiyalarının inkişafı sahəsində əldə olunan böyük nailiyyətlərin az qala hər gün həyatımızda hər hansısa bir dəyişikliyə səbəb olması nə qədər mütərəqqi meyl sayılsa belə, bu inkişaf milli tarixi-mədəni irsə müəyyən təhlükə meyllərini də istisna etmir. Belə bir əyyamda Azərbaycan və ümumilikdə Cənubi Qafqaz mədəniyyətinin Mehriban xanım Əliyevanın timsalında özünə etibarlı bir hami, xilaskar tapması





son dərəcə böyük önəm daşıyır.

"İndi, kütləvi mədəniyyət stereotiplərinin hakim olduğu bir şəraitdə, milli ənənələrin qorunub saxlanılması, onlara qayğı, düşünülmüş münasibət göstərilməsi son dərəcə vacibdir. YUNESKO-nun çoxsaylı vəzifələrindən biri də insanın mənəvi dünyasını qorumaqdır. Odur ki, planetimizdə məskunlaşmış xalqlardan hər birinin milli "mən"ini daha parlaq əks etdirən qeyri-maddi irs incilərinin qorunması ən aktual vəzifəyə çevrilir". Bu sözləri söyləyən Mehriban xanım üzərinə düşən bütün vəzifələri şərəflə yerinə yetirir.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu şəraitində adət-ənənələrin və stereotiplərin gender bərabərliyinə böyük təsiri var. Bu gün cəmiyyətin hər bir üzvünün inkişaf etməsi üçün geniş imkanlar yaradılmışdır. Ölkə Prezidenti İlham Əliyevin qadın problemlərinə dair göstərdiyi diqqət və qayğısı, gender problemləri üzrə yaradılan beynəlxalq və ölkədaxili hüquqi-normativ baza deməyə imkan verir ki, yaxın gələcəkdə müstəqil Azərbaycanda gender bərabərliyi məsələsi beynəlxalq standartlara uyğun həllini tapacaqdır. Qadınlara münasibətə gəldikdə isə ayrı-seçkiliyin aradan qaldırılması həm hüquqi müstəvidə, həm də mənəvi dəyərlərin inkişafı yolu ilə, maarifçiliklə, xalqın təfəkkürünün yeniləşməsi ilə, əxlaqla bağlı olacaqdır.

***"Xalq qəzeti",***
***7 sentyabr 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

Ukrayna Prezidenti Viktor Yuşşenko sentyabrın 8-də Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Ukraynanın dövlət başçısını böyük səmimiyyətlə qarşıladılar. Qonaqlar əvvəlcə kinozalda Fondun fəaliyyətinə, həyata keçirdiyi layihələrə həsr edilmiş sənədli filmə baxdılar.

Sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Ukrayna Prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirildi ki, Fondun əsas məqsədləri Prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, ölkəmizin qonaqlarında əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.

Prezident İlham Əliyev Ukrayna rəhbərliyinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.

Ukrayna Prezidenti fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət





və incəsənət xadimlərinin Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldu, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə böyük maraqla baxdı.

Ulu öndər Heydər Əliyevin 1997-ci ildə Ukraynaya səfəri zamanı o vaxt Ukrayna Milli Bankının rəhbəri olan V.Yuşşenko ilə çəkdirdiyi şəkli Ukrayna Prezidentində xüsusi ovqat yaratdı. O, həmin görüşü həmişə xoş təəssüratla xatırladığını bildirdi. Azərbaycan və Ukrayna prezidentləri həmin fotonun önündə xatirə şəkli çəkdirdilər.

Ukrayna Prezidenti Fondun Xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini bildirdi, İlham Əliyevin Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində yeni uğurlar arzuladı.

Ukrayna Prezidentinə xatirə hədiyyələri təqdim edildi.

Ali qonaq Fonddan xoş və zəngin təəssüratla ayrıldığını bildirdi.

*"Xalq qəzeti",*
***9 sentyabr 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDUNUN SƏHİYYƏ SAHƏSİNƏ DAHA BİR TÖHFƏSİ

Sentyabrın 13-də Almaniyanın "Kral-Storz" şirkəti Heydər Əliyev Fonduna 160 min avro dəyərində endoskopik avadanlıq bağışlamışdır. Urologiya sahəsində tətbiq olunacaq bu müasir avadanlıq xəstələrə açıq əməliyyat aparılmadan müalicə olunmağa imkan yaradacaqdır.

Xatırladaq ki, səhiyyə yönümlü layihələr Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutur. Üçüncü ildir ki, Fondun "Diabetli uşaqlara ən yüksək qayğı" proqramı ölkədə 14 yaşına qədər qeydə alınmış xəstələrin insulin və şpris-qələmlə təmin olunmasına imkan yaradır. "Talassemiyasız həyat naminə" layihəsi isə ölkədə bu xəstəliyin yayılmasının qarşısını almaq məqsədi ilə həm də diaqnostik mərkəzin tikintisini nəzərdə tutur və Bakıda onun üçün yer də ayrılmışdır. Fond səhiyyənin müxtəlif sahələrində yeni texnologiyaların tətbiqi işində də yardımçı olur, təbabətin ən müasir metod və nailiyyətlərindən istifadə üçün beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirir. Bu əməkdaşlıq əsasında artıq bir neçə lokal layihə həyata keçirilmişdir.





# HYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA QARADAĞ RAYONUNDA OLMUŞDUR

Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva sentiyabrın 13-də Qaradağ rayonunun Lökbatan qəsəbəsində olmuşdur. Qəsəbənin 28 may prospektində Heydər Əliyev parkında görülən işlərlə tanış olan Mehriban xanıma məlumat verildi ki, ümummilli liderimizin adını daşıyan istirahət güşəsi rayonun daxili imkanları hesabına salınır, sahəsi 2,5 hektara yaxındır. Burada ulu öndərin mərmər büstü qoyulmuşdur. Yaşıl xiyabanlar, milli memarlıq üslubunda fəvvarə parka xüsusi yaraşıq verəcəkdir. Ətrafındakı binalar da müasir görkəmə salınmış, bir neçə min ağac və gül kolları əkilmişdir. Parkın ərazisində Heydər Əliyev muzeyi də tikilir. Sahəsi 240 kvadratmetr olacaq muzey ümummilli liderimizin şərəfli ömür yoluna dair eksponatlarla komplektləşdiriləcək, burada ulu öndərin Qaradağ rayonunun sosial-iqtisadi inkişafına töhfəsini, rayonda keçirdiyi görüşləri əks etdirən ayrıca guşələr yaradılacaqdır. Muzey məktəblilərin, gənclərin dahi şəxsiyyətin irsini öyrənməsində, vətənpərvərlik tərbiyəsində mühüm rol oynayacaqdır. Mehriban xanıma məlumat verildi ki, park və muzeyin tikintisində artıq son tamamlama işləri görülür.

Sonra Mehriban xanım Heydər Əliyev Fondunun həyata keçirdiyi

"Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində əsaslı şəkildə təmir edilmiş və yenidən qurulmuş şəhid polis kapitanı, Azərbaycanın Milli Qəhrəmanı Faiq Rəfiyevin adını daşıyan 166 nömrəli məktəbə gəldi. Məktəbin müəllimləri, yuxarı sinif şagirdləri hörmətli qonağı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

Mehriban xanım Milli Qəhrəmanın məktəbin qarşısındakı abidəsi önünə tər qərənfillər düzdü.

O, məktəbin foyesində ulu öndər Heydər Əliyevin büstü önünə də gül-çiçək dəstələri qoydu.

Məktəbin direktoru Məhbubə Məhərrəmova Mehriban xanıma məlumat verərək dedi ki, 1936-cı ildə tikilən binada son 20 ildə bir dəfə də təmir işləri aparılmamışdı. 1200 şagirdi olan məktəbdə son üç ayda görülmüş işlər isə bu təhsil ocağının simasını tamamilə yeniləşdirmişdir. Əlavə 8 sinif otağı da tikilmişdir ki, bu da şagird sıxlığını tamamilə aradan qaldıracaqdır. Məktəbin bütün avadanlığı da təzələnmişdir.

Sinif otaqları, fənn kabinetləri ilə ətraflı tanış olan Mehriban xanım 2 kompüter otağının ayrılmasını, burada 20-dən çox kompyuter otağının ayrılmasını, burada 20-dən çox kompüterin qoyulmasını yüksək qiymətləndirdi, ixtisaslı kadrların olub-olmaması, onların hazırlıq səviyyəsi ilə maraqlandı, məktəblərdə yeni informasiya texnologiyalarından istifadə edilməsinin vacibliyini bildirdi, bu barədə dövlət proqramının da qəbul edildiyini xatırlatdı.

Fondun prezidenti məktəb kitabxanasında da oldu, yeni əlifba ilə buraxılan kitabların alınması ilə maraqlandı. Məktəbin direktoru son iki ildə xeyli bədii və siyasi ədəbiyyatın alındığını bildirdi, Heydər Əliyev Fondu tərəfindən məktəbə rus dilində xeyli kitabın hədiyyə olunmasına görə minnətdarlıq etdi, Fondun gənc nəslin təlim tərbiyəsinə, yeni kitabların alınmasına, dərsiklərin nəşrinə göstərdiyi qayğını yüksək dəyərləndirdi.





Daha sonra məktəbin idman kompleksinə baxan Mehriban Əliyeva ayrıca istilik sisteminin işə salınmasını, işıq, su xətlərinin təzələnməsini xüsusi razılıqla qeyd etdi. O, məktəbin təmirdən əvvəlki və hazırki vəziyyətini əks etdirən fotoguşə ilə tanış oldu, görülən işlərin keyfiyyətindən razı qaldığını söylədi.

Mehriban Əliyeva müəllim və şagirdlərə, onun gəldiyini eşidərək buraya toplaşan qəsəbə sakinlərinə müraciətlə dedi:

- Bilirsiniz ki, çox qısa zamanda, cəmisi 3 aya bu məktəbin binası əsaslı təmir olundu. Çox rahat, isti, təmiz, gözəl, işıqlı məktəbdir. Mən çox sevinirəm ki, uşaqlarınız bundan sonra belə məktəbdə oxuyacaqlar. Heydər Əliyev Fondunun həyata keçirdiyi proqrama Qaradağ rayonunun da 3 məktəbi salınıb, mən o biri məktəblərdə görülən işlərlə də tanış olacağam. Yaxın zamanlarda ölkəmizdə bütün məktəblər yenidən qurulacaq, təzələri tikiləcək və hamısı belə yüksək səviyyədə avadanlıqla, müasir informasiya texnologiyaları ilə təmin ediləcəkdir.

Sizi bir daha təbrik edirəm, məktəblilərə yeni dərs ilində uğurlar, cansağlığı arzulayıram.

***"Xalq qəzeti",***
***14 sentyabr 2006-cı il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVA ƏZİZBƏYOV RAYONUNDA OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva sentyabrın 14-də Əzizbəyov rayonunda olmuşdur.

Mehriban xanım Heydər Əliyev Fondunun təşəbbüsü ilə rayonda görülmüş işlərlə tanışlığa Binə qəsəbəsindəki Möhsün Səlim məscidinin yeni inşa olunmuş yardımçı binasından başladı.

Ötən əsrin əvvəllərində yerli mədən sahibinin vəsaiti ilə tikilmiş bu ibadətgahda uzun illər heç bir təmir-abadlıq işi aparılmadığına görə bina yararsız vəziyyətə düşmüşdü. Hətta 1918-ci ildə erməni daşnaklarının atdığı top məscidin günbəzini deşmiş, çatlar əmələ gətirmişdi. Sakinlərin müraciətindən sonra bu vəziyyətlə yerində tanış olan Mehriban Əliyevanın təşəbbüsü ilə məsciddə bərpa işlərinə başlanmışdı. Bu il iyunun 15-də Prezident İlham Əliyev də məscidə gələrək, burada görülmüş işləri yüksək qiymətləndirmişdi. Məscid dövlət tərəfindən qorunan tarixi abidələr siyahısına da salınmışdır. Din xadimləri həmin gün dövlətimizin başçısına və Mehriban xanıma bərpa işlərinə görə minnətdarlıq etməklə yanaşı, həm də məscidin həyətində əlavə yardımçı binaların tikilməsi barədə xahişlə də müraciət etmişdilər. Qısa müddətdə burada 100 nəfərlik salon, dəstəmaz otaqları, kişi və qadınlar üçün ayrı-ayrılıqda hücrələr, din xadimləri üçün məşvərət otağı, daimi suyu, mətbəxi olan təzə bina tikildi, qəbə-xalılarla, hər cür lazımi avadanlıqla təmin edilərək dindarların istifadəsinə verildi.





Mehriban xanım otaqları gəzərək, görülmüş işin keyfiyyətindən razılığını bildirdi, buraya toplaşan dindarlardan başqa bir istəklərinin olub-olmamasını soruşdu.

Artıq bu Allah evində ürəkləri istəyən hər cür şəraitin yaradıldığını söyləyən qəsəbə ağsaqqalları dinimizə, müqəddəs ibadətgahlarımıza göstərdikləri diqqət və qayğıya görə dövlətimizin başçısına, onun xanımına öz razılıqlarını bildirdilər, xalqımızın firavanlığı, vətənimizin tərəqqisi naminə onlara ən xoş arzularını yetirdilər, ulu öndər Heydər Əliyevin ruhuna dua etdilər.

Mehriban xanım məscidə də baxdı. Məlumat verildi ki, Azərbaycan Prezidenti burada olarkən çilçırağın daxili interyerə uyğun gəlmədiyini, daha böyüyünün alınıb asılmasının gərəkliyini bildirmişdi. İndi məscidi daha işıqlı edən böyük çilçıraq bu tarixi abidənin daxili görkəmini də xeyli gözəlləşdirmişdir.

Mehriban Əliyeva paytaxtın ən iri qəsəbələrindən olan Binədə son iki ildə xeyli iş görüldüyünü bildirərək gələn il burada təzə poliklinikanın inşasına başlanılacağını, o vaxtadək isə həm də əlavə bir həkim məntəqəsinin də açılacağını vəd etdi. Azərbaycanın birinci xanımının verdiyi hər bir vədə vaxtında əməl etdiyini vurğulayan sakinlər onun bu dəyərli təşəbbüslərini də razılıqla qarşıladılar.

Sonra Zirə qəsəbəsindəki 122 nömrəli məktəbin açılış mərasiminə gələn Mehriban xanımı burada gül-çiçəklə qarşıladılar. Fondun prezidenti təzə məktəbin açılışı münasibətilə qəsəbə sakinlərinə gözaydınlığı verdi, məktəbliləri yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, onlara elmlərə səylə yiyələnməyi arzuladı.

Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Nailə Rzaquliyeva bildirdi ki, indiyədək burada ibtidai təhsil alan uşaqlar sonra Pirallahı qəsəbəsindəki məktəbə gedib-gəlirdilər. İndi bu problem həll edilmiş, uşaqların əziyyətinə son qoyulmuşdur. Məktəb bütün lazımi avadanlıqla, kompüterlərlə də təmin edilmişdir.

Yeni dərs ili ərəfəsində Mərdəkan qəsəbəsindəki 183 nömrəli orta məktəb üçün Fondun "Yeniləşən Azərbaycan yeni məktəb" proqramı çərçivəsində tikilən əlavə korpusun açılışı də yaddaqalan hadisəyə çevrildi. Mehriban xanımın seçkiqabağı görüşlərində qaldırılmış bu təşəbbüsün reallaşması nəticəsində qısa müddətdə ən müasir tələblərə cavab verən 12 sinif otağı, fənn kabinələri, kompüter otaqları olan bina tikilmiş, təzə avadanlıqla təmin edilmişdir. Məktəbin direktoru Billurə Ələkbərova bildirdi ki, 1936-cı ildə tikilmiş əsas binada indiyədək heç bir təmir aparılmadığından, məktəb çətin vəziyyətə düşmüşdü, dərslərin normal keçilməsi üçün şərait yox idi. 900 şagirdin təhsil aldığı məktəbdə ikinövbəlilik də aradan qaldırılacaqdır. Həm rus, həm də Azərbaycan bölməsində şagird və müəllimlər üçün hər cür şərait var, dərsliklərlə, bədii ədəbiyyatla təminat sarıdan problem yoxdur.

Mehriban xanım kompüter otağında aşağı sinif şagirdlərinin internetlə işləmək vərdişləri ilə maraqlandı, hətta bir neçə saniyəyə ekranda maraqlı şəkillər çəkərək uşaqların da tezliklə belə vərdişlərə yiyələnməsinin müasir dövrün tələbi olduğunu vurğuladı.

Mehriban Əliyeva bildirdi ki, gələn il məktəbin köhnə binasının tamamilə yenidən qurulması nəzərdə tutulmuşdur.

Müəllimlər və şagirdlərlə xatirə şəkli çəkdirən Fondun prezidenti sonra Şüvəlan qəsəbəsinə gəldi.

Burada Heydər Əliyev Fondunun həyata keçirdiyi proqram çərçivəsində 156 nömrəli məktəb üçün 1100 yerlik təzə binanın təməlinin qoyulması mərasimi keçirildi.





Şəhər Baş Təhsil İdarəsinin rəisi Nailə Rzaquliyeva bildirdi ki, həm mütəxəssislərin rəyi nəzərə alınmaqla, həm də Mehriban xanımın təklifi ilə yararsız binanın sökülüb yerində təzəsinin tikilməsi qərara alınmışdır. 156 nömrəli məktəbin bütün müəllim və şagird kollektivinin fəaliyyətini qonşuluqdakı 237 nömrəli məktəbdə ikinci növbədə davam etdirməsi üçün hər cür şərait yaradılmışdır. Yeni binanın isə gələn ilin sentyabrına kimi inşa edilməsi nəzərdə tutulur. Üçmərtəbli, 3 korpuslu yeni məktəbin müasir tələblərə cavab verən kitabxanası, kompüter otaqları, fənn kabinələri, idman kompleksi də olacaqdır.

Mehriban xanım layihə ilə tanış olduqdan sonra Heydər Əliyev Fondunun proqramına əsasən, 2006-cı il sentyabrın 14-də məktəbin təməlinin qoyulduğunu bildirən yazını gilizə qoyub bünövrəyə atdı, ilk beton qarışığını tökdü.

Şüvəlan qəsəbəsində tikilmiş 230 nömrəli orta məktəb maddi-texniki bazasının zənginliyinə görə ölkəmizdə ən müasir təhsil komplekslərindən biridir. 20 Yanvar şəhidi, bu məktəbin məzunu Fuad Fərhad oğlunun adını daşıyan təhsil ocağının qarşısına toplaşan sakinlərin, müəllim və şagirdlərin sevinci aşkar hiss olunurdu. Üçmərtəbəli məktəb binasındakı geniş və işıqlı otaqlar, keyfiyyətli, orjinal dizaynlı avadanlıq, zəngin kitabxana, əmək təlimi emalatxanaları, son model kompüterlərlə təchiz edilmiş internet otaqları, ən yüksək səviyyəli tədbirlərin də keçirilməsinə şəraiti olan iclas salonu göz oxşayır. Ümummilli liderimiz Heydər Əliyevin "Təhsil hər bir millətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir", "Torpağı qorumaq, torpaq uğrunda həlak olmaq insan üçün böyük şərəfdir" sözləri yazılmış lövhələr, şəhid döyüşçülərin xatirə guşəsi, ulu öndərin şərəfli ömür yolunu, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələri əks etdirən fotostendlər zövqlə tərtib olunmuşdur.

Məktəbin direktoru, 40 illik pedoqoji fəaliyyətinin 30 ilini bu vəzifədə işləyən İlyas Qəmbərov Azərbaycanın birinci xanımına dedi ki, 41 sinif otağı olan təhsil ocağında 1200 nəfərin oxuması üçün hər cür şərait vardır. Belə bir məktəbimizin olacağını təsəvvürümüzədə gətirə bilməzdik. Ancaq Sizin diqqət və qayğınız sayəsində belə möhtəşəm bir bina tikilib istifadəyə verildi.

Mehriban xanım məktəblə, geniş bir sahədə inşa edilmiş, müasir standartlara cavab verən üstüörtülü, yaşıl meydançalı futbol stadionu ilə tanış oldu. O görülən işlərin keyfiyyətindən razı qalaraq dedi ki, belə stadionu, idman kompleksi olan məktəbin, yəqin ki, layiqli komandası, idmançıları da olacaqdır.

Sonra Mehriban Əliyeva məktəbin qarşısına toplaşmış müəllim və şagirdlərə, onun gəldiyini eşidərək buraya toplaşan qəsəbə sakinlərinə müraciətlə dedi:

- Mən çox şadam ki, müasir Avropa standartlarına cavab verən belə bir məktəb tikilib istifadəyə verilibdir. Bu məktəbdə şagirdlər ancaq əla və yaxşı oxumalıdır. Onlar da, müəllimlər də çalışmalıdırlar ki, bu gözəlliyi qoruyub saxlasınlar. Mən hər gəlişimdə görürəm ki, qəsəbəniz günü-gündən dəyişir, yollar abadlaşır, yaşıllıqlar çoxalır. Ötən dəfə uşaq bağçasını açdıq, indi məktəbin açılışını etdik. Gələndə baxırdım, binaların bir çoxunun damı köhnəlib, onları da təzələmək lazımdır, bura gözəl qəsəbə olacaqdır. Sizin hər birinizə cansağlığı, uğurlar arzulayıram. Çox sağ olun.





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN QƏTƏRƏ SƏFƏRİ

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO ilə Qətər Fondunun təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi" mövzusunda regional konfransda iştirak etmək üçün Qətər Dövlətinin birinci xanımı, YUNESKO-nun ibtidai və ali təhsil üzrə xüsusi elçisi Şeyxa Muza Bint Nasir əl-Missnedin dəvəti ilə bu ölkədə səfərdə olmuşdur.

Doha beynəlxalq hava limanında yüksək qonağı səmimiyyətlə qarşılayan xanım Şeyxa Muza ölkəsində təhsil sahəsində aparılan islahatlara rəhbərlik etdiyi Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fondunun həyata keçirdiyi uğurlu layihələr və Qətərin tanınmış "Təhsil şəhərciyi" barədə qısa məlumat vermişdir.

Martın 12-də öz işinə başlayan konfransda Qətər Dövlətinin birinci xanımı Şeyxa Muza, YUNESKO-nun baş direktoru Koişiro Matsuura, YUNESKO-nun Baş konfransının sədri, Oman Sultanlığının YUNESKO yanında daimi nümayəndəsi Musa Həsən, Suriyanın birinci xanımı Əsma əl-Əsəd, Livanın birinci xanımı Andre Ləhud, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış etmişlər.

Martın 13-də konfransda ərəb ölkələrinin ucqar kənd yerlərində

savadsızlığın aradan qaldırılması məqsədi ilə ötən illərdə uğurla həyata keçirilmiş layihələrə dair konkret misallar gətirilmişdir.

YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxışında bildirmişdir ki, rəhbərlik etdiyi təşkilat "Hamı üçün təhsil" proqramı çərçivəsində üzv ölkələrdə təhsilə dövlət büdcəsinin ən azı 20 faizinin ayrılmasını tövsiyə etmişdir.

Qətərin bu sahədə nailiyyətlərindən söhbət açan xanım Şeyxa Muza kənd yerlərində nəinki uşaqlar, həm də yaşlılar arasında təhsil kurslarının təşkil edilməsinin vacibliyini vurğulamışdır. O, bu baxımdan, onların tələbatlarına cavab verən spesifik təhsil proqramının tərtib olunmasına ehtiyac duyulduğunu bildirmişdir.

Mehriban Əliyeva konfrans çərçivəsində xanım Şeyxa Muza ilə ayrıca görüşündə Qətərin təhsil sahəsindəki təcrübəsi ilə tanış olmuş fikir mübadiləsi aparmışdır.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Livanın və Suriyanın birinci xanımları ilə də görüşmüş, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmışdır. Söhbət əsnasında xüsusən də kənd yerlərində təhsilin inkişaf etdirilməsi sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər, hökumətin və Heydər Əliyev Fondunun qayğısı sayəsində tikilmiş və yenidən bərpa olunmuş orta məktəblər, onların kompyuter və digər müasir avadanlıqla təchiz olunması barədə konkret misallar gətirilmişdir.

İkitərəfli görüşlər zamanı Mehriban xanım Əliyeva rəhbərlik etdiyi Fondun səhiyyə sahəsindəki layihələri haqqında da məlumat vermişdir. Mehriban xanım İSESKO-ya üzv olan bütün dövlətlərin birinci xanımlarının Bakıda forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Təklif məmnunluqla qarşılanmış və qəbul edilmişdir.

Martın 13-də Azərbaycanın birinci xanımı Qətərin birinci xanımının müşayiəti ilə "Təhsil şəhərciyi" ndə olmuşdur. Yüksək qonağı hörmətlə qarşılayan şəhərciyin direktoru xanım Hana Kanan işləri





barədə ümumi məlumat vermiş, öz ixtiraları ilə seçilmiş tələbələri təqdim etmişdir. Şeyxa Muzanın rəhbərlik etdiyi Fondun himayəsi ilə bir neçə il bundan əvvəl yaradılmış "Təhsil şəhərciyi"ndə ABŞ, İngiltərə və digər aparıcı dövlətlərin məşhur universitetləri öz nümayəndəliklərini açmışdır və burada birgə elmi tədqiqat işləri aparırlar. Mehriban Əliyeva tələbə və şagirdlərin ixtiraları ilə, görmə qabiliyyəti zəif olan uşaqların yazmaq və oxumaq bacarıqlarının inkişaf etdirilməsi üçün istifadə edilən yeni üsullarla yaxından tanış olmuşdur.

Uğurlu və maraqlı səfərinin təşkilinə görə Qətər Dövlətinin birinci xanımı Şeyxa Muzaya öz minnətdarlığını bildirən Azərbaycanın birinci xanımı Mehriban Əliyeva martın 13-də Vətənə qayıtmışdır.

***"Xalq qəzeti",***
***14 mart 2007-ci il***

# AZƏRBAYCAN GƏNCLİYİ HƏRTƏRƏFLİ QAYĞI İLƏ ƏHATƏ OLUNMUŞDUR

## HEYDƏR ƏLİYEV FONDU ÖLKƏDƏ SAĞLAM VƏ BİLİKLİ GƏNCLƏRİN YETİŞDİRİLMƏSİ ÜÇÜN MÖHTƏŞƏM PROQRAMLAR HƏYATA KEÇİRİR

***Gənclərin Azərbaycan cəmiyyətində rolu çox böyükdür. Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizə aparan da, bu müstəqilliyi bərpa edən də gənclər olmuşlar. Müstəqilliyimizin ilk illərində, çox ağır illərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün çalışmışlar.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci il fevralın 2-də Gənclər Günü ilə əlaqədar ölkəmizin gənclər təşkilatlarının nümayəndələri ilə görüşdəki giriş nitqindən.***

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva həm özünün ictimai-siyasi fəaliyyətində, həm də rəhbərlik etdiyi qurumun həyata keçirdiyi bütün tədbirlərdə yetişməkdə olan nəslin sağlamlığını, intellektual və fiziki inkişafını daim diqqət mərkəzində saxlayır. "Gənc nəslə qayğı göstərmək, onların problemlərini həll etmək, istedad və qabiliyyətlərini üzə çıxararaq inkişaf etdirmək tək dövlətin və ya hansısa qurumun vəzifəsi deyildir. Bu, bizim hər birimizi hər gün narahat etməli olan məsələyə, gündəlik fəaliyyətimizin bir hissəsinə çevrilməlidir" - deyən xanım Əliyeva adı çəkilən istiqamətdə həyata keçirdiyi tədbirlərlə sadəcə














bütün insanlara nümunə göstərir. Heydər Əliyev Fondunun reallaşdırdığı istənilən möhtəşəm proqramın mahiyyətinə varanda orada ilk növbədə gəncliyə qayğı məsələsinin ən qabarıq şəkildə özünü göstərdiyinin şahidi oluruq. Ona görə də Heydər Əliyev Fondunun ölkədə sağlam, kamil və bilikli gənc nəsil yetişdirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər barədə söz açmaq istəyirdik. Ancaq ötən ayın əvvəlindən Azərbaycanda 2007-ci ilin Gənclər ili elan edildiyinə görə bu yazını da bilavasitə həmin kontekstdə qələmə aldıq.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin - biz həmin ölkələrlə eyni vaxtda müstəqillik əldə etdiyimizə görə özümüzü ilk öncə onlarla müqayisə edirik - internet saytlarına diqqət yetirdik. Son 15-16 ildə hansısa ölkədə bütöv bir ilin Gənclər ili kimi qeyd olunduğu barədə məlumata rast gəlmədik. Ancaq Azərbaycan həyatın bütün sahələrində olduğu kimi bu sahədə də hamıya nümunə göstərir. Çünki bu dövlətin beşiyi başında ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasi kursu, dövlətçilik təcrübəsi, idarəçilik prinsipləri durur. Ulu öndərimiz hələ Qurtuluşun ilk günü - 1993-cü il iyun ayının 15-də - Azərbaycan parlamentinin sədri seçildiyi ilk gün ölkə gənclərinin bir qrup nümayəndəsi ilə görüşmüşdü. Bu, həm ölkə daxilindəki qüvvələrə, həm də xaricdəki dostlarımıza və bədxahlarımıza ünvanlanan mesaj idi: "Biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik". Bu tezis özünü çox qısa bir müddətdə doğrultdu. Heydər Əliyevdən böyük inam və etimad görən Azərbaycan gəncliyi dövlətin və Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşdi. Öz həmyaşıdlarını Milli Məclisin deputatı, nazir, nazir müavini, icra başçısı, mühüm dövlət orqanlarının rəhbəri kimi vəzifələrdə görən gənclər Heydər Əliyev ideyalarına sədaqət nümayiş etdirərək dövlətçiliyin qorunmasında və dövlətin idarə edilməsində mühüm

rol oynadılar. Nəticədə ümummilli lider Heydər Əliyevin" "azərbaycançılıq", "vətənçilik", ideyalarını bayraq edən Azərbaycan gəncləri gündən-günə daha mütəşəkkil şəkildə təşkilatlandılar. Təsadüfi deyil ki, hazırda Azərbaycanda uşaq və gənclərlə işləyən və onları öz ətrafında birləşdirən təxminən 150-yə yaxın qeyri-hökumət təşkilatı vardır. 1995-ci ildə Azərbaycanda yaranmış Gənclər Təşkilatlarının Milli Şurası 2000-ci ilin aprel ayında Avropa qitəsində ən nüfuzlu qeyri-hökumət təşkilatı olan Avaropa Gənclər Forumuna tamhüquqlu, 2002-ci ilin yanvar ayında isə BMT-nin İqtisadi və Sosial Şurasına müşahidəçi kimi üzv seçilmişdir. Cənab İlham Əliyevin YAP-ın ikinci qurultayında partiya sədrinin birinci müavini vəzifəsinə seçilməsi gənclərimizdə böyük ruh yüksəkliyi yaratdı.

Bütün bu faktları sadalamaqda məqsədimiz odur ki, 1993-cü ilin yayından başlayaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "2007-ci ilin Gənclər ili elan edilməsi haqqında" 9 fevral 2007-ci il tarixli sərəncamı imzalanmasına qədər keçən 14 il müddətində dövlət Azərbaycan gəncliyinə möhtəşəm qayğı göstərmiş, Azərbaycan gəncliyi isə öz gücü, qüdrəti, fitri istedadı və intellektual səviyyəsi ilə böyük amallara xidmət etmişdir. 2007-ci il fevralın 2-də - Gənclər Günü münasibəti ilə Prezident Sarayında gənclər təşkilatlarının nümayəndələri ilə görüşən Azərbaycan Prezidenti İlham Əliyev onun partiya sədrinin müavini və daha sonra sədrin birinci müavini vəzifələrinə seçilməsindən sonra Yeni Azərbaycan Partiyası ətrafında daha sıx birləşən Azərbaycan gəncliyinə üzünü tutaraq gənc nəsli daha fəal olmağa çağırdı: "Həmişə fəal olun, möhkəm olun və bilin ki, mən həmişə sizinləyəm".

İndi isə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Meriban xanım Əliyevanın öz fəaliyyəti zamanı Azərbaycan gəncliyinə göstərdiyi qayğı barədə bəzi məqam-





lardan söz açaq. Yeri gəlmişkən, bu günlərdə televiziya verilişlərindən birində qeyd edildi ki, Mehriban Əliyevanın bir ictimai-siyasi xadim kimi fəaliyyəti başdan-başa uşaqlara və gənclərə qayğı nümunəsini yaratmaqdan ibarətdir. Bu fikir çoxsaylı faktlara və güclü məntiqə əsaslansa da, deməliyik ki, xanım Əliyevanın ictimai-siyasi fəaliyyətinin böyük bir hissəsi deputat kimi qanun yaradıcılığında iştiraka və ona etimad göstərmiş on minlərlə seçicinin problemlərinin həllinə, onları maraqlandıran suallara cavab tapılmasına həsr olunur. Ona görə də Heydər Əliyev Fondunun prezidentinin fəaliyyətində gənclərlə bağlı məqamları xüsusilə qeyd etməyə ehtiyac yoxdur.

Gəlin, fikrimizi konkret faktlaria əsaslandıraq. Götürək "Yeniləşən Azərbaycana yeni məktəb" proqramını. Həmin layihə barədə söz açan ekspertlər yazırlar ki, bu sənəd Azərbaycanda təhsilin səviyyəsinə birbaşa təsir edən problemlərin həllinə - tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən müasir məktəb binalarının inşasına istiqamətlənmişdir. Yəni hamı üzdə olan məsələni - məktəb tikintisini önə çəkir: məktəblər tikildi, avadanlıq alındı, korpuslar inşa edildi, köhnə məktəblər təmir edildi və s. Görülmüş işin maddi tərəfləri daha tez gözə çarpır. Əslində Mehriban xanım bu proqramın icrası ilə öz xalqına böyük mənəvi, elmi, pedaqoji, ictimai-siyasi əhəmiyyət daşıyan misilsiz xidmətlər göstərir;

- Azərbaycan gənci digər ölkələrdəkirahat, işıqlı, tam təchiz olunmuş məktəb binalarını görəndə mənəvi cəhətdən sıxıntı keçirməsin ki, nə üçün mənim ölkəmdə belə məktəblər yoxdur. Heydər Əliyev Fondu məhz belə məktəblər inşa edir;
- müasir üslubda inşa olunmuş, kompüterləşdirilmiş, lazımi avadanlıqla təchiz edilmiş, yüksək bilik verən məktəblər yeni təfəkkürlü, intellektual gənclik yetişdirilməsinin əsasını qoyur;
- dünya inkişaf edir və istənilən müstəqil dövlətin ictimai-siyasi nüfuzu onun inkişafı ilə, tərəqqisi ilə ölçülür. Bütün hallarda inkişafa aparan

yol ölkə vətəndaşlarının intellektual səviyyəsinin yüksəldilməsindən keçir. Mehriban xanım Əliyeva sübut etdi ki, onun reallaşdırdığı "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi sadəcə məktəb, bağça, internat binası tikməklə işini bitmiş hesab etmir. Bu layihə Azərbaycan gəncliyinə mənəvi, psixoloji, ictimai-siyasi dayaq olmaq kimi çox mühüm bir amala xidmət edir. Deməli, layihənin icrası ilk növbədə məktəb tikilməsinə, ikincisi, gəncliyin normal inkişaf etməsinə, nəhayət, dövlətin tərəqqisinə xidmət edir. Bu ali məramın müəllifi bilavasitə ümummilli liderimizin adını daşıyan Fond, bilavasitə öz xalqına xidmət etməyi ən yüksək vəzifə hesab edən Mehriban xanım Əliyeva ola bilərdi.

Başqa bir məqama diqqət yetirək. 2005-ci ildə Heydər Əliyev Fondu "Qarabağ xanəndələri" adlı nəfis bir albom buraxdı. Dərhal kütləvi informasiya vasitələri yazdılar ki, Mehriban Əliyeva muğam sənəti qarşısında böyük xidmətləri olan sənətkarları unudulmağa qoymadı. Yəni, məktəb tikintisi ilə bağlı proqramda olduğu kimi yenə ilk baxışda layihənin üzdə olan tərəfi tez nəzərə çarpır. Ancaq əslində bu layihənin daha böyük məqsədi, daha möhtəşəm məramı var. Qloballaşan dünyada mədəniyyətlərin bir-biri ilə qovuşması əksər ölkələrin gənclərində olduğu kimi Azərbaycan gənclərində də müəyyən sapmalarla, yad musiqi elementlərinin milli musiqimizə yamaq şəklində əlavə edilməsi ilə müşayiət olunurdu. Əlbəttə, azərbaycanlı gənclərin dünyanın müxtəlif musiqi janrlarını bilməsi və ifa etməsi özlüyündə təqdir olunmalı haldır. Ancaq milli musiqimizin ikinci plana keçməsinə qətiyyən yol verməmək olmaz, milli musiqi mədəniyyətimiz öyrənilməli, təbliğ edilməli, zənginləşdirilməli və inkişaf etdirilməlidir. Odur ki, "Qarabağ xanəndələri" albomunun ərsəyə gəlməsi, albomun təqdimat mərasimində ölkənin əksər muğam sənətkarlarının iştirak etməsi, həmin tədbirdə Mehriban xanımın geniş nitq söyləməsi ölkə gənclərində milli musiqimizə, xüsusən, muğam sənətinə tamamilə yeni bir münasibət formalaşdırdı. YUNESKO rəhbərlərinin iştirakı ilə Bakıda "Muğam Mərkəzi"nin təməlinin





qoyulması isə həmin münasibəti daha da möhkəmləndirdi. Qəzetlər yazdılar ki, müxtəlif telekanalların muğam müsabiqəsi keçirməsi və qeyri-hökumət təşkilatlarının milli-mənəvi dəyərlər mövzusunda çoxsaylı tədbirlər keçirməsi bilavasitə Mehriban xanım Əliyevanın reallaşdırdığı "Qarabağ xanəndələri" layihəsinin əks-sədası idi. Politoloqların və ekspertlərin yekdil rəyinə görə, bu addım, yəni gənclərin öz milli-mənəvi dəyərlərimizə zəmin yaradan proqramıMehriban xanım Əliyevanın Azərbaycan xalqı qarşısındakı ən böyük xidmətlərindən biridir. Ölkədə Gənclər ilinin qeyd edildiyi bir vaxtda bu faktın dönə-dönə təkrarlanması tamamilə təbiidir. Çünki "elin gözü tərəzidir" - deyiblər. El kimin xidmətinin böyük olduğunu daha yaxşı bilir.

Mehriban xanımın Heydər Əliyev Fondunun xətti ilə səhiyyə sahəsində reallaşdırdığı tədbirlər də bu il ölkədə qeyd edilən Gənclər ili üçün nəzərdə tutulan proqramla tamamilə səsləşir. Halbuki 2004-cü ilin may ayından bəri reallaşdırılan həmin proqramlar işlənib hazırlananda nəinki Gənclər ili üçün nəzərdə tutulan proqram, hətta Gənclər ilinin keçirilməsi barədə fikir yox idi. Yeri gəlmişkən, Fondun uğurla həyata keçirdiyi "İnternat məktəbləri və uşaq evlərinin inkişafı", "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat" layihələrindən söz açarkən bu layihələrin səmərəsiniin daha böyük olduğu qeyd edilməlidir. Ölkə ziyalılarının fikrincə, bir çox beynəlxalq təşkilatların da cəlb edildiyi həmin layihələr xalqın gələcəyi olan gənc nəslin fiziki sağlamlığının və milli genefondumuzun qorunmasına xidmət edir. Dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının da gündəliyində özünə yer tutan millətlərin genefondunun qorunması məsələsi Azərbaycanda şüarlarla və ya kampaniya şəklində gündəliyə gətirilmir. Bizdə bu məsələ Heydər Əliyev Fondunun xətti ilə, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü və əksər hallarda xeyriyyəçiliyi ilə həyata keçirilir. Xarici kütləvi informasiya vasitələri regionda işğalçı siyasəti ilə hamının gözündən düşmüş Ermənistanda valideyn himayəsindən məhrum olmuş, fiziki cəhətdən qüsurlu doğulmuş və digər sə-

bəblər üzündən internatlarda yaşamağa məhkum olan uşaqların dövlətin və cəmiyyətin qayğısından kənarda qaldığını yazırlar. Üstəlik, Azərbaycan Prezidentinin xanımının ölkəmizdəki həmin qəbildən olan uşaqlara hərtərəfli qayğı göstərdiyini yazan əcnəbi mətbuat vasitələri də ermənilər tərəfindən təhdidlə üzləşir: "Azərbaycan Ermənistanın iqtisadi layihələrdən kənarda qalmasından istifadə edərək infrastrukturu yeniləşdirirsə, bu zaman Ermənistanın geridə qalmasından danışmaq haqsızlıqdır". Həmişə olduğu kimi bu dəfə də ermənilər ədalət hissindən tamamilə məhrum olduqlarını gizlədə bilmirlər. Çünki internatda və uşaq evlərində yaşamağa məhkum olmuş körpələrə qayğını bilavasitə Heydər Əliyev Fondu və onun sədri Mehriban xanım Əliyeva göstərir. Yəni burada söhbət siyasətçinin şəxsi keyfiyyətlərindən gedir. Ermənilər isə hansısa iqtisadi layihələrdən kənarda qaldıqlarını yada salaraq xarici mətbuatda Azərbaycan haqqında söylənilən obyektiv fikirlərin əhəmiyyətini azaltmağa çalışırlar. Onların istəyindən asılı olmayaraq Azərbaycanda sağlam, savadlı və intellektual səviyyəli gənclər yetişdirilməsi prosesi ən yüksək templə davam edir.

Mehriban xanım Əliyevanın YUNESKO xətti ilə reallaşdırdığı tədbirlər də gənclərimizin mənəvi-estetik tərbiyəsinin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edir. "Şirvanşahlar Saray Kompleksi"nin YUNESKO-nun "Dünyanın irs siyahısı"na salınması, həmin siyahıya sonradan Qobustan Qoruq Muzeyinin və Atəşgahın da daxil edilməsi təkcə dövlətçilik və milli mənafe baxımından deyil, həm də gənc nəslin müasir tələblərə cavab verən səviyyədə formalaşdırılması baxımından mühüm önəm daşıyır. Yəni bu faktlar hər bir gəncin dünənimizlə, keçmişimizlə fəxr etməsinə və sabaha ümidlə baxmasına zəmin yaradır. Bu işdə dövlətin həyata keçirdiyi tədbirlərin hər bir siyasətçi tərəfindən davam etdirilməsi üçün çox dəyərli və misilsiz bir nümunə vardır: "Mehriban xanım Əliyeva nümunəsi".

***"Xalq qəzeti",***
***14 mart 2007-ci il***





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN QƏTƏRƏ SƏFƏRİ AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

Xəbər verdiyimiz kimi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva YUNESKO-nun və Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fondunun təşkil etdikləri "Ərəb dövlətlərində savadlılıq: tərəfdaşlığın qurulması və yeni yanaşmaların təşviqi" mövzusunda regional konfransda iştirak etmək üçün Qətərin birinci xanımı, YUNESKO-nun ibtidai və ali təhsil üzrə xüsusi elçisi Şeyxa Muza Bint Nasir əl-Missnedin dəvəti ilə martın 12-13-də ölkədə səfərdə olmuşdur.

Martın 12-də işə başlayan konfransın açılışında Qətər dövlətinin əmiri Şeyx Həməd bin Xəlifə Al Tani də iştirak edirdi. Qətər Fondunun təhsil üzrə vitse-prezidenti doktor Abdulla Əli Al Tani konfransı açaraq, bu regional tədbirin ölkəsində keçirilməsindən məmnunluğunu söylədi. Beynəlxalq aləmdə elm və təhsilə himayəçilik sahəsində kifayət qədər nüfuza malik şəxslərin iştirakının bu konfransın böyük əhəmiyyətindən xəbər verdiyini bildirdi.

Qətərin birinci xanımı Şeyxa Muza dəvəti qəbul edərək Dohaya gəlmiş bütün qonaqlara təşəkkür etdi və dedi ki, bu knfrans savadsızlıq probleminin həlli yollarını birgə araşdırmaq, habelə təcrübə mübadiləsi aparmaq üçün gözəl fürsət olacaqdır. Təhsil sahəsində uğurlar qazanmış ölkələrin nümayəndələrinin bu mühüm məsələyə öz töhfələrini verəcəklərinə əminəm və buna görə də onların hər birinə əvvəlcədən minnədrahğımı bildirirəm.

Sonra Oman Sultanlığının YUNESKO-dakı daimi nümayəndəsi Musa bin Cəfər bin Həsən, YUNESKO-nun baş direktoru Koişiro Matsuura çıxış etdilər.

Konfransın aparcısı ABDULLA ƏLİ AL TANİ Azəraycanın birinci xanımı Mehriban Əliyevanı iştirakçılara təqdim edərək dedi:

- Bizim üçün həm də çox sevindirici haldır ki, bugünkü görüşmüzdə region ölkələrinin birinci xanımları hər biri savadsızlığın aradan qaldırılmasına öz töhəsini verir. İndi məmnuniyyətlə sizə Azərbaycan Respublikası Prezidentinin xanımı, Azərbaycan parlamentinin deputatı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı təqdim edirəm. Mehriban xanım Əliyeva ixtisasca göz həkimidir. O, ana, uşaq və ailənin himayə olunması sahəsindəki xidmətlərinə görə BMT-nin yüksək mükafatına layiq görülmüşdür. BMT-nin savadsızlığın aradan qaldırılması probleminə həsr olunmuş növbəti konfransına Azərbaycan dövləti ev sahibliyi edəcəkdir. Ona görə də mənə çox xoşdur ki, Meriban xanım konfransın estafetini Dohadan Bakıya aparacaqdır. Buyurun, xanım,söz Sizindir.

- Ülyahəzrətləri!

Zati-aliləri!

Xanımlar və cənablar!

İlk növbədə, mən Dohada regional konfransın təşkil edilməsində birgə təşəbbüslərinə görə Qətəriu birinci xanımı, Ülyahəzrət Şeyxa Muzanı və YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranı





təbrik edir, bu cür vacib forumda iştirak etmək üçün dəvətə görə minnətdarlığımı bildirirəm. Bu konfrans təhsil məsələlərinə həsr olunmuşdur. Amma, əlbəttə ki, o, bu gün bəşəriyyətin üzləşdiyi qlobal probelmlərlə birbaşa bağlıdır. Təhsil almaq imkanı və savadlılıq səviyyəsi baxımından xalqlar və ölkələr arasında mövcud olan böyük qeyri-tarazlıq cari həssas problemlərin əsas səbəbidir. İqtisadi artım təhsil, elm və mədəniyyətin inkişafı ilə müşayiət olunduğu, eləcə də əhalinin tərəqqinin ən son nailiyyətlərindən istifadə imkanı təmin edildiyi ölkələrlə yanaşı biz elə ölkələri də görürük ki, orada insanlar ibtidai təhsil ala bilmirlər. Statistika göstərir ki, 100 milyon oğlan və qız məktəbə getmək imkanından məhrumdur, dünyada yaşlı əhalinin təqribən 800 milyonu oxuya və yaza bilmir.

Bu baxımdan, mən YUNESKO-nun qlobal savadlılığın dəstəklənməsinə yönəlmiş fəaliyyətini, o cümlədən bu təşkilatın bütün ölkələr və xalqlar üçün açıq və bərabər təhsil almaq imkanının təmin edilməsi ilə bağlı planlarını xüsusi vurğulamaq istəyirəm. "Hamı üçün təhsil" dünya konfransı və sonradan keçirilmiş regional görüşlər və konfranslar bizi narahat edən bir çox problemlərin tədricən aradan qaldırılmasının mümkünlüyünə ən bariz nümunələrdir.

Nəinki Orta Şərqin, o cümlədən bütün dünyanın ən dinamik şəkildə inkişaf edən ölkəsi olan Qətərdə bu cür konfransın keçirilməsi təbiidir. Bu gün Qətər iqtisadi tərəqqinin təhsil və elmin inkişafı ilə müşayət olunmasının ən gözəl modelidir. Qısa müddət ərzində Qətərin təhsil strukturu bütün səviyyələrdə inikşaf etmişdir. Onlarca yeni məktəb açılmışdır.

Dünyada tanınmış universitetlərin tədqiqat işləri apardığı və tələbələrə təhsil verdiyi "Təhsil şəhərciyi"nin yaradılması olduqca uğurlu və vaxtında həyata keçirilmiş layihədir.

Bütün bu islatahların aparılması nəticəsində indi Qətər ərəb aləminin xüsusi elmi və mədəni mərkəzinə çevrilməkdədir.

Hörmətli dostlar!

Böyük məmnunluqla demək istəyirəm ki, təhsil problemlərinə həsr olunmuş növbəti regional konfrans 2008-ci ilin yazında Azərbaycanda keçiriləcəkdir.

Hazırda Azərbaycan dünyada ən sürətlə inkişaf edən iqtisadiyyata malikdir. ÜDM-in artımı 2005-ci ildə 26 faiz olmuşdur. Bu il də biz həmin səviyyəni müəyyən dərəcədə saxlayacağıq. Bir neçə il ərzində biz təhsil sistemimizdə islatahlar aparmışıq. Məqsədimiz dünya standartlarına cavab verən və müasir texnologiyalara əsaslanan çağdaş təhsil sistemi yaratmaqdan ibarətdir.

XX əcrdə Azərbaycan üç dəfə öz əlifbasını dəyişmək məcburiyyəti qarşısında qalmışdır. Buna baxmayaraq, ölkəmizdə savadsızlığın səviyyəsi çox aşağıdır. Əhalinin 98 faizi yaza və oxuya bilir. Azərbaycan Konstitusiyası hər bir vətəndaşın icbari 11 illik təhsil almaq hüququna təminat verir.

Azəbaycanda təhsil sisteminin inkişaf etdirilməsi ilə bağlı dövlət proqramı uğurla həyata keçirilmişdir. Bir çox yeni məktəblər tikilir, tam həcmdə avadanlıq və kompyuterlərlə təchiz olunur. Bütün məktəblər müasirləşdirilir və bərpa olunur. Son 3 il ərzində bütün ölkədə 700-dən çox yeni məktəb binası inşa edilmişdir.

Bütün bunlar neft gəlirlərinin iqtisadiyyatın qeyri-neft sektorunda istifadə edilməsi üzrə Dövlət Proqramının hissələridir və mən hesab edirəm ki, təhsilə qoyulan sərmayə gələcəyə və gənc nəsillərimizə xidmət edən sərmayədir.

Azərbaycanın ən böyük problemi ərazimizin 20 faizinin on beş ildən çoxdur ki, Ermənistan tərəfindən işğal edilməsidir. Bunun nəticəsində 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Onların müəyyən hissəsi qaçqın düşərgələrində məskunlaşıbdır. Biz bu reallığı beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağa çalışırıq. Bu çətinliklərə baxmayaraq, hökumət qaçqın və məcburi köçkünlər üçün yaxşı təhsilin təmin edilməsinə çox çalışır.





Mən həmçinin Heydər Əliyev Fondu haqqında bir neçə söz demək istəyirəm. Bu Fond 2004-cü ilin may ayında yaradılmışdır və onun məqsədi təhsil, mədəniyyət, sağlamlıq, elm və ətraf mühit sahələrində müxtəlif layihələri dəstəkləməkdən ibarətdir.

Yaradıldığı gündən etibarən Heydər Əliyev Fondu mədəni irsin təşviq olunması və ölkəmizdə təhsilin inkişafı üçün bir çox işlər görmüşdür. "Yeniləşən Azərbaycana yeni məktəb" adlı proqramımız çərçivəsində 200-dən çox məktəb binası tikilmiş və tam təchiz olunmuşdur. Onların bir neçəsi ən ucqar kəndlərdə inşa edilmişdir. Biz uşaq evlərində yaşayan balaların təhsilinə xüsusi diqqət yetiririk. Onların yaşadığı binalar müasirləşdirilmiş, kompyuter və kitabxanalarla təchiz olunmuşdur. BMT-nin İnkişaf Proqramı ilə həyata keçirdiyimiz birgə layihə çərçivəsində Bakıda görmə qabiliyyəti zəif olan uşaqlar üçün audio kitabxana ilə təhiz olunmuş xüsusi təhsil mərkəzi tikilmişdir.

Fondumuzun beynəlxalq təşkilatlarla, xüsusən də YUNESKO və İSESKO ilə olduqca sıx əlaqələri var. Bu baxımdan, hesab edirəm ki, YUNESKO-nun Təhsil Məsələləri üzrə Regional Mərkəzi Azərbaycanda təsis edilə bilər və bu qurumda "Hamı üçün təhsil" proqramı üzrə işçi qrupu görüşlər keçirə və bu sahədəki irəliləyişi müzakirə edə bilər. Yekun olaraq, bildirmək istəyirəm ki, Böyük İpək Yolunun mərkəzində yerləşən Azərbaycan qədim zamanlardan Şərq ilə Qərb arasında körpü olmuşdur. İndi isə biz yenidən təhsil və mədəniyyət körpüsü rolunu oynamağa hazırıq.

Mən bu cür mühüm tədbirə və olduqca səmimi qonaqpərvərliyə görə konfransın təşkilatçılarına - YUNESKO-ya və Qətər Elm, Təhsil və İcmanın İnkişafı Fonduna bir daha öz minnətdarlığımı bildirir, Sizə uğurlar və səmərəli iş arzulayıram.

Sonra çıxış edən Suriya Prezidentinin xanımı Əsma əl-Əsəd vurğu-

ladı ki, Qurani-Kərimdə göstərildiyi kimi, hər bir uğur "Oxu" kəlməsi ilə bağlıdır.

Livan Prezidentinin xanımı Andre Ləhud qloballaşma şəraitində savadsızlığın aradan qaldırılmasına daha çox ehtiyac duyulduğunu bildirdi.

Konfransda ABŞ Prezidentinin xanımı Lora Buşun videoçıxışı göstərildi, YUNESKO-nun Qətərdəki nümayəndəsi, sudanlı yazıçı Əs-Səid Saleh çıxış etdi.

Daha sonra savadsızlıqdan bəhs edən film nümayiş etdirildi.

Konfransın birinci gününün axırında Qətərin birinci xanımı Şeyxa Muzanın adından iştirakçıların şərəfinə ziyafət verildi. Mehriban Əliyeva ziyafətdə iştirak etdi.

Martın 13-də öz işini davam etdirən konfransda, əsasən, ərəb ölkələrinin ucqar kənd yerlərində savadsızlığın ləğvi məsələləri müzakirə olundu. Bu yöndə hazırlanmış layihələr və həyata keçirilən proqramlar ətrafında fikir mübadiləsi aparıldı.

Həmin gün Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın və Qətərin birinci xanımı Şeyxa Muzanın görüşü oldu. Təhsil problemləri barədə söhbət gedən görüşdə Mehriban xanım Qətərin birinci xanımını ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qarşılandı.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın həmin gün Suriya Prezidentinin xanımı Əsma əl-Əsəd və Livanın birinci xanımı Andre Ləhud ilə görüşlərində də qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi edildi.

Görüşlər zamanı Mehriban Əliyeva İSESKO-nun üzvü olan bütün ölkələrin birinci xanımlarının Bakı forumunun keçirilməsi təşəbbüsünü irəli sürdü. Bu təşəbbüs razılıqla qarşılandı və qəbul olundu. Martın 13-də Mehriban Əliyeva YUNESKO-nun baş direktoru Koişiro Matsuuranın adından konfrans iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etdi.





Azərbaycanın birinci xanımı Qətər Əmiri xanımının müşayiəti ilə həmin gün Qətər Fondunun Dohadakı "Təhsil şəhərciyi" ilə də tanış oldu. Mehriban xanıma şəhərcik haqqında ətraflı məlumat verildi, burada təhsil alan uşaqların əl işləri və yaradıcılıq nümunələri təqdim edildi. Martın 13-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Qətərə səfəri başa çatdı. Doha hava limanında Qətərin birinci xanımı Şeyxa Muza ilə söhbət edən Mehriban Əliyeva uğurlu və maraqlı keçən səfərə görə minnətdarlığını bildirdi. Şeyxa Muza yüksək qonağı böyük hörmət və ehtiramla yola saldı.

***AzərTAc***
***"Xalq qəzeti",***
***15 mart 2007-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ MEHRİBAN XANIM ƏLİYEVA ƏQLİ VƏ FİZİKİ CƏHƏTDƏN QÜSURLU UŞAQLARIN TƏHSİL ALDIĞI MƏKTƏBLƏRDƏ OLMUŞDUR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva martın 15-də Təhsil Nazirliyinin Bakının Nəsimi rayonundakı 268 nömrəli yardımçı məktəbində olmuşdur.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

1905-ci ildə inşa edilmiş bu binada məktəb 1927-ci ildən fəaliyyət göstərir. Uzun illər təmir olunmayan bina yararsız vəziyyətə düşmüşdü. Mehriban xanım 2003-cü ildə ilk dəfə buraya gələrkən vəziyyətlə yerində tanış olmuş, onun təşəbbüsü ilə məktəbin Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı şəkildə təmirinə və yenidən qurulmasına başlanmışdır. 2005-ci ilin yanvarında işlər başa çatdırılmışdır. Burada ayrıca daimi istilik sistemi qurulmuş, yeməkxana, idman kompleksi də tikilmişdir. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmişdir, burada tibb otağı, loqopediya və s. kabinetlər vardır.

Azərbaycan birinci xanımının buraya ilk gəlişindən sonra məktəbin fəaliyyətində də əsl canlanma yaranmışdır. İndi burada əvvəlkindən 3 dəfə çox, əqli və fiziki cəhətdən zəif inkişaf etmiş 130 uşaq təhsil alır. Bundan iki dəfə çox uşağa isə ailələrdə xüsusi tədris proqramı





keçirilir. 15 sinif və 6 qrupda uşaqların təlim-tərbiyəsi ilə 140 müəllim və tərbiyəçi məşğul olur. Uşaqlara gündə 2 dəfə yemək verilir. Valideynlər iş gününün sonunda onları evlərinə aparırlar.

Məktəbin əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotoguşə, ümummilli lider Heydər Əliyevin uşaqlarla unudulmaz görüşlərinə, Fondun həyata keçirdiyi layihələrə, Mehriban xanımın bu məktəbdə keçirdiyi görüşlərə həsr olunmuş foto şəkillər, dəhlizləri və sinif otaqlarını bəzəyən gül-çiçək dibçəkləri, göz oxşayan səliqə-sahman diqqəti cəlb edir.

Mehriban xanım məktəbin bayramsayağı bəzədilmiş salonunda uşaqların Novruz bayramı münasibətilə hazırladıqları musiqili-əyləncəli kompozisiyaya tamaşa etdi, onların sevincinə qoşularaq uşaqlarla birlikdə rəqs etdi. Uşaqların məharətlə ifa etdiyi yumoristik səhnələr, oynaq, şux rəqslər hörmətli qonağa, valideynlərə xoş ovqat bəxş etdi.

Mehriban Əliyeva məktəbin kompüter otağına da baxdı. Burada uşaqlar kompüterlərdə sərbəst işləyirdilər. Onlar Mehriban xanımın suallarını, verdiyi tapşırıqları bacarıqla yerinə yetirdilər.

Uşaqların əmək təlimi dərsində əldə etdiyi uğurlar, emalatxanada nümayiş etdirilən işlərində özünü göstərirdi.

Yardımçı məktəbin yeməkxanasında açılmış bayram süfrəsi də uşaqların ürəyincə oldu. Şəkərbura, paxlava, meyvə-tərəvəz, şərbətlər düzülmüş bol süfrə arxasında uşaqlarla birlikdə əyləşən Mehriban xanımdan qızı Arzu və Leylanı soruşdular, ötən dəfə onlarla birlikdə rəqs etdiklərini, birgə şəkil çəkdirdiklərini xatırlatdılar, hətta onların harada və hansı uşaqlarla yanaşı oturduqlarını da yada saldılar. Mehriban xanım uşaqların bu diqqət və yaddaşından mütəəssir oldu, növbəti görüşlərində mütləq onları da gətirəcəyini bildirdi. Buraya toplaşan valideynlər bu qayğıkeşliyinə görə Mehriban xanıma minnətdarlıq etdilər, onun artıq bu uşaqların sevimlisinə çevrildiyini vur-

ğuladılar.

Valideyn Nisə Abbasova Fondun prezidentinə müraciətlə dedi ki, qızı Sevda hər dəfə Sizi televizorda görəndə "Mehriban xala, Mehriban xala" deyərək, hamını Sizə baxmağa, söhbətinizi dinləməyə çağırır, onu öpdüyünüzü yada salır.

Mehriban xanım Heydər Əliyev Fondunun əqli və fiziki cəhətdən zəif inkişaf etmiş, xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həllinə, onların valideynlərinin, doğma və əzizlərinin mənəvi ağrılarına şərik olmağı özünün borcu hesab etdiyini, bunun üçün mümkün olan tədbirləri görməyə çalışdığını bildirdi.

Mehriban xanım uşaqlarla birlikdə xatirə şəkilləri çəkdirdi.

Əziz qonağı səmimiyyətlə yola salan uşaqların əhval-ruhiyyəsindən bu görüşün də onların qəlbində şirin xatirəyə çevriləcəyi hiss olunurdu.

Nərimanov rayonundakı kor və zəif görən uşaqlar üçün respublika internat məktəbinin qarşısında Mehriban xanıma gül-çiçək dəstəsi təqdim edən uşaqlar bu məktəbin əsaslı şəkildə təmirinə, yenidən qurulmasına, təzə avadanlıqla təmin olunmasına göstərdiyi qayğıya görə minnətdarlıqlarını bildirdilər, indi burada onların rahatlığı üçün hər cür şərait yaradıldığını söylədilər.

"Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulmuşdur". "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar tək deyil" sözləri yazılmış lövhələrin də asıldığı foyedə bu təhsil ocağının bərpadan əvvəlki acınacaqlı görkəmini və hazırkı vəziyyətini əks etdirən stend, ulu öndər Heydər Əliyevin uşaqlara diqqət və qayğısından bəhs edən, habelə Fondun prezidenti Mehriban xanımın bu təhsil ocağında keçirdiyi görüşlərə dair fotoguşələr yaradılmışdır.

Direktor məlumat verdi ki, 61 ildir fəaliyyət göstərən məktəbdə hazırda 300 uşaq təlim-tərbiyə alır. Onların yarısı tamamilə görmür, 27-si 1-ci qrup əlildir. Burada 100 müəllim və tərbiyəçi çalışır, onların da əksəriyyətinin görmə qabiliyyəti zəifdir.





Mehriban xanımın bu məktəbə ilk gəlişindən sonra Heydər Əliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində 2005-ci ilin sonunda məktəbin əsaslı təmiri və yenidən qurulmasına başlanmışdır. İşlər qısa vaxtda keyfiyyətlə başa çatdırılmış, daimi istilik sistemi quraşdırılmış, yeməkxana, idman kompleksi də tikilmişdir. Uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün nümunəvi şərait var.

Məktəbin həyətində geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, burada istirahət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər. Məktəb təzə avadanlıqla tam komplektləşdirilmiş, uşaqların müayinəsinə, müalicəsinə kömək məqsədi ilə müasir avadanlıqla təchiz olunmuş tibb kabinetləri təşkil edilmişdir.

12 illik təhsil proqramından sonra attestat alan məzunlar test imtahanları ilə ali məktəblərə daxil ola bilirlər. Ötən il 14 nəfər məzundan 4-ü ali, 2-si isə orta ixtisas məktəblərinə daxil olmuşdur. Məzunlar arasından xeyli istedadlı adamlar çıxmışdır. Onlardan biri də bəstəkar İsrail Kərimov idi.

Sinif, yataq otaqları, fənn kabinetləri ilə ətraflı tanış olan Mehriban xanım proqram və dərsliklərlə təminat, kadrların ixtisas hazırlığı ilə maraqlandı.

Uşaqlar Azərbaycanın birinci xanımını Novruz bayramı münasibətilə xüsusi olaraq bəzədilmiş yeməkxanada təşkil edilmiş şənliyə dəvət etdilər. Süfrədə müxtəlif yeməklər, səməni, bol şirniyyat, meyvə-tərəvəz vardı. Məktəbin şagirdi Əsgər Əliyevin ifa etdiyi şən, oynaq mahnı və Kosa, Keçəl, Bahar qızın göstərdiyi səhnəciklər, şən, şux zarafatlar, rəqslər uşaqlarda hədsiz sevinc doğurdu. Mehriban xanım uşaqlarla birlikdə süfrə arxasında bayram plovundan daddı, yumurta döyüşdürdü, buraya tez-tez gələcəyini bildirdi.

Şagirdlərdən Zeynəb Nəcəfova, Ləman Abdullayeva, Leyla Mərdanlı, Hüseyn Əliyev Fondun prezidenti Mehriban xanım Əliyevanın məktəblilərin sevimlisi olduğunu bildirərək ona, Azərbaycan Prezidenti İlham Əliyevə və ailə üzvlərinə ən xoş Novruz arzularını çatdırdılar.

Mehriban Əliyeva Fondun BMT-nin İnkişaf Proqramı ilə birgə həyata keçirilən "Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi" layihəsi çərçivəsində bu məktəbdə görülmüş işlərlə də tanış oldu.

Respublikamızda kor və ya görmə qabiliyyəti zəif olan şəxslərin sayı təxminən 40 min nəfərdir. Fond onlara informasiya toplamaq və məşğulluğunu artırmaq üçün əlavə imkanlar yaratmaq mexanizmi kimi, İKT-dən istifadənin təşkilini zəruri sayınış, BMT-nin İnkişaf Proqramı ilə birgə Milli Strategiya hazırlamışdır.

Məktəbin kompüter mütəxəssisləri bildirdilər ki, geniş zal elektron kitabxana üçün uyğunlaşdırılmış, Almaniya istehsalı olan 2 kompüter dəsti alınıb quraşdırılmışdır. Bu kompüterlər xüsusi olaraq kor və görmə qabiliyyəti zəif uşaqlar üçün hazırlanmış son model texnologiyadır. Uşaqlar üçün Model İKT sinifləri yaradılmış, proqram təminatı lokallaşdırılmış, internetə çıxışın təmin olunması və tədris-təlim proqramlarının hazırlanması, audio studiya və kitabxananın fəaliyyəti təmin edilmişdir.

Texnologiyanın işləmə mexanizmi əyani şəkildə göstərildi. Bildirildi ki, Brayl əlifbası ilə Azərbaycan, rus və ingilis dillərində olan istənilən kitabı kompüterin yaddaşına köçürüb oxumaq, səsləndirib dinləmək mümkündür. Musiqiyə qulaq asmaq, internetə girmək, məktublaşmaq, 100 min səhifəlik materialı yaddaşda saxlamaq, surətini çıxarmaq, SMS göndərmək, o cümlədən mobil telefonlara da mesaj göndərmək olur. Burada dərsliklər əldə edilib çap olunur. Gözdən əlil insanlar artıq bu texnologiyadan evlərinə də alıb fərdi qaydada istifadə etmək arzusundadırlar. Burada onlarla işləməyi öyrədən bacarıqlı mütəxəssislər vardır. Fondun köməyi ilə xaricdən mütəxəssislər dəvət olunmuş, məşğələlər keçirilmişdir, bizim mütəxəssislər də Almaniyada olmuşlar. Respublika Korlar Cəmiyyəti ilə birgə işlər aparılır.





Fondun icraçı direktoru Anar Ələkbərov əlavə etdi ki, layihədə nəzərdə tutulmasa da, Mehriban xanımın təşəbbüsü ilə ötən il bizim nümayəndələr bu avadanlığı alıb gətirmək üçün Almaniyanın Frankfurt şəhərində keçirilən beynəlxalq sərgidə olarkən alman mütəxəssislər ölkəmizdə belə layihənin həyata keçirildiyini eşidəndə təəccüblənmişdilər. Bildirmişdilər ki, belə layihə MDB-də birinci olaraq sizin respublikanızda həyata keçirilir, hətta, Avropanın bir çox qabaqcıl dövlətlərində də onun reallaşmasına girişməyə cəsarət etmirlər. BMT İnkişaf Proqramının ölkəmizdəki missiyasının rəhbərliyi də yaxın vaxtlarda bu məktəbdəki elektron kitabxanaya gəlib tanış olmaq istədiklərini bildirdi.

Görmə qabiliyyəti olmayan, yaxud zəif görən hər bir uşağa dəstək vermək, onların həyatının çətinliyini azaltmağa Fondun prioritet fəaliyyət sahəsi hesab etdiyini bildirən Mehriban xanım layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tədbirləri müsbət dəyərləndirdi,bundan sonra görüləcək işlərə dair tövsiyələrini verdi, layihənin perspektivləri barədə fikirlərini açıqladı.

Heydər Əliyev Fondunun prezidenti bildirdi ki, BMT İnkişaf Proqramının da belə bir layihəyə dəstək verməsi həm ölkəmizdə gedən uğurlu islahatlara inamın, həm də Fondun indiyədək qarşıya qoyduğu məqsədlərə çatmaq üçün iradə nümayiş etdirməsinin nəticəsidir.

***"Xalq qəzeti",***
***16 mart 2007-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNUN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR

MARTIN 16-DA BAKININ NİZAMİ RAYONUNDA HEYDƏR ƏLİYEV FONDUNUN TƏLİM-TƏDRİS MƏRKƏZİNİN AÇILIŞI OLMUŞDUR. FONDUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN XANIM ƏLİYEVA MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR.

Uşaqlar Mehriban xanımı səmimiyyətlə, gül-çiçəklə qarşıladılar.

2005-ci ilin noyabrında inşasına başlanmış, 1500 kvadratmetr sahəsi olan üçmərtəbəli bina bütün fənlər üzrə ali məktəblərə, eləcə də ondan sonrakı mərhələlər üçün hazırlıq kurslarının təşkili məqsədi ilə tikilmişdir. Burada hər növbədə 100 nəfər olmaqla gündə 3 növbədə 300 nəfərin məşğul olması üçün rahat şərait yaradılmışdır. Fənlərdən və uşaqların sayından asılı olaraq, 3,4, 8 nəfərlik otaqlar təzə, rahat avadanlıqla təchiz olunmuşdur. Valideynlər üçün gözləmə otağı da var. Hər mərtəbənin foyesində ümummilli lider Heydər Əliyevin uşaqlara sonsuz məhəbbətini, diqqət və qayğısını əks etdirən fotostendlər, rəsm əsərləri asılmış, divan-kreslolar, jurnal stolları qoyulmuşdur. Ayrıca istilik sistemi, sanitar qovşağı olan mərkəzin konfrans salonunda müxtəlif tədbirlərin keçirilməsi üçün elektron avadanlıq quraşdırılmışdır. Burada paytaxtın bütün məktəbləri tədbirlərini keçirə biləcək, uşaqlar üçün tanınmış alim və mütəxəssislərini mühazirələri, onlarla görüşlər təşkil olunacaqdır. Fondun balansında olan mərkəzin imkanlarından heç bir məhdudiyyət qoyulmadan arzu edən bütün məktəblilər, gənclər istifadə edəcəklər. Özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərəcək mərkəzdə imkansız ailələrin uşaqları üçün güzəştlər nəzərdə tutulacaq, uşaq evlərindən və internet məktəblərindən gələnlər isə pulsuz məşğul olacaqlar. Mərkəzin həyətində istirahət guşələri yaradılmış, yaşıl xiyaban salınmışdır.





Mərkəzin xidməti və sinif otaqları ilə tanış olan Mehriban xanım yüksək sürətli internetə qoşulu kompüterlərin alınıb quraşdırılmasından, kompüter salonunun zövqlə tərtib edilməsindən, bütövlükdə görülən işin keyfiyyətindən razı qaldığını bildirdi.

Bakı Şəhər Baş Təhsil İdarəsinin rəisi Nailə Rzaquliyeva ilə söhbətində bu mərkəzin imkanlarından gənc nəslin yüksək elmi-nəzəri, praktik biliklərə yiyələnməsi üçün səmərəli istifadə edilməsi ilə bağlı tövsiyələrini, təkliflərini bildirən Mehriban xanım, mərkəzin müəllim və rəhbər kadrlarının ən nümunəvi, bilikli, peşəkar insanlardan seçilməsində Fonda kömək göstərməyi də xahiş etdi, birgə fəaliyyət üçün təkliflər hazırlanmasının gərəkliyini vurğuladı.

Mehriban xanım sonra Nizami rayonundakı 1 nömrəli uşaq evində Heydər Əliyev Fondunun təşkil etdiyi Novruz şənliyində iştirak etdi.

Uşaq evinin sakinləri Azərbaycanın birinci xanımını böyük səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Bayramsayağı bəzədilmiş foyedə uşaqların ifa etdikləri oynaq mahnılar və rəqslər görüşə xoş ovqat bəxş etdi. Milli geyimli oğlan və qızların xalı, geyim, bəzək əşyalarını bacarıqla toxuması, onların əl işlərinin sərgisi Mehriban xanımda xüsusi maraq doğurdu.

Mehriban xanım uşaq tərbiyə müəssisəsinin bahar rəngləri ilə bəzədilmiş yeməkxanasında Novruz bayramı münasibətilə hazırlanmış musiqili-əyləncəli kompozisiyaya da tamaşa etdi. Fondun əməkdaşları masalar üstünə hər cür bayram şirniyyatı, meyvə-tərəvəz düzmüş,

xidmətçilərlə birlikdə uşaqlara qulluq edirdilər.

2003-cü ildən fəaliyyətə başlayan, dəfələrlə respublika müsabiqələrinin qalibi olmuş, xarici ölkələrə səfərlər etmiş "Azəri" mahnı və rəqs ansamblının çıxışları hərarətlə qarşılandı. Ansamblın bədii rəhbəri Rövşən Məmmədov, baletmeysteri Nazim Abdullayevdir. Kollektiv İstanbulda keçiriləcək ənənəvi uşaq bayramında iştirak etmək üçün apreldə Fondun maliyyə dəstəyi ilə qardaş Türkiyəyə gedəcəkdir. Təravət və İbrahimin oynadığı müasir bal rəqsi, Yasəmən və Yalçının "Naz eləmə" rəqsi, ansamblın ifa etdiyi "Çobanlar", "Arpa çay", "Azərbaycanım" mahnı-rəqsləri, balaca aktyorların Novruz personajlı yumoristik səhnələri, şənlik iştirakçılarının hamılıqla "Yallı" getməsi əsl bayramı ovqatından xəbər verirdi.

Fondun prezidenti özü ilə bir masa arxasında oturmuş uşaqlara bayram plovu çəkdi, onlarla birlikdə əyləndi, xatirə şəkilləri çəkdirdi.

Hər dəfə bu uşaq evində yeniliklər gördüyünü bildirən Mehriban xanım yeni təşkil olunmuş oxu zalına da baxdı, uşaqların asudə vaxtlarını səmərəli keçirməsi üçün yaradılmış nümunəvi şəraitdən razı qaldı.

Direktor Nərminə Zöhrabova xalqımızın əziz bayramı münasibətilə Mehriban xanımı uşaq evinin sakinləri adından təbrik etdi. Minnətdarlıqla bildirdi ki, dəfələrlə buraya gələn Mehriban xanımın təşəbbüsü ilə HeydərƏliyev Fondunun həyata keçirdiyi "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində əsaslı təmir edilən və yenidən qurulan bu təlim-tərbiyə ocağında uşaqların bədii-estetik zövqlərinin formalaşması, asudə vaxtlarının təşkili üçün hər cür şərait var. Həyətdə geniş abadlıq işləri görülmüş, yaşıllıqlar salınmış, istirahət guşələri yaradılmışdır. Uşaqlar açıq havada gəzməyi, istirahət etməyi, idman oyunları ilə məşğul olmağı çox sevirlər. Uşaq evi təzə avadanlıqla tam komplektləşdirilmiş, müasir səviyyədə təchiz





olunmuş tibb kabinetləri təşkil edilmişdir. Hazırda burada 107 uşaq vardır, xidmətçi heyət də daxil olmaqla, onların təlim-tərbiyəsi ilə 44 nəfər məşğul olur. Bu uşaq evinin yetirmələri dəfələrlə müxtəlif idman, rəsm, musiqi müsabiqələrində qalib gəlmiş, diplom və fəxri fərmanlar almışdır. Mehriban xanım uşaqlara və tərbiyəçi müəllimlərə Novruz bayramı münasibətilə xoş arzularını çatdırdı.

Mehriban Əliyevanın həmin gün Novruz bayramı münasibətilə daha bir görüşü Suraxanı rayonundakı 2 nömrəli uşaq evində oldu.

Ötən il buraya gələndə Mehriban xanım bu təlim-tərbiyə müəssisəsinə mikroavtobus bağışlamışdı. O vaxt burada yeməkxana olmadığına görə uşaqlara yeməyin otaqlarda verildiyini bildikdə, yeməkxana tikilməsinə təşəbbüs göstərmişdi. Mehriban xanım uşaq evinin yataq otaqlarına, tibb məntəqəsinə baxdıqdan sonra təzə tikilmiş, 380 kvadratmetr sahəsi olan yeməkxanaya gəldi. Ərazinin əvvəlki vəziyyətini və indiki görünüşünü əks etdirən fotolara baxdı, yeməkxananın ərzaq anbarında, mətbəxində oldu, ərzaq ehtiyatı, normaları, sanitariya vəziyyəti ilə maraqlandı. Buranın ən yaşlı xidmətçisi olan Həqiqət Sultanova yaradılan belə gözəl şəraitə görə hamının razılığını Mehriban xanıma çatdırdı. Eyni zamanda dedi ki, Xocalı qırğını haqqında əsl həqiqətin dünyaya yayılması üçün gördüyü işlərə görə xüsusi minnətdarlıq etməyi özümə borc bilirəm. Bayram süfrəsi arxasında hər kəs öz yerini tutduqdan sonra uşaq evində təlim-tərbiyə işinin təşkilindən, uşaqların müxtəlif sahələrdə əldə etdiyi uğurlardan bəhs edən film göstərildi. 4 yaşlı Aytac isə əsl körpə məhəbbəti ilə Mehriban xanımın boynuna sarılıb ondan aralanmırdı. Bütün uşaqlar Mehriban xanımı salamladılar. Sonra şənliyin aparıcıları Mehriban xanıma müraciətlə dedilər: "Əziz Mehriban xanım, bizimlə Novruz bayramı sevincini bölüşməyə xoş gəlmisiniz. Biz Sizi əziz bayramımız münasibətilə ürəkdən təbrik edirik. Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində görülən

işlər xalqımızın minlərlə ailəsinə rahatlıq, sevinc bəxş etmiş, yaxşı təhsil imkanı yaratmışdır.

Digər 28 belə uşaq evi, internat məktəbi kimi, bizim müəssisə də Sizin təşəbbüsünüzlə həyata keçirilən "Uşaq evləri və internat məktəblərinin inkişaf proqramı" çərçivəsində təmir edilərək təzə avadanlıqla tam təchiz olunmuş, rahatlığımız üçün hər cür şərait yaradılmışdır. Söz veririk ki, bizə göstərdiyiniz qayğıya cavab olaraq səylə oxuyacaq, vətənimizə, xalqımıza gərəkli insanlar olacağıq.

Sizə və hörmətli Prezidentimizə gördüyünüz böyük işlərdə müvəffəqiyyətlər arzulayırıq. Bu bayram günündə Sizə öz sevgi və məhəbbətimizi bildiririk".

Mahnı və rəqslər bir-birini əvəz etdi, uşaqlar Novruz səhnəcikləri göstərdilər, yeyib-içib şənləndilər. Fondun prezidenti buradan ayrılarkən bir daha hamını bayram münasibətilə təbrik etdi, tərbiyəçilərdən onların əməyinin ən böyük savab iş olduğunu unutmamağı, uşaqlara öz balaları kimi baxmağı xahiş etdi.

*"Xalq qəzeti",*
***17 mart 2007-ci il***





# HEYDƏR ƏLİYEV FONDUNDA GÖRÜŞ

Ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Baş nazirinin xanımı Əminə Ərdoğan martın 9-da Heydər Əliyev Fondunda olmuşdur.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Türkiyə Baş nazirinin xanımını və qızı Sümeyyəni səmimiyyətlə qarşıladı.

Çay süfrəsi arxasında başlayan söhbət zamanı Mehriban xanım 2004-cü ilin mayında ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış Fondun məqsədləri barədə məlumat verdi. Bildirdi ki, Fondun əsas məqsədləri görkəmli siyasi xadim Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə xidmət edən genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, xarici qonaqlarda əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu beynəlxalq layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar ölkə daxilində və xaricdə aparılan işlərə kömək göstərməkdən ibarətdir. Son 2 ildə respublikanın bütün regionlarında, hətta, indiyədək məktəbi olmayan ən ucqar kəndlərdə fondun təşəbbüsü ilə 200-ə yaxın müasir tipli məktəb tikilib istifadəyə verilmiş, bütün lazımi avadanlıqlarla təmin edilmişdir. Səhiyyə sahəsində, xüsusilə talassemiya və şəkərli diabetdən əziyyət çəkən xəstələrin müalicəsinə yardım məqsədi ilə genişmiqyaslı layihələr reallaşdırılmış, 4 minə qədər vətəndaşın müalicəsinə kömək göstərilmişdir. Fond həm də elmin, mədəniyyətin inkişafına, informasiya texnologiyalarının tətbiqinə dair bir neçə layihəni həyata

keçirmiş, ali məktəblərə müxtəlif dillərdə nəşr olunmuş 20 minədək dərslik və digər elmi kitablar alıb hədiyyə etmiş, 29 uşaq evi internat məktəbinin yenidən qurulmasına dəstək vermişdir. Son illər Türkiyə ilə Azərbaycan arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyini, gündən-günə möhkəmləndiyini faktlarla vurğulayan Mehriban xanım, Fondun qardaş ölkənin ictimai təşkilatları ilə əlaqələrinin genişlənməsində maraqlı olduğunu bildirmişdir. Hörmətli qonaq Mehriban xanımın və onun rəhbərlik etdiyi Fondun genişmiqyaslı xeyriyyəçilik fəaliyyətini yüksək dəyərləndirdi, ona nəcib işində yeni uğurlar arzuladı.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Türkiyə Baş nazirinin xanımına xatirə hədiyyəsi bağışladı. Mehriban xanım Əliyeva, Türkiyə Baş nazirinin xanımı və onu müşayiət edən qonaqlar Fondun kinosalonunda qurumun fəaliyyətinə həsr olunmuş sənədli filmə baxdılar.

*"Xalq qəzeti",*
***10 mart 2007-ci il***





# AZƏRBAYCANIN XALÇAÇILIQ SƏNƏTİ TÜRKİYƏ BAŞ NAZİRİNİN XANIMINDA ZƏNGİN TƏƏSSÜRAT YARATMIŞDIR

Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Türkiyə Baş nazirinin xanımı Əminə Ərdoğan martın 9-da "Azər-İlmə" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Azərbaycan xalçası qalereyası"nda olmuşlar. Hörmətli qonaqları burada səmimiyyətlə, gül-çiçəklə qarşıladılar. Məlumat verildi ki, xalçaçılıq Azərbaycan xalqının ən qədim sənətlərindən biridir. Qədim səyyahlar, salnaməçilər ölkəmizdə toxunan xalı-xalçanın yüksək keyfiyyəti, zəngin çeşniləri barədə yazılı məlumatlar vermiş, Şirvan, Təbriz, Qarabağ, Qazax, Gəncə, Quba xalçalarının Böyük İpək yolu üstündəki bütün ölkələrdə məşhur olduğunu bildirmişlər. Azərbaycanın xalı və xalçaları indi də dünyanın bir çox muzeylərinin ən nadir eksponatlarından sayılır. 350 nəfərin çalışdığı bu müəssisənin məhsulları ABŞ, Almaniya, Avstriya, İngiltərə, İtaliya, Yaponiya, Rusiyada keçirilən satış sərgilərində xüsusi mükafat və sertifikatlara layiq görülmüşdür. Ipləri boyamaq üçün ancaq təbii rənglərdən istifadə edilir, eskizlər yalnız milli naxış və çeşnilərdən götürülür. İşlədilən bütün xammal yerli məhsullardır. Hörmətli xanımlar qalereyanın zəngin eksponatlarına baxdılar, boyama, toxuma prosesini maraqla izlədilər, xalçaçı qızlarla səmimi söhbət etdilər. Əminə xanım və qızı Sümeyyə onların köməyi ilə, özlərinin də dedikləri kimi, ömürlərində ilk dəfə olaraq bir neçə ilmə vurdular. Mehriban xanım

isə böyüklərdən bu sənətin sirlərini səylə öyrənən 6 yaşlı Həlimə ilə söhbət etdi, xalçaçı qızların güzəranı, maddi-məişət şəraiti ilə bağlı suallar verdi.

Onların əməyinə, sənətinə belə yüksək qiymət verən Mehriban Əliyeva və Əminə Ərdoğanın qayğıkeşliyi, səmimiyyəti xalçaçı qızlarda xoş ovqat yaratdı. Azərbaycanın birinci xanımı və Türkiyə hökuməti başçısının xanımı xalçaçı qızlara işlərində uğurlar arzuladılar.

Əminə xanım Ərdoğan Azərbaycan xalçalarının gözəlliyindən, ölkəmizdə bu qədim el sənətinin belə məhəbbətlə yaşadılmasından məmnun qaldığını, bu xalça muzeyindən zəngin, unudulmaz təəssürat aldığını bildirdi. Hörmətli qonağa xatirə olaraq hədiyyə verildi.

***"Xalq qəzeti",***
***10 mart 2007-ci il***





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

Azərbaycan respublikasının birinci xanımı, Heydər Əliyev Fondunun prezdenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva aprelin 2-də Fransaya səfərə gəlmişdir.

Mehriban xanım Əliyeva həmin gün Fransa baş nazirinin iqamətgahında hökümət başçısı Dominik de Vülpenin xanımı Marillor de Vülpenlə görüşmüşdü.

Baş nazirin xanımı Mehriban xanım Əliyevanı iqəmmətgahın qarşısında səmimiyyətlə qarşılamışdı.

Xanım de Vülpen Mehriban xanım Əliyevaya Parisin ən qədim və möhtəşəm memarlıq abidələrindən olan Matinyon sarayının tarixi barədə danışmış, hörmətli qonağı ayrı-ayrı salonlarla tanış etmişdir. Conra Mehriban xanım iqəmətgaha daha əzəmətli görkəm verin bağdakı nadir ağac növlərinə, tarixi abidələrə də baxmışdır.

İqəmətgahla ümumi tanışlıqdan sonra Marillor de Vülpen ilə Mehriban Əliyevanın görüşü olmuşdur.

Görüş zamanı Baş nazirin xanımı rəhbərlik etdiyi cəmiyyətin ölkədəki əlil uşaqlara, onların təhsilinə göstərdiyi qayğıdan, bu qəbildən olan uşaqların ümumi orta təhsil almaları üçün cəmiyyətin hazırladı-

# LİTVA PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

Aprelin 3-də, YUNESKO-nun illik hesabat yığıncağından sonra Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva xoşməramlı səfir, Litvanın Prezidenti Valdas Adamkusla görüşmüşdür. Söhbət zamanı Mehriban xanım Əliyeva son illər ərzində Azərbaycanda mədəniyyət sahəsində görülmüş işlərdən, Heydər Əliyev Fondunun bu yöndə fəaliyyətindən danışmışdır Azərbaycana etdiyi səfərini xatırladan Valdas Adamkus onun salamlarını Prezident İlham Əliyevə çatdırmağı xahiş etmiş, bu səfərdən yüksək təəssürat aldığını xüsusi vurğulamışdır. Ölkələrimiz arasında mədəni əlaqələrin inkişaf etdirilməsinin zəruriliyini bildirən dövlət başçısı Prezident İlham Əliyevi və Mehriban xanım Litvaya səfərə dəvət etmişdir.Mehriban xanım Əliyeva bu dəvəti Azərbaycan Prezidentinin dtqqətinə çatdıracağını bildirmişdir.

*"Xalq qəzeti",*
*4 aprel 2007-ci il*





# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-nun VƏ İSESKO-nun XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ ZAMANI İORDANİYA KRALİÇASI RANİYƏ ƏL-ABDULLAH İLƏ GÖRÜŞ

Aprelin 3-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva və İordaniya kraliçası, YUNESKO-nun xoşməramlı səfiri Raniyə əl-Abdullah ilə görüşmüşdür.

YUNESKO-nun iqamətgahında keçirilən görüşdə xanım Raniyə əl-Abdullah rəhbərlik etdiyi İordan Çayı Fondunun xeyriyyə tədbirlərindən, valideyn qayğısından məhrum olmuş uşaqlara himayədarlıq edilməsi, onların hərtərəfli təhsil alması və digər sahələrdə gördüyü işlər barədə məlumat vermişdir.

Mehriban Əliyeva Heydər Əliyev Fondunun tarixindən, Azərbaycanda maddi və qeyri-maddi mədəni irsin qorunması, kimsəsiz uşaqlara göstərilən qayğı, təhsil sahəsində YUNESKO ilə birlikdə həyata keçirilən layihələr haqqında danışmışdır.

Sonra Mehriban xanım İordaniya mahnı və rəqslərinin təqdim edildiyi "İordaniya inciləri gecəsi" adlı konsert proqramına tamaşa etmişdir. Mehriban xanım YUNESKO-nun baş direktoru Koişiro

Matsuura və dijər xoşməramlı səfirlərlə birlikdə xatirə şəkli çəkdirmiş, baş direktorun və xoşməramlı səfir Şeyx Həsən İ.Şikerin xoşməramlı səfirlərin şərəfinə verdikləri ziyafətdə iştirak etmişdir.

*AzərTAc*
*"Xalq qəzeti",*
***5 aprel 2007-ci il***





# AZƏRBAYCAN-FRANSA MƏDƏNİ ƏLAQƏLƏRİ İNTENSİV XARAKTER ALMIŞDIR

Aprelin 4-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransanın mədəniyyət və kommunikasiya naziri Reno Donnedyö de Vabr ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfərindən sonra ölkələrimiz arasında təkcə siyasi-iqtisadi deyil, həm də mədəni əlaqələrin daha intensiv xarakter aldığı vurğulanmışdır. Azərbaycanın birinci xanımını yenidən Parisdə görməyindən məmnunluğunu bildirən nazir Fransa-Azərbaycan mədəni əlaqələrinin tarixini xatırladaraq bildirmişdir ki, bu ənənə indi də davam edir. Fransa qarşılıqlı mədəni əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf etdirilməsini istəyir.

Mədəni əlaqələrin genişlənməsi sahəsində Mehriban Əliyevanın çox önəmli xidmətlərindən xəbərdar olduğunu bildirmiş nazir ölkəmizin birinci xanımının Azərbaycan mədəniyyətinin dünyada tanıdılması sahəsindəki fəaliyyətini yüksək qiymətləndirmişdir.

Görüşdən məmnun qaldığını söyləyən Mehriban Əliyeva demişdir ki, 2007-ci il Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya dövlət səfəri ilə başlanmışdır və inanıram ki, bu il ölkələrimizin ikitərəfli əlaqələrində çox önəmli il olacaqdır.

Azərbaycanın birinci xanımının rəhbərlik etdiyi Heydər Əliyev Fondu dünyanın bir çox ölkələri və təşkilatları ilə mədəniyyət sahəsində əməkdaşlıq edir. Fond Fransada da mədəni tədbirlərin keçiril-

məsi, Azərbaycanın tanıdılması üçün konkret layihələrin reallaşdırılmasında maraqlıdır. Mehriban Əliyeva bu baxımdan ölkələrimizdə qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini təklif etmişdir.

Təklifi məmnuniyyətlə qarşılayan nazir bununla əlaqədar yaxın vaxtlarda hər iki ölkənin müvafiq səfirliklərinə hazırlıq işlərinin görülməsinə dair təlimat veriləcəyinə dair təlimat veriləcəyinə ümidvar olduğunu bildirmişdir. O, mədəniyyət sahəsində sərgilərin keçirilməsinin də vacibliyini vurğulamışdır.

Mehriban Əliyeva nazir Reno Donnedyö de Vabrı Azərbaycana səfərə dəvət etmişdir. Dəvət böyük razılıqla qəbul olunmuşdur.

*AzərTac*
*"Xalq qəzeti",*
***5 aprel 2007-ci il***





# AZƏRBAYCANIN BİRİNCİ XANIMI MEHRİBAN ƏLİYEVA FRANSA MİLLİ ASSAMBLEYASININ SƏDRİ PATRİK OLYE İLƏ GÖRÜŞMÜŞDÜR

Azərbaycan Respublikasının birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Fransaya səfəri çərçivəsində aprelin 4-də Milli Assambleyanın sədri Patrik Olye ilə görüşmüşdür.

Patrik Olye Mehriban xanımı Milli Assambleyanın binası önündə səmimiyyətlə qarşılamışdır.

Milli Assambleyanın sədri və Azərbaycanın birinci xanımı iki ölkənin bayraqları qarşısında xatirə şəkli çəkdirmişlər.

Mehriban Əliyeva ilə görüşdən məmnunluq duyduğunu bildirən Patrik Olye Azrəbaycanın Prezidenti İlham Əliyevin bu ilin yanvarında Fransaya dövlət səfəri zamanı Milli Assambleyadakı görüşünü xatırlamışdır.

Söhbət zamanı o, ölkələrimiz arasındakı mədəni sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyini xüsusi vurğulamış və Azərbaycanda Fransa, Fransada isə Azərbaycan mədəniyyəti günlərinin keçirilməsini təklif etmişdir.

Milli Assambleyanın sədri Azərbaycanın birinci xanımının bu fikrini böyük razılıq hissi ilə qarşılamış və bu məsələnin seçkilərdən sonra nəzərdən keçiriləcəyini vurğulamışdır. O demişdir ki, nəinki mədəniyyət sahəsində, eyni zamanda, iqtisadi sahədə də əməkdaşlığın inkişaf etdirilməsi üçün addımlar atılacaqdır. Milli Assambleyanın İqtisadi əlaqələr komitəsi üzvlərinin Azərbaycana səfəri təşkil ediləcək-

dir.

Palatanın sədri bildirmişdir ki, bu səfər ölkələrimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə kömək edəcəkdir.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxunulmuşdur. Milli Assambleyanın sədri ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha vurğulamış, Minsk qrupunun həmsədlərindən biri kimi Fransanın bundan sonra da münaqişənin sülh yolu həllinə səy göstərəcəyini söyləmişdir.

Söhbətdə Fransa Milli Assambleyası ilə Azərbaycan Milli Məclisinin parlament dostluq qrupları arasında əməkdaşlığın daha da inkişaf edtirilməsinin zəruriliyi vurğulanmışdır.

Mehriban xanım Əliyeva Fransanın bu mövqeyinə görə minnətdarlığını bildirmiş və cənab Patrik Olyeni Azərbaycana səfərə dəvət etmişdir. Milli Assambleyanın sədri dəvəti razılıq hissi ilə qarşılamışdır.

*"Xalq qəzeti",*
***5 aprel 2007-ci il***





*Əsgər ƏLİYEV,*
*AzərTAc-ın xüsusi müxbiri,*
*Paris*

# FRANSA XARİCİ İŞLƏR NAZİRİNİN XANIMI İLƏ GÖRÜŞ

Azərbaycan Respublikasının birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva aprelin 4-də, Fransaya səfəri çərçivəsində bu ölkənin xarici işlər nazirinin xanımı Dominik Kanteen ilə görüşmüşdür.

Fransa Xarici İşlər Nazirinin binasında keçirilən görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın, o cümlədən mədəni əlaqələrin inkişafından söhbət getmişdir. Bildirilmişdir ki, son illər iki ölkə arasında mədəni əlaqələrin inkişafına təkan verən müxtəlif tədbirlər keçirilmişdir.

Mehriban Əliyeva Fransa Senatının binasında Azərbaycan rəssamlarının sərgisinin, YUNESKO çərçivəsində Azərbaycan gününün keçirilməsini xüsusi qeyd etmşidir. Azərbaycanın birinci xanımı gələcəkdə ölkələrimizin daha da yaxınlaşması üçün mədəni tədbirlərin təşkilinin vacibliyini vurğulamışdır.

Xanım Dominik Kantyeen Azərbaycan və Fransa uşaqlarının keramika üzərində rəsmlərindən ibarət sərgilərin təşkil olunmasını təklif etmişdir. O, səhiyyə sahəsində də əməkdaşlığın inkişaf etdirilməsinin vacib olduğunu söyləmişdir.

Fransa xarici işlər nazirinin xanımını Azərbaycana səfərə dəvət edən Mehriban Əliyeva ümidvar olduğunu bildirmişdir ki, yaxın vaxtlarda hər iki ölkədə konkret mədəni tədbirlərin keçirilməsi baş tutacaqdır.

*"Xalq qəzeti",*
***5 aprel 2007-ci il***

# HEYDƏR ƏLİYEV FONDUNUN PREZİDENTİ, YUNESKO-NUN VƏ İSESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ, MİLLİ MƏCLİSİN DEPUTATI MEHRİBAN ƏLİYEVANIN FRANSAYA SƏFƏRİ

## AZƏRBAYCANIN BİRİNCİ XANIMI, YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRİ MEHRİBAN ƏLİYEVANIN ÇIXIŞI

Xəbər verdiyimiz kimi, aprelin 3-də, Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik yığıncağı keçirilmişdir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva yığıncaqda iştirak etmişdir.

Yığıncağı YUNESKO-nun baş direktoru Koişiro Matsuura açmışdır. Sonra sədrlik edən İordaniya şahzadəsi xanım FİRYAL Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı iştirakçılara təqdim edərək dedi:

- Mən olduqca fəal xoşməramlı səfir və çox hörmətli birinci xanımı təqdim etməkdən böyük məmnunluq duyuram. O öz ölkəsində və bütün dünyada bir çox xeyriyyə işlərinin həyata keçirilməsi məqsədi ilə yorulmaz fəaliyyət göstərir. Birinci xanım olduqca qısa müddət ərzində böyük nailiyyətlər əldə etmişdir. İndi isə mən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı şərəf hissi ilə təqdim edirəm.

- hörmətli cənab baş direktor,





Hörmətli xoşməramlı səfir!

Xanımlar və cənablar!

İlk növbədə, mən YUNESKO-nun iqamətgahında illik ənənəvi yığıncaqda bütün həmkarları salamlamaq, bu tədbiri təşkil etdiyinə görə baş direktor cənab Koişiro Matsuuraya minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, Qətərdə keçirilmiş "Tərəfdaşlığın qurulması və yeni yanaşmaların tətbiqi" mövzusunda uğurlu regional konfrans münasibətilə cənab Koişiro Matsuuranı təbrik edirəm. "Hamı üçün təhsil" proqramı çərçivəsində yekun regional konfrans 2008-ci ildə Azərbaycanda keçiriləcəkdir. Bu fürsətdən istifadə edərək mən sizi həmin konfransda iştirak etməyə dəvət edirəm. Əminəm ki, Bakı konfransı "Hamı üçün təhsil" proqramının həyata keçirilməsinə doğru atılmış əlavə uğurlu addım olacaqdır.

Ötən ilin yaddaqalan tədbirlərindən biri "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Assambleyasının birinci iclası oldu. Məmnunluqla sizə məlumat vermək istəyirəm ki, Azərbaycan həmin konvensiyanı bu ilin martında ratifikasiya etmişdir. Qeyri-maddi mədəni irs mədəniyyətin ifadə olunmasının ən qədim formalarından biridir. Təbii ki, qeyri-maddi mədəni irsin saxlanılması və qorunması qarşımızda duran əsas məsələlərdəndir.

Ötən il Heydər Əliyev Fondunun fəaliyyətində çox məhsuldar il olmuşdur. Bu günə qədər bir sıra layihələr artıq başa çatdırılmışdır. Onlardan biri, məsələn, "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir. Heydər Əliyev Fondu təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması sahələrində öz işini davam etdirmişdir. Mən bir neçə layihə haqqında əlavə məlumat vermək istəyirəm.

Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO "Orta əsrlər əlyazmalarında tibb və əczaçılıq" adlı ilk beynəlxalq

konfrans təşkil etmişdir. Tibb elminə aid Azərbaycanda saxlanılan üç nadir əlyazma Ümumdünya Yaddaş qeydiyyatına salınmışdır. Həmin qeydiyyatda ümumən 120 əlyazma öz əksini tapmışdır. Bu əlyazma nəinki ayrı-ayrı dövlətlər, o cümlədən bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir.

Konfransın işində bir çox ölkələrin tanınmış alimləri iştirak etmişdir və Fondumuz həmin mühüm proqrama dəstəyini davam etdirəcəkdir.

Heydər Əliyev Fondu memarlıq abidələrinin bərpasında fəal surətdə iştirak edir. Ötən il ərzində biz Cavad xanın türbəsi, Pir Həsən, Mövsum Səlim və Həzrəti Zeynəb məscidləri kimi bir sıra tarixi və dini abidələri bərpa etmişik.

Biz həmçinin ölkəmizin hüdudlarından kənarda yerləşən ümumbəşər mədəni abidələrin bərpasında iştirak edirik.

Bildiyiniz kimi, Versal sarayı 1979-cu ildən etibarən Dünya İrsi siyahısına salınmışdır. Sarayın parkında yerləşən bir neçə qədim abidə zamanın və iqlim şəraitinin təsiri nəticəsində zədələnmişdir. Təqribən 15 abidə təcili surətdə bərpa olunmalıdır. Fondumuz parkda iki abidənin bərpası məqsədi ilə 2006-cı ilin avqustun 10-da müqavilə imzalamışdır. Bərpa işləri 2007-ci ilin iyulun 15-də başa çatdırılacaqdır.

Ötən il ərzində Heydər Əliyev Fondu Azərbaycan muğamı kimi təkrarolunmaz fenomenə böyük dəstək vermişdir. Bu fürsətdən istifadə edərək mən bir sıra muğam layihələrini dəstəklədiyinə görə YUNESKO-ya öz minnətdarlığımı bildirir, onların uğurla həyata keçirilməsi haqqında məlumat vermək istəyirəm.

Beynəlxalq Muğam Mərkəzinin tikintisi davam edir. Baş direktor cənab Koişiro Matsuura həmin mərkəzin təməlinin qoyulması mərasimində iştirak etmişdir. Ümidvaram ki, o, 2008-ci ilin yayında Muğam Mərkəzinin açılışı mərasimində iştirak edəcəkdir.





Hazırda siz slaydda mərkəzin çox müasir memarlıq üslubunda işlənilmiş layihəsini görürsünüz, lakin eyni zamanda binanın özü bizim milli musiqi alətlərinə bənzəyir.

Biz muğam gecələrini keçirməkdə davam edirik. İndi isə siz həmin konsertlərdən şəkilləri seyr edirsiniz. Biz eyni zamanda, muğam haqqında orta əsrlər traktlarını çap etmişik. Bu gün biz sizə muğama həsr olunmuş jurnalı nümayiş etdiririk. Həmin jurnal bu istiqamətdə YUNESKO-nun dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən görülmüş işlərdən bəhs edir.

Yekunda mən Pakistanda qızlar məktəbinin tikintisi layihəsi haqqında bir neçə söz demək istəyirəm. Bu şəkillərdə siz dəhşətli zəlzələnin nəticələrini və ölən, yaralanan insanlar barədə məlumatı görürsünüz. Təkcə zədələnmiş məktəblərin sayı minlərlədir. Dağıntılar nəticəsində uşaqlar ya çöldə, ya da çadırlarda dərs keçməyə məcburdurlar. Lakin bu ağır şəraitə baxmayaraq, onlar təhsil almağı çox istəyirlər.

Məhz bu səbəbdən Heydər Əliyev Fondu Pakistanda yeni məktəbin tikintisi layihəsinə başlamışdır. Siz burada yenə də viran qalmış məktəbin fotolarını seyr edirsiniz. Bir sözlə, yeni məktəb yüksək standartlara cavab verəcək və bütün lazımi avadanlıqla təchiz olunacaqdır. Məktəbin ümumi sahəsi 2000 kvadratmetr olacaqdır. 500-dən çox şagird müasir sinif otaqlarından, iki laboratoriyadan, kitabxana, salon və idman meydançasından istifadə edəcəkdir. Bu şəkillərdə biz həmin məktəbin gələcək görünüşünü görürük. Tikintinin müddəti 12 ay olacaq, 2008-ci ilin mart ayında məktəbi açmağı planlaşdırırıq.

Ümid edirəm ki, həmin layihə uşaqlara lazımi təhsil almaq imkanını yaradacaq və "Hamı üçün təhsil" proqramının həyata keçirilməsində növbəti uğurlu addım olacaqdır.

Yekun olaraq mən bildirirəm ki, məşhur musiqiçi, həmkarımız

Mstislav Rostropoviçi Azərbaycanın ən yüksək mükafatı - "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur. Əfsuslar ki, o, bugünkü görüşdə iştirak edə bilmir. Mən ona möhkəm cansağlığı və uzun ömür arzulayıram.

Mən sizin hamınıza uğurlu və məhsuldar il arzulayıram.

*AzərTAc*
*"Xalq qəzeli",*
*7 aprel 2007-ci il*





# PARİSDƏ YUNESKO-NUN XOŞMƏRAMLI SƏFİRLƏRİNİN İLLİK HESABAT YIĞINCAĞI

Aprelin 3-də Parisdə YUNESKO-nun əsas iqamətgahında qurumun xoşməramlı səfirlərinin ənənəvi illik hesabat yığıncağı keçirilmişdir.

Azərbaycanın birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanı iqamətgahın qarşısında təşkilatın protokol idarəsinin rəhbəri Jan Lük Şan və digər rəsmi şəxslər qarşılamışlar.

Hesabat yığıncağını YUNESKO-nun baş direktoru Koişiro Matsuura açmışdır. O, xoşməramlı səfirləri 7-ci illik hesabat münasibətilə təbrik etmiş, onların son bir il ərzində gördükləri işlər barədə müfəssəl məlumat vermişdir. Baş direktor müxtəlif qitələri və ölkələri təmsil edən səfirlərin dünyanı narahat edən bir çox problemlərin həllində fəal iştiraklarını xatırlatmış, təşkilata hərtərəfli yardım göstərdiklərini, YUNESKO-nun davamlı inkişafını xüsusi diqqətdə saxladıqlarını vurğulamışdır.

Təhsil sahəsindən söhbət açan baş direktor hələ də dünyada milyonlarla uşağın təhsildən kənarda qaldığını bildirmiş, YUNESKO tərəfindən keçirilmiş beynəlxalq konfranslardan danışmışdır. O, Azərbaycanın birinci xanımının fəaliyyəti sayəsində Azərbaycanla YUNESKO arasında yaranmış sıx əməkdaşlığı, təhsillə bağlı regional konfransın 2008-ci ildə Bakıda keçirilməsi barədə Mehriban Əliyevanın təşəbbüsünü yüksək qiymətləndirmişdir.

Yığıncaqda Mehriban xanım Əliyeva çıxış etmişdir. Mehriban xa-

nın çıxışının əvvəlində baş direktoru və həmkarlarını ənənəvi illik hesabat yığıncağı münasibətilə salamlamışdır. Azərbaycanın birinci xanımı YUNESKO tərəfindən tərəfdaşlıq məsələsi ilə əlaqədar Qətərdə keçirilmiş regional konfransı xatırlatmış, xoşməramlı səfirləri "Hamı üçün təhsil" proqramı çərçivəsində 2008-ci ilin iyul ayında Azərbaycanda keçiriləcək yekun regional konfransa dəvət etmişdir.

Ötən ilin "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyanı ratifikasiya etmiş ölkələrin Baş Məclisinin 2006-cı il iyun ayının 26-da keçirilməsi ilə yadda qaldığını xatırladan Mehriban Əliyeva Azərbaycanın cari ilin mart ayında bu Konvensiyanı ratifikasiya etdiyini bildirmişdir. Mehriban Əliyeva qeyri maddi mədəni irsin qorunması və təbliğinin ümdə vəzifə olduğunu vurğulamış və bu sahədə ölkəmizdə görülən işlərdən söhbət açmışdır.

Heydər Əliyev Fondunun son bir ildəki fəaliyyətindən danışan xoşməramlı səfir həmin fəaliyyətin səmərəli olduğunu xüsusi vurğulamış, təhsil, elm, mədəniyyət, səhiyyə və ətraf mühitin qorunması kimi sahələrdə Fondun öz işini davam etdirdiyini, bir sıra layihələrin artıq başa çatdırıldığını, "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının uğurla həyata keçirildiyini bildirmişdir. Mehriban Əliyeva demişdir ki, Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO Bakıda "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzsunda ilk beynəlxalq konfrans təşkil etmişdir. Hazırda ölkəmizdə təbabətə dair 3 qiymətli əlyazma qorunub saxlanılır və onlar ümumdünya yaddaş qeydiyyatına salınmışdır. Bu əlyazmalar bütün bəşəriyyət üçün böyük əhəmiyyət kəsb edir.

Memarlıq abidələrinin bərpasında Heydər Əliyev Fondunun fəal iştirakını xatırladan Mehriban Əliyeva son vaxtlar Azərbaycanda bir çox tarixi və dini abidələrin bərpa edildiyinin xatırlatmış, eyni zamanda, Fondun ölkəmizin hüdudlarından kənardakı ümumbəşəri əhəmiyyət daşıyan mədəni abidələrin bərpasında da iştirakını vurğulamış, Parisin yaxınlığında, Versalda bərpa işlərində Heydər Əliyev Fondunun əməli fəaliyyət göstərdiyini bildirmişdir.





Azərbaycanın qeyri-maddi mədəni irslərindən biri olan muğamın qorunması və təbliği üçün bir çox işlər görüldüyünü deyən Mehriban Əliyeva bu sahədə Azərbaycana hərtərəfli kömək göstərmiş YUNESKO-ya minnətdarlığını bildirmişdi. Cənab K.Matsuuranın iştirakı ilə Bakıda təməli qoyulmuş Beynəlxalq Muğam Mərkəzinin tikintisinin davam etdirildiyini, 2008-ci ilin yayında mərkəzin açılışı ilə əlaqədar keçiriləcək təntənəli tədbirdə baş direktorun iştirak edəcəyinə ümidvar oolduğunu bildirmişdi. Mehriban xanım Əliyeva çıxışının sonunda Heydər Əliyev Fondunun Pakistandakı qızlar məktəbi ilə əlaqədar həyata keçirdiyi layihə barədə də məlumat vermişdir. Onun çıxışı dünyaşöhrətli musiqiçi Mstislav Rastropoviçi anadan olmasının 80 illiyi ilə əlaqədər hazırladığı layihələri əks etdirən slaydlarla müşayiət olunurdu.

Yığıncaq iştirakçıları Azərbaycanın birinci xanımının çıxışını sürəkli alqışlarla qarşılamışlar. YUNESKO-nun baş direktoru və xoşməramlı səfirlər yığıncaqdan sonra xatirə şəkli çəkdirmişlər.

*Həsənağa QURBANOV,*
*Bakı Şəhər Mədəniyyət İdarəsinin rəisi,*
*Əməkdar incəsənət xadimi*

# HEYDƏR ƏLİYEV FONDU MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASINI FƏALİYYƏTİNİN PRİORİTET İSTİQAMƏTİNƏ ÇEVİRİB

Heydər Əliyev Fondunun "Hərəmiz bir ağac əkək" təşəbbüsü ilə çıxış etməsi məndə gözəl hisslər oyatdı. Bir yandan fikirləşdim ki, çoxdandır cəmiyyət bu cür humanist təşəbbüslərin sorağında idi və yazın gəlişi ilə sanki yeni təşəbbüslərin də tumurcuqlayıb açması ictimai mahiyyət daşımaqla bərabər, həm də təbii bir hadisədir: Yazağzı ağac əkmək ən savab işdir! Digər tərəfdən Heydər Əliyev Fondunun fəaliyyətə başladığı vaxtdan həyata keçirdiyi tədbirləri xatırladım və bu qənaətə gəldim ki, hələ bundan sonra neçə belə ümumxalq əhəmiyyətli layihələr, proqramlar reallaşdırılacaq.

Son 15 ildə ümummilli liderimiz Heydər Əliyevin titanik fəaliyyəti sayəsində vətənimizdə yaranmış ictimai-siyasi sabitlik, bu sabitliyin Heydər Əliyev işinin layiqli davamçısı cənab İlham Əliyev tərəfindən möhkəmləndirilməsi bir vaxtlar cəmiyyəti narahat edən problemlərin çözülməsinə şərait yaradıb. Xüsusilə respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət bir çox məsələlərin yubadılmadan həlli üçün əsas olub. Təki həmin təşəbbüslər xoşməramlı olsun, xalqın ürəyindən xəbər versin. Onda cəmiyyət özü könüllü şəkildə, heç bir inzibati göstəriş olmadan həmin təşəbbüslərə qoşulur, onun arxasınca gedir.





Mən Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Hərəmiz bir ağac əkək" təşəbbüsü ilə gün ərzində görülən işləri mətbuatdan izlədim, ekrandan seyr etdim və məni qəribə bir rahatlıq bürüdü. İnsanlar yüz minlərlə ağac əkmişdilər. Çoxdandı ki, Azərbaycanda bu qədər ağac əkilmirdi. Xeyli vaxt idi ki, biz yalnız meşələrin qırılması, ağacların kəsilməsi kimi məlumatları oxuyub qanımızı qaraldırdıq. Ola bilsin, kimin üçünsə bu tədbir kampaniyaçılığın bir təzahürü kimi görünsün. Amma belə adamlarda mənəvi kasadlığın olması da istisna deyil. Axı korazehinlik, gördüklərinə qara eynək arxasından baxmaq vərdişi həm də mənəvi kasadlığın nümunəsidir. Əslində həmin tədbir Azərbaycana, onun sabahına sevgidən, gələcək üçün narahçılıqdan doğan bir təşəbbüsdür və bizim vətənə sevgimizin təzahürüdür. Biz bu il torpağa basdırdığımız tingləri şəxsi həyətlərimizdə, fərdi rahatlığımız üçün yox, hamı üçün, bütün Azərbaycan üçün əkdik. "Əkmək" sözünün arxasında sövq-təbii olaraq "toxum" sözü durur və bu gün Heydər Əliyev Fondunun təşəbbüsü ilə istər mənəvi və milli dəyərlər, istər sosial, istərsə də ekoloji sahədə əkilən toxumlar sürətlə böyüyür, cəmiyyətimiz üçün milli dəyərlər kompleksinə çevrilir. Həm də bu zaman hər şey ardıcıl surətdə, pillə-pillə, ağıllı şəkildə həyata keçirilir, təşəbbüslər təşəbbüs xatirinə irəli sürülmür, onun nəticələri ilə maraqlanılır, yekunlar təhlil edilir və cəmiyyət üçün, xalq üçün, Azərbaycan üçün bəhrəsi qiymətləndirilir.

Mən sənətlə, musiqi ilə bağlı olduğumdan həmin sahəyə göstərilən qayğı və diqqəti daha yaxından hiss edirəm və açığını deyim ki, bir vaxtlar məni sarmış bədbinlik bu gün öz yerini nikbin ruha, inam və ümidə verib. Heydər Əliyev Fondunun, onun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlər, bir an da dayanmadan göstər-

diyi fəaliyyət bir tərəfdən xoş hisslər yaradırsa, digər tərəfdən də insanı düşündürür. Bu cür ümummilli maraqları təmin edən tədbirlərin həyata keçirilməsi üçün mən nə edə bilərəm? Hansı köməyi göstərmək imkanındayam? Və inanıram ki, indi cəmiyyətdə bu cür düşünən yüz minlərlə adam var. Elə Heydər Əliyev Fondunun cəmiyyətə verdiyi ən böyük töhfələrdən biri budur: insanlarda vətəndaşlıq ruhunu oyatmaq!

Təbbi ki, Heydər Əliyev Fondunun çoxsaylı məqsədlərindən biri milli-mənəvi dəyərlərimizin qorunması və Azərbaycan mədəniyyətinin dünyada geniş təbliği ilə bağlıdır. Bir qədər əvvəldə qeyd etdiyim kimi, sənətlə, musiqi ilə bağlı olduğumdan məsələnin bu hissəsi mənə daha yaxındır - ən azı ona görə ki, mən həmin sahədəki uğurları da, problemləri də bilirəm. Uğurlar öz yerində, onlar haqqında hamı danışa bilər. Amma sənətdəki problemləri bilmək üçün hökmən onun içərisində olmalısan. Çünki "obıvatel" düşüncəsi bir sıra sahələrdə keçəri olsa da, sənətdə keçmir. Sənətlə bağlı problemlər xarakterikdir. Burada hamının istəyini, sevgisini qazanmaq olmur - ən azı ona görə ki, zövqlər müxtəlifdir. Ona görə də bu sahəylə bağlı problemlərin də xüsusiyyətləri başqadır. Burada inzibati metodlar işə keçmir. Əsas məsələ korlanmış zövqləri "bərpa" edib, onu milli maraqlar çərçivəsinə salmaqdır. Çünki söhbət milli-mənəvi dəyərlərdən gedir və dəyişən, qloballaşan, inteqrasiya olunan dünyamızda və mental yaddaşı qorumaq çox çətindir. Bax, Heydər Əliyev Fondunun bu istiqamətdə gördüyü işlərin miqyası məhz bu cəhətdən geniş və hərtərəflidir. Səs tezlikləri kimi bir-birinə qarışmış müxtəlif milli və mədəni dəyərlərin qovuşma müstəvisində Azərbaycanın mənəvi və mədəni mənzərəsini canlandırmaq çox çətindir. Çətindir, lakin şərəflidir. Heydər Əliyev Fondu məhz buna nail olub və ona görə də Fondun keçdiyi yol şərəfli yoldur.

Musiqi ilə, Azərbaycan mədəniyyəti ilə maraqlananların, özünü bu sahənin fədailəri hesab edənlərin yaddaşına gələr. Bir vaxtlar Azərbaycan muğamlarının nəinki gələcəyi, hətta mövcudluğu ilə bağlı narahatlıqlar tədricən gündəmin əsas mövzusuna çevrilirdi. Böyük siyasi kataklizmlər dövrünü yaşayan Azərbaycan xalqı sanki bir boşluğa düşmüşdü və milli-mənəvi dəyərlər unudulmaqda idi. Yenilərin meydana gəlməsi, üzə çıxması, qurulması bir yana, mövcud olanlar da dağılmaq prosesini yaşayırdı. Muğam sənəti unudulmaqda, mental yaddaşımızın bir sıra dəyərləri aşınmaqda idi. Bax belə bir məqamda Heydər Əliyev Fondu Mehriban xanım Əliyevanın təşəbbüsü ilə muğamlarımızı yaşatmaq, onun genetik yaddaşımızdakı kodlarını oyatmaq, təbliğ etmək kimi olduqca vacib bir işə başladı, Müsabiqələr elan etdi, festivallar keçirdi və həm də bu tədbirlər Bakı ilə məhdudlaşmadı, ölkəmizin bütün hüdudlarını əhatələdi. Xüsusilə, 2005-ci ildə Azərbaycan milli musiqisinin incilərindən olan muğamın inkişafı, təbliği ilə bağlı ciddi addımlar atıldı. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə görkəmli muğam ustaları ilə birlikdə dəyirmi masalar keçirildi, Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alındı. Muğam ustaları ilə mütəmadi görüşlərin və məsləhətləşmələrin nəticəsi olaraq Beynəlxalq Muğam Mərkəzinin layihəsi tərtib edildi və Heydər Əliyev Fondunda onun təqdimatı keçirildi. Respublikamızın Prezidenti möhtərəm İlham Əliyevin, YUNESKO-nun baş direktoru cənab Koişiro Matsuuranın iştirakı ilə Dənizkənarı Milli Parkda Muğam Mərkəzinin təməli qoyuldu.

Heydər Əliyev Fondunun muğam sənətimizin inkişafı və qorunması istiqamətində həyata keçirdiyi tədbirlərdən biri "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunun tərtib olunması və "Gülüstan" sarayında təqdimat mərasiminin keçrilməsidir. Albomda səs yazısı olan 24 sənətçinin ifasında səslənən muğam parçaları, bənzərsiz muğam ustalarından Cabbar Qaryağdıoğlunun, Keçəçi oğlu Məhəmmədin, Məşədi Məhəmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, Xan Şuşinskinin, İslam Abdullayevin, Bülbülün, Zülfü Adıgözəlovun, Əbülfət Əliyevin, habelə müasir muğam ustalarının ifaları xalqımızın qədim və zəngin mədəniyyəti barədə əyani tə-

səvvür yaradır. Bu layihənin məhz Qarabağ xanəndələrinə həsr edilməsi xüsusi diqqət çəkir. Bu həm xalqımızın Qarabağ ağrısını əks etdirir, həm də Azərbaycanın haqq səsini dünyaya çatdırır. Eyni zamanda hər bir azərbaycanlıya belə bir fikri aşılayır ki, belə nadir sənətkarlar yetirən, möcüzəli musiqinin beşiyi olmasının 120 illiyinə həsr edilmiş və "Space" televiziyasının keçirdiyi "Televiziya muğam müsabiqəsi-2005"-in finalçılarının konserti oldu. Həmin telemüsabiqə barədə nə isə yazmağı artıq hesab edirəm. Çünki müsabiqənin gedişini bütün Azərbaycan xalqı izlədi və bəlkə də, ilk dəfəydi ki, televizorların düyməsi məhz həmin müsabiqəni izləmək üçün bir kanalın üzərində dayanmışdı. Final konsertinin açılışı mərasimində Mehriban xanım Əliyevanın müsabiqə iştirakçılarına ünvanladığı müraciətindəki bir fikri mən aforizm kimi qəbul edərdim: **"Muğam sənətinin gözəlliyi bir daha nümayiş olundu!"**

Bu günlərdə Heydər Əliyev Fondunun Azərbaycan Dövlət Televiziyası ilə birgə daha bir muğam müsabiqəsinin keçirəcəyi barədə elanlarını eşitdikdə, bir daha əmin oldum ki, Heydər Əliyev Fondu artıq milli-mənəvi dəyərlərin qorunmasını öz fəaliyyətinin prioritet istiqamətinə çevirib. Bu cür fəaliyyət onun amalıdır və həmin yolda Fonda, onun prezidenti Mehriban xanım Əliyevaya uğurlar diləmək və çoxminli musiqiçilər, mədəniyyətimizin cəfakeşləri adından minnətdarlıq etmək isə bizim vətəndaşlıq borcumuzdur.

Milli-mənəvi dəyərlər də ağac kimidi. Onlar bir ürəkdə əkilməli, qorunmalı, inkişaf etməli, ona qayğı göstərilməlidir. Əksi olarsa, biz bir millət, bir xalq olaraq sıradan çıxa bilərik. İndi dünyada Azərbaycan mədəniyyəti, Azərbaycan musiqisi anlayışı yalnız mütəxəssislər və tədqiqatçılar üçün bəlli deyil, yer üzünün yüzlərlə xalqı bu mədəniyyətin, musiqinin, incəsənətin vurğununa çevrilib.

*"Xalq qəzeti",*
***11 aprel 2007-ci il***





# HEYDƏR ƏLİYEV FONDUNUN YENİ LAYİHƏSİ - "HƏRƏMİZ BİR AĞAC ƏKƏK!"

## BU NƏCİB TƏŞƏBBÜS ÖLKƏMİZİN HƏR YERİNDƏ DƏRİN RAZILIQ HİSSİ İLƏ QARŞILANMIŞDIR.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə işlənib hazırlanmış "Hərəmiz bir ağac əkək!" layihəsi ölkəmizin bütün bölgələrində dərin razılıq hissi ilə qarşılanmışdır. Ətraf mühitin sağlamlaşdırılması, ekoloji vəziyyətin yaxşılaşdırılması, Vətənimizin yaşıllıqlar diyarına çevrilməsi naminə başlanan bu hərəkatın əhəmiyyətini yerlərdə yüksək dəyərləndirirlər.

## İSMAYILLI

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırlanan və respublikamızın bütün bölgələrində böyük ruh yüksəkliyi ilə qarşılanan "Hərəmiz bir ağac əkək!" aksiyasına ismayıllılar də fəallıqla qoşulmuşlar.

Rayon mərkəzindəki Şəhidlər Xiyabanında, Zərifə Əliyeva adına parkda, Heydər Əliyev prospektində, Cavanşir və Axundov küçələrində 3400 şam küknar, qovaq, ağcaqayın, söyüd ağacları əkilmişdir. Yaşayış məhəllələrində təmizlik işləri də aparılmışdır.

Ağac əkini tədbirləri ən ucqar Burovdal kəndindən başlamış aran

zonasındakı Gəraybəyliyə qədər bütün bölgələrdə keçirilmişdir. Rayon icra hakimiyyətinin aqrar məsələlər şöbəsindən bildirmişlər ki, layihə çərçivəsində növbəti ümumrayon iməciliyinə da hazırlıq görülür. Əlverişli hava şəraiti kampaniyanın uğurla davam etməsinə imkan verir.

## NAXÇIVAN

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə hazırlanan və respublikamızın bütün bölgələrində böyük ruh yüksəkliyi ilə qarşılanan "Hərəmiz bir ağac əkək!" aksiyasında naxçıvanlılar da fəallıqla iştirak edirlər.

Naxçıvan Muxtar Respublikasında növbəti iməcilik mütəşəkkil keçmişdir. Naxçıvan şəhərində xatirə kompleksinin ətrafında 500, park və xiyabanlarda 500, Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz yollarının kənarlarında 4 minə yaxın, Naxçıvançay vadisində 1000 ağac və bəzək kolu əkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə "Əshabi-Kəhf" ziyarətgahına gedən yolun kənarlarında 1800, Arpaçay vadisində 550, Vayxır gölünün ətrafında 1100, Sədərək rayonunda 400 ağac əkilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, Xatirə kompleksi ətrafına meyvə ağacı və bəzək kolları əkmişdir.

## İDMANÇILARIN FƏALLIĞI

Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Hərəmiz bir ağac əkək!" kampaniyası ölkəmizin hər tərəfində böyük vüsətlə da-





vam etməkdədir. Təşəbbüsü alqışlayan "Neftçi" İdman-Sağlamlıq Mərkəzinin rəhbərliyi kollektiv üzvlərinin kampaniyada iştirak etməklə bağlı çoxsaylı müraciətlərini nəzərə alaraq strukturun bütün bölmələri işçilərinin, məşqçi-müəllim və idmançı heyətinin iştirakı ilə iməcilik təşkil etmişdir. İməciliyin yüksək səviyyədə keçirilməsi, görülən işlərə rəhbərliyin operativliyinin təmin edilməsi, ortaya çıxan məsələlərin vaxtında həll olunması və əmək təhlükəsizliyi qaydalarına ciddi nəzarət olunması məqsədi ilə xüsusi işçi qrupu yaradılmışdır.

Uğurla həyata keçirilən iməcilik zamanı "Neftçi" İSM-nin bütün struktur bölmələri üzrə ümumilikdə minədək ağac əkilmiş, genişmiqyaslı abadlıq işləri görülmüşdür.

## BƏRDƏ

Rayon meşə mühafizəsi və bərpası müəssisəsindən bildirmişlər ki, "Hərəmiz bir ağac əkək!" kampaniyası çərçivəsində Bərdədə yeni meşə sahəsinin salınmasına başlanmışdır. Yeni meşələrin salınması və bərpası üçün 40 hektar sahədə tinglik təsərrüfatı yaradılmışdır. Təsərrüfatda 1 milyondan çox akasiya, palıd, iydə, göyrüş, şam, sərv və digər ağac növləri yetişdirilir. Son üç ildə rayonda 340 hektar sahədə yeni meşə zolağı salınmışdır. Meşəliklərin ümumi sahəsi 8.600 hektara çatdırılmış, seyrək sahələrdə bərpa işləri aparılmışdır.

Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Hərəmiz bir ağac əkək!" kampaniyası çərçivəsində bu mövsümdə 30 hektar sahədə yeni meşə zolağı salınmışdır.

İndi rayonda yeni meşələrin salınması ilə yanaşı, şəhərin küçə, park və xiyabanlarında, yol kənarlarında da ağac əkini müvəffəqiyyətlə davam etdirilir.

## RABİTƏÇİLƏRİN XEYİRXAHLIĞI

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə başlanan "Hərəmiz bir ağac əkək!" kampaniyası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Teleradio" İstehsalat Birliyində (İB) və Bakı Telefon Rabitəsi İB-nin idarə və müəssisələrində çalışan rabitəçilər tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Nazirlikdən bildirmişlər ki, rabitəçilər istirahət günlərində iməciliklər keçirərək çalışdıqları idarə və müəssisələrin inzibati binalarının, telefon stansiyalarının Bakı Teleqüllə müəssisəsinin həyətində, eləcə də yol kənarlarında ümumillikdə 650-dən çox ağac və bəzək kolları əkmişlər.

Kampaniya nazirliyin bütün digər strukturlarında, eləcə də şəhər və rayon şöbələrində də uğurla, ruh yüksəkliyi ilə davam edir.

## AĞSTAFA

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Hərəmiz bir ağac əkək!" layihəsi Ağstafa rayonunda da əhali tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmışdır.

Rayon icra hakimiyyətindən bildirmişlər ki, idarə, müəssisə və təşkilatların kollektivləri bu nəcib təşəbbüsə ürəkdən qoşulmuş, şənbə və bazar günləri iməciliklər keçirərək 15 mindən artıq bəzək kolu və ağac tingləri əkmişlər.

Yaşıllaşdırma işləri davam etdiriləcəkdir.





## SURAXANI

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Hərəmiz bir ağac əkək!" layihəsinə ilk gündən qoşulmuş Suraxanı rayonunun sakinləri Qaraçuxur qəsəbəsinin Yeni Günəşli yamacında iməcilik keçirərək 6 min ağac əkmişlər.

Növbəti iməcilikdə Bakı - Aeroport yolunun rayon ərazisindən keçən hissəsində, "Atəşgah" dairəsindən Yeni Suraxanı dairəsinədək olan 9 kilometrlik yolun hər iki tərəfində daha 2 min ağac əkilmişdir.

Rayon icra hakimiyyətindən bildirmişlər ki, bu dairələr arasındakı ərazidə hər şənbə günü iməcilik keçirilməsi, ağaclara qulluq edilməsi, abadlıq işlərinin görülməsi artıq ənənə halını almışdır.

Rayon sakinləri layihə çərçivəsində 10 mindən çox ağac əkməyi qərara almışlar.

## SAMUX

Rayonda "Hərəmiz bir ağac əkək!" layihəsi çərçivəsində indiyədək 10 minədək ağac əkilmişdir. Havaların əlverişli keçməsindən istifadə edən idarə, müəssisə, təhsil və səhiyyə ocaqlarını kollektivləri bu layihəni əsl vətənpərvərlik təşəbbüsü kimi dəyərləndirərək yaşadıqları rayonun yaşıllaşdırılmasında nümunə göstərirlər. Ən ehtiyac duyulan yerlərdə ağac əkən sakinlər ərazilərin abadlaşdırılmasında da fəallıq nümayiş etdirirlər.

Rayon icra hakimiyyətindən bildirmişlər ki, yaşıllaşdırma işləri aprelin axırınadək davam etdiriləcəkdir. Əkmək üçün lazımi qədər ting tədarük edilmişdir.

## UCAR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Hərəmiz bir ağac əkək!" aksiyası Ucar rayonunda yüksək mütəşəkkilliklə davam etdirilir.

Ekoloji mühitin sağlamlaşdırılması məqsədi ilə həyata keçirilən bu xeyirxah təşəbbüsü dəstəkləyən rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, məktəblilər, şəhərin, ayrı-ayrı kəndlərinin sakinləri kütləvi surətdə iməciliklərə çıxaraq küçə və meydanların, yol kənarlarının yaşıllaşdırılması, abadlaşdırılması üçün səylə çalışırlar.

Rayonda mövsümün əvvəlindən bəri 4 mindən çox küknar, eldar şamı, çinar və digər ağac tingləri, minlərlə bəzək kolu əkilmişdir.

"Hərəmiz bir ağac əkək" layihəsi çərçivəsində ağacəkmə kampaniyası davam edir.

## TƏRTƏR

"Hərəmiz bir ağac əkək!" təşəbbüsünə yekdilliklə qoşulan tərtərlilər keçirdikləri iməciliklərdə 12 mindən çox ağac əkmiş, yeni yaşıllıqlar salmışlar. Heydər Əliyev prospektində, Nizami, Elman Hüseynov, Mahir Əsədov, Rasim Mürsəlov küçələrində və digər küçə və meydanlarda yaşıllaşdırma işləri aparılmışdır.

Rayonun bütün idarə və müəssisələri, əmək kollektivləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri keçirilən yaşıllaşdırma kampaniyasında yaxından iştirak etmişlər.

Tibb işçiləri keçirilən iməciliklərdə xüsusilə fərqlənmişlər. Onlar böyük həvəslə iməciliklərə çıxmış, xəstəxana və poliklinikaların ərazilərində mindən çox ağac əkmişlər. Bütövlükdə 4 kənd xəstəxanasında, 12 həkim ambulatoriyasında, 22 feldşer-mama məntəqəsində layihə çərçivəsində yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir.





## LERİK

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Hərəmiz bir ağac əkək!" layihəsinə qoşulan leriklilər rayonun ərazisində 3 mindən çox ağac əkmişlər.

Bu məqsədlə keçirilən iməcilik zamanı idarə, müəssisə, təşkilatların nümayəndələri Lənkəran - Lerik magistralının 50-ci kilometrliyindən başlayaraq qəsəbəyə gedən yolun hər iki tərəfində və yeni salınmış qəsəbə parkının ərazisində 2 mindən çox həmişəyaşıl ağac əkmişlər.

Layihə çərçivəsində rayonun ərazisində 20 min ağacın əkilməsi nəzərdə tutulmuşdur.

## GƏNCƏ

Gündən-günə gözəlləşən Gəncənin daha abad, daha yaraşıqlı olmasında şəhər sakinləri də yaxından iştirak edirlər.

Heydər Əliyev Fondunun çağırışına cavab olaraq, ümumşəhər iməciliyinə çıxan on minlərlə gəncəli şəhərin müxtəlif ərazilərində yüzlərlə ağac əkmiş, əvvəllər əkilmiş ağaclara qulluq etmiş, küçə və prospektlərdə, park və xiyabanlarda idarə və müəssisələrin ətrafında təmizlik işləri aparmışdır. Məktəblilər təhsil aldıqları məktəblərin yerləşdiyi ərazilərdə ağacların gövdəsini, habelə səki daşlarını ağartmış, ərazini tullantılardan təmizləmişlər.

Şəhər icra hakimiyyətindən bildirmişlər ki, bütün bunlar Heydər Əliyev Fondunun təşəbbüsü ilə başlanmış "Hərəmiz bir ağac əkək!" kampaniyası çərçivəsində həyata keçirilir.

Yazın axırınadək hər şənbə günü şəhərdə belə iməciliklərin keçirilməsi qərara alınmışdır.

## YARDIMLI

Heydər Əliyev Fondunun təşəbbüsü ilə respublikamızda başlanmış yaşıllaşdırma kampaniyasına bu dağ rayonunun qəsəbə və kənd sakinləri də qoşulmuşlar.

Yaşıllaşdırma hərəkatı çərçivəsində aprelin 7-də keçirilən ümumrayon iməciliyi zamanı rayon mərkəzinin təzə yaşayış massivində yerləşən ticarət mərkəzinin həyətində yeni bağ salınmış, rayon prokurorluğunun və baytarlıq idarəsinin həyətində müxtəlif növ çoxlu həmişəyaşıl ağaclar əkilmişdir.

Yaşıllaşdırma layihəsi tədbirləri çərçivəsində Yardımlıda indiyədək 3 mindən çox ağac əkilmişdir.

## İMİŞLİ

Heydər Əliyev Fondunun "Hərəmiz bir ağac əkək!" çağırışı İmişlidə də yüksək əhvali-ruhiyyə ilə qarşılanmışdır. Aksiyaya fəal qoşulan rayon sakinləri icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən iməciliklərə könüllü qoşularaq qısa müddətdə şəhərin küçə və xiyabanlarında, kənd yaşayış məntəqələrində 6 mindən çox ağac əkmişlər.

İcra hakimiyyətindən bildirmişlər ki, yaz aylarında müntəzəm keçiriləcək iməciliklər hesabına rayonda daha 20 min ağac, 4 min həzək kolu basdırılacaq, 5 hektar yaşıl zolaq yaradılacaqdır.

*"Xalq qəzeti",*
***11 aprel 2007-ci il***





## ZİNƏT ƏŞYALARI SƏRGİSİ İLƏ TANIŞLIQ

**Azərbaycanın birinci xanımı Mehriban Əliyeva aprelin 2-də Parisdə Lüksemburq binasında açılmış zinət əşyaları sərgisində olmuşdur.**

**Sərginin rəhbərliyi Mehriban xanımı xüsusi ehtiramla qarşılamışdır. Azərbaycan Prezidentinin xanımına sərginin tarixi, burada nümayiş etdirilən zinət əşyaları, müxtəlif qiymətli daşlar barədə ətraflı məlumat verilmişdir.**

*Elmira HÜSEYNOVA,*
*"Mənəvi tərəqqi"*
*QİB-nin sədri, professor*

# SABAHIMIZ NAMİNƏ FƏDAKARLIQ

Biz - "Mənəvi tərəqqi" Qadın İctimai Birliyinin üzvləri iyirminci əsrdə xalqımızın ikinci dəfə əldə etdiyi dövlət müstəqilliyinin bu şəkildə möhkəmləndirilməsindən, milli-mənəvi dəyərlərimizin yüksək səviyyədə qorunub saxlanılmasından, cəmiyyətin saflaşdırılması istiqamətində geniş miqyaslı tədbirlərin həyata keçirilməsindən, dövlətin və cəmiyyətin idarə edilməsində kişilərlə bərabər qadınlara da geniş imkan verilməsindən böyük məmnunluq hissləri keçiririk.

Ondan da məmnunuq ki, cəmiyyətin gələcəyi olan gəncliyimizin, uşaq və yeniyetmələrin sağlam, savadlı, geniş dünyagörüşlü böyüməsi üçün misilsiz layihələr reallaşdıran Heydər Əliyev Fondunun prezidenti də məhz qadındır. Ölkədəki bütün qadın təşkilatları Mehriban xanım Əliyevanın Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri və Milli Məclisin deputatı kimi həyata keçirdiyi bütün tədbirləri alqışlayır və dəstəkləyirlər. Ancaq xanım Əliyevanın xarici səfərlər zamanı reallaşdırdığı tədbirlər və apardığı danışıqlar bizim fəaliyyətimizə daha böyük stimul verir.

"Mənəvi tərəqqi" Qadın İctimai Birliyinin öz həmkarları ilə birlikdə keçidiyi "Cəmiyyətin mənəvi saflaşdırılmasının yolları" adlı konfransda qeyd olunmuşdur ki, saflaşmaya gedən istənilən yol bilavasitə bu prosesdə iştirak edən qadınların fəallığından keçir. İndi deyə bilərik ki, Mehriban xanım Azərbaycanda qadın fəallığının nümunəsini yaratmışdır. Biz qeyd etmişdik ki, cəmiyyətin mənəvi saflaşması üçün milli-mənəvi dəyərlərin qorunub saxlanılması və gələcək nəsillərə məhz olduğu kimi çatdırılması çox vacib bir amildir. Heç kimə sir deyil ki, Mehriban xanım Əliyeva istiqamətdə təkcə YUNESKO-nun xoşməramlı səfirləri arsında deyil, ümumiyyətlə, dünyanın birinci xanımları arasında ən çox fəallıq göstərən və daha məhsuldar çalışan siyasətçidir.





Bizim konfransın tezislərindən biri belə idi: "Yeniyetmə öz valideyinləri və ictimayət tərəfindən nəzarətsiz buraxılarsa, onun gələcəyi təhlükə altında olar" Yəni, bütün uşaq aə yeniyetmələrin təhsilə cəlb edilməsi, Azərbaycan kimi iqtisadi cəhətdən inkşafda olan, beynəlxalq aləmin diqqətini gündən-günə daha çox cəlb edən ölkə üçün çox vacib bir amildi. Biz bütün qadın təşkilatlarını bu işdə dövlətə və xüsusən, təhsil qurumlarına yardımçı olmağa çağırmışdıq. Mehriban xanım Əliyevanın aprelin 3-də Parisdə, YUNESKO-nun xoşməramlı səfirlərinin ənənəvi illik yığıncağındakı çıxışında səslənən bir məqam bizə çox byük mənəvi dayaq oldu: "Hamı üçün təhsil" proqramı çərçivəsində yekun regional konfrans 2008-ci ildə Azərbaycanda keçiriləcəkdir. Bu fürsətdən istifadə edərək mən sizi  konfransa iştrak etməyə dəvət edirəm. Əminəm ki, Bakı konfransı "Hamı üçün təhsil" proqramının həyata keçirilməsinə doğru atılmış əlavə uğurlu addım olacaqdır". Fikrimizcə, Azərbaycan cəmiyyətinin sabahı üçün, gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməsinin qayğısına qalan hər bir azərbaycanlı üçün bu xəbər böyük məmnunluq hissi yaradır. İslam Peyğəmbəri xəbərdarlıq edirdi: "Mən ümmətimin savdsızlıq ucbatından yaranan yanlış düşüncəsindən qorxuram. Çünki fikri yoxsulluğun vurduğu zərbəni iqtisadi yoxsulluq vura bilməz". Deməli Heydər Əliyev Fondu "Hamı üçün təhsil" proqramının həyata keçirilməsi ilə təkcə müstəqil dövlətimizin qarşıya qoyduğu vəzifələrin reallaşdırılmasına deyil, həm də bəşəri ideallara xidmət edir.

Yeri gəlmişkən, biz bu məqamın Mehriban xanımın ötən ilin dekabrında ABŞ-a səfəri zamanı da müşahidə etmişdik. Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri kimi Vaşinqtonda səfərdə olan Mehriban Əliyevanın dekabrın 7-də, ABŞ-ın birinci xanımı Laura Buş ilə görüşündə Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən təhsil sahəsində həyata keçirilən layhələrdən söz açılmışdır. Bu layihələr ABŞ-ın birinci xanımında xüsusi maraq doğurmuş və o demişdi ki, hər iki ölkənin gələcəyi baxımından təhsil sahəsinə yönəldilən sərmayə ən dəyərli sərmayədir. Əlbəttə, bu layihələrə münasibət siyasətçilərin dilində bu şəkildə səslənir. Böyük Azərbaycan mütəfəkkiri Nəsrəddin Tusi özünün məşhur "Əxlaqi Nasiri" kitabında yazırdı ki, hər bir uşağın gələcəkdə necə olacağı onun həyatının ilk anlarından etibarən aldığı tərbiyyədən asılı olacaqdır. Bu gün taleyin müxtəif gərdişləri ucbatından ölkəmizdə yüzlərlə uşaq internat məktəbində və uşaq evlərində yaşamağa məcburdursa və Mehriban Əliyeva onların hamısını Heydər Əliyev Fondunun qayğısı ilə əhatə edibsə, xalq üçün göstərilən bu xidmətin bircə adı var: "Dünənə ehtiram, sabaha isə ümid işığı".

Bizim tədbirlərimizdə tez- tez belə bir ifadə işlədilir ki, bütövlükdə cəmiyyətin saflaşdırılması üçün cəmiyyətin ayrı- ayrı fərdlərinin həm mənəvi, həm də, fiziki cəhətdən sağlamlaşdırılması vacibdir. Fərdin mənəvi cəhətdən sağlamlaşdırılması üçün həyata keçirilən tədbirlərdən söz açdıq. Soydaşlarımızın və ümumiyyətlə, cəmiyyət üzvlərinin fiziki sağlamlığının bərpası üçün də Heydər Əliye Fondu ona qədər layihə reallaşdırmışdır. Bu sahədə də ənənəviliyə üstünlük verən Mehriban xanım çox orijinal bir layihəni reallaşdıraraq beynəlxalq aləmdəki həmkarlarını heyran etmişdir. Yuxarıda qeyd etdiyimiz tədbirdə - xoşməramlı səfirlərin illik yığıncağında çıxış edən Mehriban xanım həmin məsələyə toxunaraq demişdir: "Heydər Əliyev Fondu, Vaşinqton Elmlər Akademiyası və YUNESKO" "Orta





əsrlər əlyazmalarında tibb və əczaçılıq" adlı ilk beynəlxalq konfrans təşkil etmişdir. Tibb elminə aid Azərbaycanda saxlanılan nadir əlyazmalar Ümumdunya Yaddaş Qeydiyyatına salınmışdır. Həmin qeydiyyatda ümumən 120 əlyazma öz əksini tapmışdır.Bu əlyazmalar nəinki ayrı-ayrı dövlətlər, o cümlədən bütün bəşəriyyət üçün çox əhəmiyyətlidir". Diqqət yetirin, dünyada 200-dən çox ölkə var və bu qədər ölkədəncəmi 120 əlyazma Yaddaş qeydiyyatına alınıbsa, onun da üçü Azərbaycandadırsa, bu ölkəmizin beynəlxalq aləmdə tanınması üçün çox böyük uğurlu addımdır.

Sonda qeyd edirik ki, Azərbaycan qadınının maddi və mənəvi yüksəlişini xalqımızın ən böyük naliyyətlərindən biri hesab edirik. Ona görə də "millətin gələcəyi anaların əlindədir" - ifadəsini danılmaz bir həqiqət kimi qəbul edirik.

# HEYDƏR ƏLİYEV FONDUNUN LAYİHƏSİ OLAN "MÜHARİBƏ VƏ TARİXİ MƏDƏNİYYƏT ABİDƏLƏRİMİZ" KİTABININ TƏQDİMATI

Aprelin 20-də "Heydər Əliyev Fondu..." seriyasından nəşr olunan "Müharibə və tarixi mədəniyyət abidələrimiz" kitabının təqdimat mərasimi keçirilmişdir.

Mərasimi giriş sözü ilə açan icraçı direktor Anar Ələkbərov Fondun yarandığı vaxtdan öz fəaliyyətində ümummilli liderimiz Heydər Əliyevin ideallarını rəhbər tutaraq ölkəmiz haqqında həqiqətlərin dünya ictimayətinə çatdırılması , milli-mədəni irsimizin qorunması və təbliği sahəsində bir sıra mühüm layihələr həyata keçirdiyini bildirmişdir.

Fondun prezidenti YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələrdən danışan icraçı direktor 2004-cü ildə müxtəlif bölmələrdən ibarət olan 4 min səhifədən artıq məlumatı birləşdirən "Azərbaycan" internet portalının yaradıldığını, "Qarabağ həqiqətləri" toplusu hazırlandığını və onun ingilis, fransız, alman, macar və rus dillərində çap edildiyini xatırlatmışdır. A.Ələkbərov onu da bildirmişdir ki, Fondun prezidentinin tapşırığına əsasən, qurumun dəstəyi ilə cari ilin fevral-mart aylarında dünyanın müxtəlif şəhərlərində, nüfuzlu beynəlxalq təqkilatlarda Xocalı soyqırımının 15-ci ildönümünə həsr edilmiş silsilə tədbirlər keçirilmiş , "Xocalı soyqırımı" sə-





nədli filmi nümayiş etdirilmiş, soyqırıma dair fotoşəkillərdən ibarət sərgi təşkil olunmuşdur. "Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq Xarici İşlər Nazirliyi ilə birgə "Azərbaygana qarşı müharibə: mədəni irsin hədəfə alınması" adlı nəşr hazırlanır. Kitaba Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində dağıdılmış və zərər çəkmiş mədəni sərvətlərimizin geniş siyahısı, fotoşəkillər, kosmik çəkilişlər, xəritələr, film və multimedia diski əlavə olunacaqdır.

Heydər Əliyev Fondunun köməyi ilə nəşr edilmiş "Müharibə və tərixi mədəniyyət abidələrimiz" kitabının hazırlanmasında köməyə görə Milli Elmlər Akademiyasının İnsan Hüqüqları İnstitutunun kollektivinə təşəkkür edən A.Ələkbərov, belə layihələrin fond tərəfindən gələcəkdə də dəstəklənəcəyini bildirmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Hidayət Orucov, akademiklər Bəkir Nəbiyev, Fuad Qasımzadə, AMEA-nın müxbir üzvləri Vasim Məmmədəliyev, Şahbaz Muradov, Məşədixanım Nemətova, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, siyasi elmlər doktoru Rövşən Mustafayev, Rusiya Kulturologiya İnstitutunun direktoru Kirill Razqolov çıxış etmişlər.

Kitabda işğal altında qalan Azərbaycan ərazilərindəki 400-dən çox tarixi mədəniyyət abidəsi, ziyarətgahlar, məscid və məbədlər haqqında maraqlı, zəngin məlumatlar verilməsi, həmin siyahının genişləndirilməsi, erməni işğalçılarının viran qoyduqları abidələrin, inanc yerlərinin müəyyənləşdirilməsi və mədəniyyətə, mənəviyyata qarşı soyqırım faktlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində araşdırma və tədbirlərin davam etdirilməsi çıxışlarda razılıq hissi ilə vurğulanmışdır. Azərbaycan həqiqətlərinin dünyaya yayılması, milli-mənəvi dəyərlərimizin qorunması, mədəniyyətimizin tərəqqisi sahəsində Heydər Əliyev Fondunun prezidenti Mehriban

Əliyevanın təşəbbüskar fəaliyyəti yüksək qiymətləndirilmişdir. Mehriban xanımın kitaba yazdığı ön sözdə vurğuladığı əsas məqamları xatırladan natiqlər "Müharibə və tarixi mədəniyyət abidələrimiz" kitabının nəşrinə dəstəyinə görə Azərbaycanın birinci xanımını elmi ictimaiyyətə, ziyalılar adından təşəkkürlərini bildirmişlər.

Mərasim iştirakçıları Fondun foyesinjə təşkil olunmuş sərgiyə, Fondun nəşrlərinə də baxmışlar.

***"Xalq qəzeti",***
***21 aprel 2007-ci il***





# HEYDƏR ƏLİYEV FONDU İLƏ İSESKO ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA PROTOKOL İMZALANMIŞDIR

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva aprelin 27-də İSESKON-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyeri ilə görüşmüşdür. Mehriban xanım 51 müsəlman dövlətinin təmsil olduğu nüfuzlu beynəlxalq mədəni-humanitar qrum olan İslam Ölkələri Elm, Təhsil və Mədəniyyət Təşkilatının - İSESKO-nun rəhbərlərini salamlayaraq onları yenidən Azərbaycana gəlməsindən məmnunluğunu söylədi. Dövlətimizin yüksək mükafatı - "Şöhrət" ordeni ilə təltif edilməsi münasibətilə baş direktoru təbrik edən Mehriban Əliyeva özünün də xoşməramlı səfiri olduğu İSESKO-nun dünyada nüfuzunun getdikcə artmasından, İslam ölkələrində gördüyü genişmiqyaslı işlərdən qürur duyduğunu bildirdi.

Səmimi qəbula və xoş sözlərə görə təşəkkür edən İSESKO-nun baş direktoru Azərbaycan prezidenti İlham Əliyevlə görüşünün böyük təsir bağışladığını, rəhbərlik etdiyi təşkilatın ölkəmizlə əməkdaşlığa xüsusi önəm verdiyini, Heydər Əliyev Fondu ilə əlaqələrin genişlənməsindən məmnunluğunu vurğuladı. Fondun elm, təhsil, mədəniyyət və digər sahələrdə həyata keçirdiyi layihələri yüksək qiymətləndirən Əbdüləziz bin Osman əl- Tüveyeri İSESKO-nun ilk qadın xoşməramlı səfiri Mehriban xanımın bu şərəfli missiyanın yerinə yetirilməsində şəxsi nümunə göstərdiyini bildirib.

Sonra Mehriban Əliyeva və Əbdüləziz bin Osman əl- Tüveyeri Heydər əliyev Fondu ilə İSESKO-nun arasında əməkdaşlıq haqqında

protokol imzaladı. 5 il müddətinə əməkdaşlığın əsas prinsiplərini tənzimləyən protokol elm, mədəniyyət, təhsil sahəsində əlaqələrin inkişafını, birgə layihələrin işlənib həyata keçirilməsini, fəaliyyətin əlaqələndirilməsini nəzərdə tutur.

İSESKO-nun baş direktoru və onu müşayiət edən nümayəndələr Azərbaycanın birinci xanımı ilə xatirə şəkli çəkdirmişdir.

*"Xalq qəzeti",*
*28 aprel 2007-ci il*





# AZƏRBAYCANIN BİRİNCİ XANIMINA "SİVİLİZASİYALARARASI DİALOQUN QLOBAL MİQYASDA TƏŞVİQİNƏ GÖRƏ" MÜKAFATI TƏQDİM EDİLMİŞDİR

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İslam konfransı Təşkilatı Gənclər Forumunun "Sivilizağsiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə" mükafatına layiq görülmüşdür.

Aprelin 27-də forumun rəhbəri Əli Sarkaya mükafatı təqdim etmişdir. O demişdir ki, bu qərarı qəbul edərkən Mehriban xanımın son illərdəki genişmiqyaslı ictimai fəaliyyəti, Heydər Əliyev Fondunun prezidenti kimi təhsil, səhiyyə, mədəniyyət, ekologiya və digər sahələrdə həyata keçirdiyi mühüm layihələri, YUNESKO və İSESKO kimi beynəlxalq təşkilatlarda fəal işi, bir sözlə, sivizilizasialararası dialoq əməkdaşlığı, fərqli mədəniyyətlərin qovuşmasına dəyərli töhfə verməsi əsas götürülmüşdür. Azərbaycanın birinci xanımı məhz belə səmərəli fəaliyyətinə görə forumun rəyasət heyyətinin ötən il sentyabrın 2-də keçirilmiş iclasın qərarı ilə bu mükafata layiq görülmüşdür.

Xoş sözlərə, dəyərli mükafata görə təşəkkür edən Mehriban xanım Əliyeva İslam dünyası gənclərinin ictimai-siyasi proseslərdə daha yaxından iştrakının əhəmiyyətinin vurğulamış, Heydər Əliyev Fondunun gənclərin hər bir təşəbbüsünə yardımçı olacağını bildirmişdir.

Fondun rəhbəri Mehriban xanımla xatirə şəkli çəkdirmişlər.

***"Xalq qəzeti",***
***28 aprel 2007-ci il***

## Mündəricat

Qadın ürəyinin şəfəqləri..........3
Türkiyə prezidenti Əhməd Necdət Sezər Heydər Əliyev Fondunda olmuşdur..........7
MDB ölkələri Yəhudi İcmaları Federasiyasının nümayəndə heyəti Heydər Əliyev Fondunda olmuşdur..........10
Bakıda "ÜNS yaradıcılıq səhnəsi" teatrının təntənəli açılışı olmuşdur..........12
Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva Yaponiya Kimono Akademiyası ilə tanış olmuşdur..........15
Azərbaycan Prezidentinin xanımı Mehriban Əliyeva Kubaki teatrı və "Meycici" məbədi ilə tanış olmuşdur..........16
Rusiyanın NTV kanalı Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya həsr olunmuş veriliş hazırlanmışdır..........18
Heydər Əliyev Fondunda görüş..........19
Heydər Əliyev Fondunun prezidenti, YUNNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Dövlətlər Arası Avi-asiya Komitəsinin sədri Tatyana Anodina ilə görüşmüşdür..........22
Mehriban Əliyeva: Mədəniyyət müasir cəmiyyətin bir çox problemlərini həll edə biləcək universal vasitədir..........24
Heydər Əliyev Fondunda görüş..........29
Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkan qəsəbəsində bir sıra obyektlərin açılışında iştirak etmişdir...31
Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Əzizbəyov rayonunda təhsil və mədəniyyət obyektlərinin açılışında iştirak etmişdir..........37
Bakıda "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzusunda I Beynəlxalq Konfrans işə başlamışdır..........42





Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə yeni mənzillər verilmişdir..........58
Akademik Zərifə Əliyeva adına Qazıqumlaq kənd xəstəxanasının açılışı olmuşdur..........60
Heydər Əliyev Fondunun Qazıqumlaq məktəblərinə hədiyyəsi...61
Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qazıqumlaq kəndindəki şadlıq evində keçirilən toy mərasimində iştirak etmişdir........63
Heydər Əliyev Fondu ölkəmizin ali məktəblərinə müxtəlif elm sahələrinə aid Rusiyada nəşr olunmuş 4 mindən çox kitab hədiyyə etmişdir..........66
Üzeyir Hacıbəyovun anadan olmasının 112 illiyinə həsr edilmiş muğam konserti..........76
Şərəfli ənənələrin ləyaqətli davamçısı..........79
Heydər Əliyev Fondu ölkəmizdə təhsilin, səhiyyənin, elm və mədəniyyətin, idmanın inkişafına, insanların konkret qayğı və problemlərinin həllinə, Azərbaycanın Beynəlxalq əlaqələrinin genişlənməsi öz töhfəsini verir..........86
Azərbaycan Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Sloveniyaya rəsmi səfəri..........108
Azərbaycan Prezidenti İlham Əliyev Sloveniya parlamentində olmuşdur..........111
Azərbaycan Prezidenti İlham Əliyev Postoyna Magaras ilə tanış olmuşdur..........112
Azərbaycanda adət-ənənələrin və sterotiplərin gender bərabərliyinə təsiri..........114
Heydər Əliyev Fondu ilə tanışlıq..........122
Heydər Əliyev Fondunun səhiyyə sahəsinə daha bir töhfəsi....124
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Qaradağ rayonunda olmuşdur..........125

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva Əzizbəyov rayonunda olmuşdur....................................................................128
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Qətərə səfəri....133
Azərbaycan gəncliyi hərtərəfli qayğı ilə əhatə olunmuşdur..........136
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Qətərə səfəri Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın çıxışı..........................................................................143
Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva əqli və fiziki cəhətdən qüsurlu uşaqların təhsil aldığı məktəblərdə olmuşdur.......................................................................150
Heydər Əliyev Fondunun təlim-tədris mərkəzinin açılışı olmuşdur...156
Heydər Əliyev Fondunda görüş.............................................161
Azərbaycan xalçaçılıq sənəti Türkiyə Baş Nazirinin xanımında zəngin təəssürat yaratmışdır.................................................163
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Fransaya səfəri..........................................................165
Azərbaycanın birinci xanımı Parisin Neker xəstəxanası ilə tanış olmuşdur...............................................................167
Latviya prezidenti Valdas Adamkus ilə görüş..........................168
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Fransaya səfəri zamanı İordaniya kraliçası Raniyə Əl-Abdullah ilə görüş...........................................................................169
Azərbaycan-Fransa mədəni əlaqələri intensiv xarakter almışdır....171
Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Fransa Milli Assambleyasının sədri Patrik Olye ilə görüşmüşdür..................175



*Mehriban ƏLİYEVA*

Fransa Xarici İşlər Nazirinin xanımı ilə görüş..........................175
Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın Fransaya səfəri..........................................................176
Parisdə YUNESKO-nun xoşməramlı səfirlərinin illik hesabat yığıncağı...................................................................181
Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərin qorunmasını fəaliyyətinin prioritet istiqamətinə çevirib..............................184
Heydər Əliyev Fonundunun yeni layihəsi "Hərəyə bir ağac əkək!"....189
Sabahımız naminə fədakarlıq.............................................198
Heydər Əliyev Fondunun layihəsi olan "Müharibə və tarixi mədəniyyət abidələrimiz" kitabının təqdimatı..........................................202
Heydər Əliyev Fondu ilə İSESKO arasında əməkdaşlıq haqqında protokol imzalanmışdır.....................................................205
Azərbaycanın birinci xanımına "Sivilizasiyalararası dialoqun qlobal miqyasda təşviqinə görə" mükafatı təqdim edilmişdir................207